Xalqın qəzeti!

# Xalq qəzeti

№ 154 (30270) 25 iyul 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür. Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycan prioritetlərimizə və milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmur. Başqa sözlə desək, biz müstəqil davranırıq və siyasətimiz müstəqildir.**

## Azərbaycan müstəqil siyasəti ilə güclüdür

### Prezident İlham Əliyev Çinin “China Media Group” media korporasiyasına müsahibə verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Çinin “China Media Group” media korporasiyasına müsahibə verib. Dövlətimizin başçısının müsahibəsi iyulun 22-də “China Global Television Network” televiziya kanalında yayımlanıb.**

AZƏRTAC müsahibənin geniş variantını təqdim edir.

**Müxbir:** Müsahibəyə görə minnətdarıq. Biz yalnız üç gündür Bakıdayıq. Ölkənizin və şəhərin nə dərəcədə müasir olması bizdə dərin təəssürat yaratdı və getdiyimiz hər yerdə bir Azərbaycan elementi var.

**Prezident İlham Əliyev:** Düzdür. İlk öncə, Azərbaycana xoş gəlmisiniz. Gəldiyinizə və ölkəmizə diqqət yetirdiyinizə görə sağ olun. Çox şadam ki, siz Azərbaycanda bir neçə gün olacaqsınız və bu, ölkəmizi və xalqımızı daha yaxından tanımaq üçün yaxşı fürsət olacaqdır. Tamamilə haqlısınız ki, biz şəhərlərimizin əsl orijinallığını, nailiyyətlərini qoruyub saxlayırıq. Eyni zamanda, biz ölkəmizi müasirləşdiririk.

**(ardı 2-ci səhifədə)**

## Misir Ərəb Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

**Hörmətli cənab Prezident,**

Misir Ərəb Respublikasının milli bayramı – İnqilab Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Xalqlarımızı ənənəvi dostluq münasibətləri birləşdirir. Bu gün bu xoş ənənələr üzərində qurulan dövlətlərarası əlaqələrimiz müvəffəqiyyətlə inkişaf etməkdədir. İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Misir arasında dostluq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Misir xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 20 iyul 2023-cü il**

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

**İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Dövlətimizin başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edib, ona Özbəkistanın inkişafı naminə fəaliyyətində yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Özbəkistan Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Söhbət zamanı Azərbaycan-Özbəkistan dostluq və qardaşlıq münasibətlərinin sürətli inkişafından məmnunluq ifadə edilib, yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olunub.

Dövlət başçıları əlaqələrimizin bundan sonra da hərtərəfli inkişafı ilə bağlı fikir mübadiləsi aparıb, yaxın gələcəkdə Şavkat Mirziyoyevin Azərbaycana dövlət səfərinin gözlənildiyi vurğulanaraq, bu səfərin əlaqələrimizin inkişafında növbəti mərhələ olacağına əminlik ifadə edilib.



## Prezident İlham Əliyevin inteqrasiya məntiqi: tələblər, şərtlər və xəbərdarlıq

Səhifə ⇨ 7

## Azad olunmuş ərazilərin bərpası qeyri-neft sektorunun inkişafını sürətləndirəcək



Səhifə ⇨ 11

## İrəvanın ənənəvi müttəfiqi Rusiyaya növbəti xəyanəti



Səhifə ⇨ 7

## Qlobal Media Forumu başa çatdı



Səhifə ⇨ 8




Səhifə ⇨ 11

## Kim kimi bloklayır, Paşinyan?

**Sözdə “Qarabağ daxil Azərbaycanın ərazi bütövlüyünü tanıyırıq” – deyən Ermənistanın baş naziri Nikol Paşinyan Bakı ilə bu prinsip əsasında sülh sazişi imzalamağa hazır deyilmiş. O, danışıqlarda “Qarabağ ermənilərinin hüquqları” məsələsini ön plana çıxarmağa çalışır. Belə məlum olur ki, İrəvanın sülh sazişinin imzalanmasını yubatması üçün əsas bəhanəsi elə bu yanaşmadır.**

N.Paşinyan “Frans-Press” agentliyinin gürcü əsilli əməkdaşı İrakli Metrevelinin suallarını cavablandırıb. Doqquz sualdan yeddisinə açıqlamasında “Dağlıq Qarabağdakı humanitar böhrandan”, erməni sakinlərin “hüquq və təhlükəsizliyindən”, Bakının “davamlı təcavüzkar ritorikasından” şikayətlənən hayların baş naziri bir çox məqamlarda özü-özünü təkzib edib.

*(ardı 10-cu səhifədə)*

## Qeyrəti öyüncə çevrilən Vüsal



Səhifə ⇨ 12

## Kiyev Moskva və Krıma dron zərbələri vurub

Səhifə ⇨ 15




Səhifə ⇨ 15

# Prezident İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verib

(əvvəli 1-ci səhifədə)

Bakıda gördükləriniz müasirliklə ənənələrin qovuşmasıdır və hesab edirəm ki, onlar bir-birinə qarşı çıxmır, bir-birinə zidd deyil. Bu, məqsədyönlü şəkildə edilib, çünki Bakı kimi tarixi şəhərdə ilk məqsəd tariximizi və memarlıq abidələrini qorumaqdır. Eyni zamanda, şəhərə inkişaf etmək imkanı verilməlidir. Bakıda hər iki məqamı duya bilərsiniz. Zənnimcə, bu, həqiqətən mühüm nailiyyətdir və bunu qeyd etdiyinizə görə sağ olun.

**Müxbir:** Sizin qədər olmasa da, biz də bir sıra şəhərlərdə olmuşuq. Ancaq Bakı mənim səfər etdiyim heç bir şəhərə bənzəmir.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Müxbir:** Cənab Prezident, müsahibəmizin əvvəlində bildirmək istəyirəm ki, bu il mərhum atanız Ümummilli lider Heydər Əliyevin 100 illiyi qeyd olunur. O, təkcə Ulu öndər və müasir Azərbaycanın qurucusu deyil, Çin-Azərbaycan dostluğunun təməlini qoyan şəxs olub. Ona görə bir daha onun xatirəsinə ehtiramımızı ifadə edirik.

**Prezident İlham Əliyev:** Çox təşəkkür edirəm. Tamamilə haqlısınız ki, Heydər Əliyev Azərbaycanın dövlətçiliyini quran, ölkəni inkişaf yoluna yönləndirən, vətəndaş müharibəsinin qarşısını alan, 1990-cı illərin əvvəlində hökm sürən qarışıqlıq və xaos vəziyyətinə son qoyan şəxs idi. O, həmçinin bu gün də rəhbər tutduğumuz daxili və xarici siyasət prioritetlərini müəyyən etdi. Əlbəttə, 30 il ərzində dünya dəyişib, lakin bizim başlıca məqsədlərimiz dəyişməz olaraq qalıb – dövlətçiliyimizin möhkəmləndirilməsi, qabaqlayıcı tədbirlər görməklə milli maraqlarımıza əsaslanan fəal xarici siyasətin yürüdülməsi və Azərbaycanın iqtisadi, siyasi inkişafı. Buraya olduqca fəal regional siyasətin həyata keçirilməsini də əlavə etmək olar. Əlbəttə, müstəqilliyimizin ilk günlərindən əsas məqsədlərdən biri ölkəmizin ərazi bütövlüyünün bərpası idi. Buna da iki ildən bir az artıq əvvəl nail olunub.

Tamamilə haqlısınız ki, o, Azərbaycan-Çin münasibətlərinin inkişafında çox vacib rol oynayıb. Onun Çinə səfərləri və Çinin rəhbərləri ilə görüşləri əməkdaşlığımızın çərçivəsini yaratdı. O vaxtlar dünyada Azərbaycan o qədər də tanınmırdı. Bunun təməli məhz o vaxt qoyulub və bu gün mən olduqca şadam ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir və daha çox sahələri əhatə edir. Əməkdaşlığın gündəliyi 30 il əvvəlkindən daha genişdir. Bu münasibətlər qarşılıqlı hörmət və dostluq üzərində qurulub.

**Müxbir:** Bir çox çinli izləyici diqqət yetirib ki, atanız Çinə rəsmi səfərləri zamanı rəsmi proqramdan əlavə o, sadə çinli ailələrlə görüşüb və onların həyatı ilə maraqlanıb. Çinli məktəblilərlə görüşüb və bölgələrə səfərlər edib. Buraya biz fotoları gətirmişik və Sizdən xahiş edək ki, bunlarla bağlı əlavə məlumat verəsiniz. Məsələn, bu şəkil 1990-cı illərdə çəkilib. Burada o və çinli ailədir.

**Prezident İlham Əliyev:** Bəli, düzdür.

**Müxbir:** Gözəl şəkildir.

**Prezident İlham Əliyev:** Bəli. Bu, bir daha onu nümayiş etdirir ki, sizin dediyiniz kimi, o, yalnız rəsmi təmaslarla kifayətlənmirdi və xalqlar arasında münasibətlər qurmağa çalışırdı. Bu foto da məhz onu nümayiş etdirir.

**Müxbir:** Bu fotoda isə o, məktəblilərlə söhbət edir.

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir:** Onlara hədiyyə verir. Xoşunuz gəlirmi?

**Prezident İlham Əliyev:** Bəli, bu, sizin dediklərinizin aydın təzahürüdür. Sağ olun.

**Müxbir:** Burada isə Çin səddinə, "Qadağan olunmuş şəhər"ə və digər tarixi yerlərə səfərlər var.

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir:** Atanız Çini və oraya səfərlərini Sizə necə təsvir edirdi? Çin onun üçün nə demək idi və Siz nəsildən-nəslə ötürülmüş bu dostluğun davamını necə görürsünüz?

**Prezident İlham Əliyev:** Əslində, Çin onun üçün tanımadığı ölkə deyildi. O, müxtəlif dövrlərdə Çinin inkişafı ilə bağlı yaxşı məlumatlı idi. Vaxtilə o, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində çalışıb və Çin nümayəndələri ilə bir çox görüşlər keçirib. O, ölkənizin dinamikası və inkişafından yaxşı xəbərdar idi. Müstəqil Azərbaycanın Prezidenti seçiləndən sonra isə onun əsas xarici siyasət prioritetlərindən biri Çinlə ikitərəfli münasibətlər qurmaq idi. Xatırlayıram ki, o, Çinə rəsmi səfərdən böyük təəssüratla qayıtmışdı. Heydər Əliyev Çinin artmaqda olan gücünü, həmrəy cəmiyyətini və aydın məqsədlərə malik ölkəni gördü - bunlar təxminən 30 il öncə baş vermişdi.

Sıravi insanlarla görüşlər isə onun təbiəti ilə bağlı idi. O, burada - Azərbaycanda da hər zaman çalışırdı ki, cəmiyyətin nəbzini tutsun, insanların necə yaşadığını, nə fikirləşdiyini, hansı problemlərlə üzləşdiyini və hansı arzulara malik olduğunu bilsin. Təbii ki, o, Çində, həmçinin sadə insanların həyat tərzi ilə maraqlanırdı.

Beləliklə, bizim ikitərəfli münasibətlərimizin təməli həmin tarixi səfər nəticəsində qoyuldu və həmin vaxtdan onların dinamik inkişafı üçün mühüm potensial vardır.

**Müxbir:** Biz Bakının müxtəlif yerlərində atanızın heykəllərini gördük və onun adını daşıyan prospektlər, memoriallar var. Zənnimcə, burada Sizin atanıza olan ehtiram və məhəbbətin daha dərin mənası var. Şəxsən Sizin üçün atanız kim olub?



**Prezident İlham Əliyev:** Xüsusilə Azərbaycan cəmiyyətində hər bir övlad üçün onun valideynləri çox əzizdir. Azərbaycan cəmiyyəti ənənəvi dəyərlər, ailə dəyərləri üzərində qurulub. Bu ənənələr dərin köklərə malikdir. Vacib haldır ki, 30 il müstəqil ölkə olaraq qlobal mühitdə yaşamağımıza baxmayaraq, bu ailə dəyərlərimizi və böyüklərə hörməti qoruya bilmişik. Bu, bizim cəmiyyətimizin təməlidir. Hər bir azərbaycanlı kimi, mənim üçün də atam əziz insan olub. O insan ki, ona bənzəməyə çalışırsan, xüsusilə ata ilə fəxr edə biləndə. Bu belə olur. Mənim üçün bu, böyük xoşbəxtlikdir, çünki mən həm şəxsən onun üçün, həm də Azərbaycan xalqı üçün ən çətin vaxtlarda atamın yanında olmuşam.

Xüsusilə 1990-cı ilin 20 yanvarında sovet ordusu Azərbaycana hücum edərkən, o, həmin qanlı hücuma qarşı etiraz səsini ucaldan və bu hadisəni pisləyən bəlkə də yeganə şəxs idi. O, yaxşı dərk edirdi ki, bu, ona baha başa gələ bilər. Biz Sovet İttifaqında yaşayırdıq, ölkənin dağılmasına hələ iki il qalırdı və 1990-cı ilin yanvarında bunu hələ heç kəs təsəvvür edə bilməzdi. Yüzdən artıq günahsız insanın, mülki vətəndaşın həyatına son qoyan bu zorakı və qanlı hücumu pisləmək böyük cəsarət və xalqa sevgi tələb edirdi.

Bununla yanaşı, o, sovet hökumətinin anti-Azərbaycan mövqeyi səbəbindən kommunist partiyasını tərk etdi. Bunun özü də çox cəsarətli addım idi, çünki sovet hökuməti və sistemi hələ də çox güclü və qəddar idi. O, bunları nəzərə almalı idi, lakin onun üçün Azərbaycan xalqının milli maraqları, milli qüruru və ədalət şəxsi amillərdən üstün idi. Bu, onun üçün və bizim üçün mürəkkəb dövr idi, lakin ailəmiz bir yerdə idi.

Eyni vəziyyət Azərbaycanda vətəndaş qarşıdurması zamanı qarışıqlıq, çaşqınlıq və xaosun hökm sürdüyü dövrdə idi. Azərbaycan xalqı vəziyyətdən xilas yolunu yalnız Heydər Əliyevdə gördü və ən çətin vaxtda onu dəvət etdi. O, gənc deyildi, onun artıq 70 yaşı var idi. Onun 1993-cü ildə Azərbaycanda rəhbərliyi öz üzərinə götürməsi həqiqətən çox cəsur addım idi. Bu, onun Azərbaycan xalqına məhəbbətini və sadiqliyini bir daha nümayiş etdirdi. Azərbaycanlıların onu müasir Azərbaycanın qurucusu hesab etməsi tamamilə doğrudur. Ona olan ehtiram təkcə bir meyarla bağlı deyil, burada müxtəlif səviyyələr var. O, bütün həyatını bu işə həsr etdi. Ən mürəkkəb dövrdə ölkəyə rəhbərlik etmək, ən münasib həll yollarını müəyyənləşdirmək, eyni vaxtda müdriklik və cəsarət nümayiş etdirmək – bütün bunlar siyasətçiyə xas olan nadir keyfiyyətlərdir.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan böyük ölkə deyil. O vaxt artıq Azərbaycanın bir hissəsi Ermənistan tərəfindən işğal edilmişdi və biz nəhəng iqtisadi çətinliklərlə üzləşmişdik. İnflyasiya 1000 faizdən artıq idi. İşsizlik və yoxsulluq hökm sürürdü. Ordu demək olar ki, mövcud deyildi. Belə bir vəziyyətdə ölkəni parçalanmaqdan qorumağa, onu inkişaf yoluna çıxarmağa və bugünkü səviyyəyə çatdırmağa müvəffəq olmağı yalnız böyük şəxsiyyət edə bilərdi.

Bizim və şəxsən mənim hədəfim isə dünyanın və Azərbaycanın dəyişməkdə olduğunu nəzərə alaraq Heydər Əliyev siyasətini davam etdirmək, ölkəni müasirləşdirmək, bir də heç vaxt digərlərinin hökmranlığı altında yaşamamaq üçün müstəqilliyimizi möhkəmləndirmək, özünü təmin edən güclü iqtisadiyyat qurmaq və insanların daha yaxşı yaşamasına şərait yaratmaqdır.

Beləliklə, təkcə 100 illiyini qeyd etdiyimiz üçün deyil, ümumiyyətlə, müasir Azərbaycan haqqında danışarkən faktdır ki, təməl Heydər Əliyev tərəfindən qoyulub və 1990-cı illərin mürəkkəb dövründə onun liderliyi olmasaydı, bugünkü Azərbaycan başqa vəziyyətdə olacaqdı. Hansı problem və çətinliklərlə üzləşəcəyini heç təsəvvür etmək belə olmazdı.

**Müxbir:** Dünyanın dəyişməkdə olan geosiyasi mənzərəsi fonunda Azərbaycan həssas rol oynayaraq böyük nailiyyətlər əldə edə, iqtisadi və sosial baxımdan özü üçün nadir inkişaf yolu yarada bilib. İcazənizlə, Çin-Azərbaycan əlaqələrindən danışaq. Bu yaxınlarda Siz bu münasibətləri əla adlandırdınız. Hazırda vəziyyət nə yerdədir və Sizcə bu əlaqələri növbəti səviyyəyə qaldırmaq üçün nə edilməlidir?

**Prezident İlham Əliyev:** Bəli, bunu bir daha təsdiq edə bilərəm ki, münasibətlər əla səviyyədədir və bu təhlil, bu ifadə ikitərəfli əlaqələrin geniş gündəliyini və əməkdaşlığın çox aydın perspektivlərini əhatə edir. Hesab edirəm ki, ikitərəfli əlaqələrdə əldə etdiyimiz nailiyyətlər çox uzun bir yolun başlanğıcıdır. Ümid edirəm ki, bu, strateji əməkdaşlıq yolunun başlanğıcıdır. Çünki bu gün regionun siyasi, habelə nəqliyyat marşrutları xəritəsinə nəzər saldıqda görürük ki, ölkələrimiz bir-biri ilə nə dərəcədə eyni mövqedən çıxış edir. Beynəlxalq gündəliyə aid təməl məsələləri götürsək görərik ki, bizim mövqelərimiz suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq məsələlərində üst-üstə düşür. İqtisadi əməkdaşlıq məsələlərində mövqelərimiz üst-üstə düşür. Biz qarşılıqlı ticarətin həcminin artmasını görürük və böyük potensial xüsusilə göz qabağındadır. Biz ölkələrimizi gələcəkdə daha da birləşdirəcək meydana gələn yeni nəqliyyat marşrutlarını görürük. Bunun özü də regional təhlükəsizliyə və sabitliyə böyük töhfə olacaqdır. Çünki ölkələr qarşılıqlı faydalı əməkdaşlıq formatı çərçivəsində birləşirsə, bu, regionun sabitliyini, proqnozlaşdırılmasını, firavanlığını və inkişafını gücləndirir.

Beləliklə, xarici siyasət prioritetlərinə və gündəliyə gəldikdə, mən Azərbaycanın və Çinin siyasətləri arasında və istənilən digər istiqamətdə bir çox oxşarlıqlar görürəm. Son zamanlar bizim münasibətlərimiz daha da intensivləşib və əlbəttə, mənim cənab Si Cinpinlə görüşlərim istiqamətlərin təyin edilməsində və inkişaf üçün aydın hədəflərin müəyyən olunmasında vacib rol oynayır. Eyni zamanda, daha aşağı səviyyədə, dövlət rəsmiləri və deputatlar səviyyəsində, cəmiyyətin müxtəlif nümayəndələri və partiyalarımız arasında olan təmaslar da xüsusi əməkdaşlıq formatını yaradır. Bu səbəbdən, uzun bir yolun başlanğıcında olduğumuzu deyəndə, buraya məhz bu məsələlər daxildir. İkitərəfli əlaqələrin gələcəyinə gəldikdə isə bizim Azərbaycan və Çin arasında yekdil siyasətimiz var. Bir daha təsdiq edirəm ki, münasibətlər əladır və bundan da yaxşı səviyyəyə qalxacaqdır.

**Müxbir:** Siz bir neçə dəfə Prezident Si Cinpinlə görüşlərinizə toxundunuz. Sizin onun bir lider kimi haqqında fikriniz nədir, o, Sizdə necə təəssürat yaradır?

**Prezident İlham Əliyev:** Mənim Prezident Si Cinpinlə həm Çində, həm də beynəlxalq tədbirlər çərçivəsində dəfələrlə görüşmək imkanım olub. Ona dərin ehtiramım var. Onun uzaqgörənliyi, zəkası, səmimiliyi və ikitərəfli münasibətlərimiz barəsində geniş məlumatlı olması məndə hər zaman dərin təəssürat yaradıb. Çünki qlobal bir güc olaraq Çinin çox geniş xarici siyasət gündəliyi var və həmin gündəlik təbii olaraq Azərbaycanın gündəliyindən daha genişdir.

Buna baxmayaraq, bizim əməkdaşlığımızın mahiyyəti və perspektivləri barədə dərindən məlumatlı olması göstərir ki, cənab Si Cinpin olduqca məsuliyyətli şəxsdir və çox uğurlu xarici siyasət bunun nəticəsidir. Bilirsiniz ki, dünyada Çinin dostlarının sayı ildən-ilə artır və bu, məhz həmin müdrik siyasətin nəticəsidir. Biz onun ölkəsinin inkişafını və yardıma ehtiyacı olanlara dəstək istiqamətindəki fəaliyyətini yalnız alqışlaya bilərik. Hesab edirəm ki, bu, dünyada nadir hallardan biridir. Bu, xüsusilə indi aktual məsələdir. Vaxtında və digər mənbələrdən yardım ala bilməyən ölkələrə kömək edilir. Sizə Azərbaycanla bağlı nümunə deyə bilərəm. COVID-19 başlayanda biz peyvəndlərin olmaması səbəbindən böyük çətinliklərlə üzləşdik və bu məsələdə bizə yardım edən yeganə ölkə Çin oldu. Mən Prezident Si Cinpinə yardım ilə bağlı məktub yazdım, məsələyə dərhal cavab verildi və peyvəndlərin ilk həcmi – bir milyon doza təqdim edildi. Biz vaksinasiyaya yanvar ayının ortalarında, dünyada ilk sıralarda başladıq. Bu isə onun yardım göstərmək siyasətindən qaynaqlanırdı. Biz bunu necə unuda bilərik?!

Bununla yanaşı, deyə bilərəm ki, yəqin sizin də məlumatınız var, bəzi Qərb dövlətləri lazım olduğundan 5 dəfə artıq həcmdə peyvənd tədarük edirdilər və bununla da peyvənd istehsal etməyən, buna çıxışı olmayan ölkələri vaksinasiyadan məhrum etdilər. Onlar peyvənd millətçiliyi nümayiş etdirdilər. Onu da qeyd edim ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri olaraq peyvənd millətçiliyinə qarşı ictimai şəkildə mübarizə aparan ölkələrdən biri idi. Demək istədiyim odur ki, bu nümunə Çinin Azərbaycanla bağlı siyasətini nümayiş etdirir. Əminəm ki, bu siyasət yardıma ehtiyac olan zaman hər bir ölkəyə şamil edilir.

Beləliklə, dediyim kimi, mənim Prezident Si Cinpinlə çoxsaylı görüşlərim olub. İnsan olaraq o, çox mehriban, hörmətcil və səmimi adamdır və şəxsən mən onunla təmasdan çox razıyam.

**Müxbir:** Bağlantı və infrastruktur layihələri haqqında danışarkən, qeyd edək ki, Azərbaycan bir rekorda imza atıb – bu, "Bir kəmər, bir yol" layihəsində iştirak edən ölkələr arasında 307 günə infrastruktur layihəsinin icrasıdır. Bu, ən qısa müddətdə icra deməkdir. Söhbət nəhəng infrastruktur layihəsindən gedir. Azərbaycan buna necə nail olub və "Bir kəmər, bir yol" layihəsinin faydasını necə görürsünüz?

**Prezident İlham Əliyev:** İnkişafımızın hədəflərindən biri regional bağlantı mərkəzinə çevrilmək idi. Çünki xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq. İlk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün biz bu sahəyə böyük sərmayə yatırmağa başladıq. Eyni zamanda, qonşularımızla da bağlantı körpüləri qurmağa başladıq. Biz mühüm tranzit ölkəsi olmaq arzusundaydıq, ancaq bunun üçün təkcə coğrafiya kifayət etmir. Hətta infrastruktur da kifayət deyil, burada digər məsələyə ehtiyac var. Bu isə qonşularla yaxşı münasibətlərdir. Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə çevrilmək olmaz. Bu isə bizim xarici siyasətimizin tərkib hissəsi idi. Prioritet qonşu ölkələrlə qarşılıqlı maraq üzərində daha güclü münasibətlər qurmaq idi.

Beləliklə, "Bir kəmər, bir yol" layihəsinə qoşularkən bizim artıq hazır infrastrukturumuz var idi. Hazırda isə biz, nə ilə məşğuluq? İndi biz, sadəcə, texniki imkanları artırırıq. Məsələn, biz ticarət limanımızı genişləndiririk, çünki Şərqdən-Qərbə daşınan yüklərin həcminin artması yükaşırma baxımından problemlər yaradacaq. Bizim dəniz ticarət limanımız bir neçə il əvvəl açıldı. Onun ovaxtkı yükaşırma qabiliyyəti 15 milyon ton idi. Hazırda isə biz onun imkanlarını 25 milyon tona qədər çatdırırıq. Biz Xəzər dənizində daha çox gəmi tikirik. Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olduğumuza baxmayaraq, biz yeni tanker və yük gəmiləri inşa edirik ki, daha çox yük daşıya bilək. İndi biz gəmiqayırma zavodumuzu genişləndirməyi planlaşdırırıq ki, ildə 6-8 deyil, 10-20 gəmi inşa edə bilək. Həm Azərbaycanda, həm də Xəzər dənizində buna tələbat artmaqdadır.

Biz hazırda mövcud dəmir yolunu müasirləşdiririk ki, qatarların sürəti artırılsın və daha çox yüklər nəql edilsin. Biz böyük yük axınına daha yaxşı hazır olmaq üçün çox işlər görürük. Azərbaycan vasitəsilə daşınan yüklərin həcmi ildən-ilə artır. Lakin mən hesab edirəm ki, bu rəqəm bir neçə dəfə artıq ola bilər. Biz bu istiqamətdə, həmçinin çinli tərəfdaşlarımız və qonşularımızla həmin infrastruktur bağlantısının yaradılması üçün fəal işləyirik. Burada inzibati bağlantı da olmalıdır. Burada tariflərlə bağlı vahid siyasət olmalıdır. Gömrük qaydaları sahəsində daha geniş qarşılıqlı əlaqələndirmə olmalıdır ki, necə deyərlər, bu qapını daha da geniş aça bilək. Yəni, gələcəkdə ölkələrimiz arasındakı münasibətlər Azərbaycan vasitəsilə daha çox yüklərin daşınmasında vacib rol oynayacaqdır. Sizin də qeyd etdiyiniz kimi, biz bütün işləri vaxtında və qısa zamanda icra etdik. Bu gün Azərbaycanın nəqliyyat infrastrukturu artıq yüksək beynəlxalq standartlara cavab verir.

**Müxbir:** Məlumdur ki, Azərbaycan "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" layihəsinin təşəbbüskarıdır. Bu, nə dərəcədə əhəmiyyətlidir?

**Prezident İlham Əliyev:** Əslində, bu, "Bir kəmər, bir yol" layihəsinin bir hissəsidir. Çünki bizə məlumdur ki, hazırkı geosiyasi vəziyyətdə Transxəzər marşrutu Mərkəzi Asiya ölkələri üçün ən əhəmiyyətli marşruta çevrilib. Dediyim kimi, xəritəyə baxanda aydın olur ki, Avropaya və əks-istiqamətdə yüklərin daşınması üçün Mərkəzi Asiya ölkələrinin seçimi o qədər də geniş deyil.

**Müxbir:** Dəniz yolu və Transsibir marşrutu da var, ancaq o, vaxt baxımından daha uzundur.

**Prezident İlham Əliyev:** Bəli, bu bir səbəbdir, həmin nəqliyyat marşrutu ilə əlaqədar digər səbəb isə geosiyasi dəyişikliklər, məhdudiyyətlər və sanksiyalardır. Bu, həmin tranzit marşrutunu mürəkkəbləşdirir. Beləliklə, sual yaranır - Xəzər dənizi vasitəsilə olmasa, bəs, haradan olsun? Mərkəzi Asiya ölkələri inkişaf edir və ixracyönümlü daha çox məhsul istehsal edir. Həmçinin daha çox məhsul alır və bu baxımdan Xəzər dənizi marşrutu həyati əhəmiyyət kəsb edir. Xoşbəxtlikdən biz illər əvvəl ev tapşırığımızı yerinə yetirmişik və hər bir şey hazırdır. İndi isə bu infrastrukturu genişləndirmək asan olacaq. Həmçinin nəqliyyat infrastrukturunun genişləndirilməsinə yatırılacaq vəsait təxmin edilən yük həcminə uyğun olacaq.

Mən ötən il və bu il bütün Mərkəzi Asiya ölkələrinə səfər etmişəm və bu ölkələrin rəhbərləri Azərbaycana səfər ediblər. Bu gün bizim ikitərəfli münasibətlərimizdə daha çox dinamizm var. Birincisi, biz buna ehtiyacın olduğunu görürük. Digər tərəfdən isə bizim hər zaman gözəl münasibətlərimiz olub. Eyni zamanda, daşımalar marşrutları mövzusu daha fəal əməkdaşlığı diktə edir. Beləliklə, əminəm ki, Xəzər dənizi ilə yükdaşımalarının illik statistikasına nəzər saldıqca biz rəqəmlərin artacağının şahidi olacağıq.

**Müxbir:** Məndə çox maraqlı məlumatlar var ki, Sizinlə bölüşmək istərdim. Oradan görünür ki, Çindən Avropaya göndərilən mallar dənizlə orta hesabla 36 gün çəkir, əgər siyasi məsələlər olmasa, Transsibir marşrutu ilə 20 gün çəkir və Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edərək, Orta Dəhlizlə isə cəmi 12 gün çəkir.

**Prezident İlham Əliyev:** Elədir, bəli, bu, həqiqətdir. Yeri gəlmişkən, biz bu səbəbdən bu marşrutun qurulmasına və çəkilməsinə başladıq, çünki o, mövcud deyildi. Bu, Azərbaycanın irəli sürdüyü və Türkiyə ilə Gürcüstandakı tərəfdaşlarımızın fəal dəstəyini almış yeni daşımalar yoludur, bağlantıdır və infrastrukturdur. 2017-ci ildə burada - Bakıda həmin layihənin rəsmi açılışı baş tutdu. Həmin vaxt Orta Dəhlizlə daşımalar hələ ki, prioritetlərdən biri hesab edilmirdi. Buna görə, biz lazım olduğu qədər yüklərin daşınma həcminə sərmayələr yatırdıq. Lakin hazırda biz nə ilə məşğuluq? Biz həmin yolun təkmilləşdirilməsi işlərinə artıq bir neçə ay bundan əvvəl başladıq və nəticədə, həmin marşrutla əvvəlcə nəzərdə tutulduğundan beş dəfə artıq yüklər daşına biləcək.

(ardı 3-cü səhifədə)

# Prezident İlham Əliyev Çinin “China Media Group” media korporasiyasına müsahibə verib

(əvvəli 2-ci səhifədə)

Biz Azərbaycandan Türkiyə və Avropa istiqamətində gedən əlavə yol olacaq Zəngəzur dəhlizi üzərində çox fəal şəkildə çalışırıq. Azərbaycan ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq başa çatdırılıb. Beləliklə, Azərbaycan ərazisindən təkcə Bakı-Tbilisi-Qars kimi bir yol keçməyəcək, o cümlədən Zəngəzur dəhlizi işə salınacaq. Bir sözlə, bütün bunlar əlavə yüklər üçün digər imkanlar açacaq. Eyni zamanda, Azərbaycan ərazisindən daşımalar, həmçinin Gürcüstanın dəniz limanından keçəcək. Biz bu sahədə müəyyən sərmayə imkanlarına böyük maraqla baxırıq. Həqiqətən, daşımalarda əməkdaşlıq bütün ölkələr üçün çox faydalı olacaq və eyni zamanda, o da vacibdir ki, bu işlər ölkələr arasında əlaqələri gücləndirəcək. Ölkələr bir-biri ilə daha sıx bağlı olacaq, inteqrasiya olacaq. Biz dəhliz boyunca bir çox istehsal sahələrini yaratmağı planlaşdırırıq və sadəcə, tranzit ölkə olmaq istəmirik. Geosiyasi baxımdan, bu, yaxşı haldır, yəni, əlavə gəlir əldə etmək olar, biz Azərbaycanda böyük sənaye zonalarını yaratmaq istəyirik. Əslində, bu istiqamətdə irəliləyirik. Hesab edirəm ki, bu ay açılmış və artıq fəaliyyətə başlamış Ələt Azad İqtisadi Zonamızda istehsalatla məşğul olmaq, həmçinin Çin şirkətləri üçün cəlbedici ola bilər. Əslində, təsəvvür etdiyinizdən də geniş fürsətdir.

**Müxbir:** Siz bağlantıların, “Bir kəmər, bir yol” təşəbbüsünün mədəni aspekti haqqında danışdınız. Biz iki gün əvvəl “Muğam Klub” restoranında olduq. Gördüklərimiz mənə böyük təəssürat bağışladı. Əlbəttə ki, qədim Karvansaranı ziyarət etdik. Orada qədim İpək Yolu ilə tanış olduq. Orada sanki zaman yenidən göz qabağına gəlir və siz tarixi, insanları, ticarəti və mədəniyyətləri, ənənələri seyr edə bilirsiniz. Çin tərəfinin “Bir kəmər, bir yol” təşəbbüsünün mədəni dəyərini necə görürsünüz? Bilirəm ki, ölkənizdə qədim İpək Yolunun bərpasına hələ 1990-cı illərdən çalışırsınız.

**Prezident İlham Əliyev:** Əlbəttə ki, birmənalı olaraq, bu, dostluğa əlavə təkan və töhfə verəcək. Qarşılıqlı fəaliyyət yaranacaq, çünki qədim İpək Yolunda yerləşən ölkələrin xüsusiyyəti, bəlkə də, oxşarlığı ondan ibarətdir ki, onlar cəmiyyətlərinin müxtəlifliyi, çoxetnik və çoxkonfessiyalı xarakteri ilə seçilir. Azərbaycan həmin müsbət ssenarinin bir hissəsidir. Buna görə, Azərbaycanın mədəni irsi, gördüyünüz kimi, dövlətimiz tərəfindən lazımınca qorunur. Bu, bizim üçün qorunmalı, saxlanılmalı və yeni nəsillərə ötürülməli sərvətdir ki, onlar da eyni münasibət bəsləsinlər. Biz mədəni irsimizi əsrlər boyu qoruyub saxlamışıq. Baxmayaraq ki, Azərbaycan uzun müddət öz dövlətçiliyindən məhrum idi. Biz müstəqil ölkə deyildik. Lakin, eyni zamanda, biz milli özünəməxsusluğumuzu, dilimizi, ədəbiyyatımızı, musiqimizi və ənənələrimizi, mədəni irsimizi qoruyub saxlamışıq. Hətta müstəqil olmadığımız vaxtlarda, bunu bacarmışıq. Beləliklə, dünya irsinin bir hissəsi olan mədəni irsimizin qorunmasını birmənalı olaraq davam etdirəcəyik. Eyni zamanda, tərəfdaşlarla bağlantı yaradan bir çox layihələr daha çox səfərlərlə, turistlərlə, ticarətlə, qarşılıqlı fəaliyyətlə nəticələnəcək. Bunun sayəsində mədəniyyətlərimiz və cəmiyyətlərimiz daha da zənginləşəcək. Bir sözlə, biz həmin məsələyə belə nöqteyi-nəzərdən baxırıq. Bəxtimiz çox gətirib ki, Azərbaycan əsrlər boyu və xüsusən də, müstəqillik dövründə, sözün əsl mənasında, etnik və dini dözümlülüyün, birgəyaşayışın yüksək standartlarını nümayiş etdirir. Azərbaycanda bütün etnik qruplar bir ailə kimi yaşayır və bu, bizim ən böyük sərvətlərimizdən biridir. Biz bunları qorumağa çalışırıq və əminəm ki, bu işin öhdəsindən gələcəyik.

**Müxbir:** Atalar sözü var: Ticarət dayananda, müharibələr başlayır.

**Prezident İlham Əliyev:** Elədir.

**Müxbir:** Ticarət nə qədər çox olarsa, ölkə əhalisi üçün daha çox fürsətlər açılır.

**Prezident İlham Əliyev:** Tamamilə doğrudur. O, sabitliyi, təhlükəsizliyi möhkəmləndirir və müəyyən dərəcədə, sözün yaxşı mənasında, qarşılıqlı bağlılığı artırır. İnsanlar, ölkələr üçün daha çox fayda olur. Bu şəraitdə, əlbəttə, sabitlik bərqərar olur.

**Müxbir:** Prezident Əliyev, Sizə deməliyəm ki, iki il əvvəl BBC-nin jurnalistinə verdiyiniz müsahibədən sonra Çində kifayət qədər məşhurlaşdınız. Bir çox insanlar deyirdilər ki, Qərbə münasibətdə maraqların tarazlaşdırılması üçün ölkə rəhbəri məhz bu cür addım ata bilərdi. Bu, necə baş verdi?

**Prezident İlham Əliyev:** Bilirsiniz, 44 günlük Vətən müharibəsi zamanı mən çox sayda müsahibələr verdim. Bu, əsasən, Qərb jurnalistlərinə verilən müsahibələr idi. Onların əksəriyyəti, deyərdim ki, çox aqressiv idi və çalışırdılar Azərbaycanı təcavüzkar kimi təsvir etsinlər. Bilirsiniz, öz ərazilərimizi azad etdikdə, ərazi bütövlüyümüz uğrunda vuruşduqda, biz digər ölkənin ərazisinə addım da atmadıq. Biz, sadəcə, üzləşdiyimiz 30 illik işğalın və etnik təmizləmənin nəticələrini aradan qaldırırdıq. Əlbəttə, əmin idim ki, videoreportaj hazırlamaq məqsədilə Azərbaycana gəlmiş və mənimlə görüşmək istəyən Qərb jurnalistləri yaxşıca hazırlaşmışlar. Münaqişənin tarixi, kimin təcavüzkar, kimin isə təcavüz qurbanı olması, nəyin baş verdiyi barədə onların bilməməsini təsəvvür etmək sadəlövhlük olardı. Lakin, eyni zamanda, onlar nəinki görüşümüz zamanı vəziyyəti təqdim etməyə çalışırdılar, - çünki Azərbaycanda olarkən çoxlu reportajlar hazırlamışdılar, - onlar çalışırdılar ki, Azərbaycanı təcavüzkar kimi qələmə versinlər. Əlbəttə, bu, tamamilə qəbuledilməz idi. Bütün bunlar Qərb mətbuatının qərəzli, qeyri-tarazlı və anti-Azərbaycan yanaşmasını nümayiş etdirdi və biz həmin reallıqda 30 il idi ki, yaşayırdıq. Bu, həqiqətdir.

**Müxbir:** Bir çox insan hesab etdi ki, Culian Assanj tezisi böyük əks zərbə oldu. Bu necə fikrinizə gəldi?

**Prezident İlham Əliyev:** Əslində, əgər siz kimisə nəyinsə pozulmasında ittiham etmək istəyirsinizsə, birinci, güzgüdə özünüzə baxıb görməlisiniz, sizin üzünüzdə qüsurlar varmı? Culian Assanjın başına gələnlər, tamamilə qəbuledilməzdir. Bu, söz azadlığının kobud şəkildə pozulması deməkdir. Həmin insan səfirliklərin birində illər boyu işgəncəyə məruz qalıb. Hazırda o, işgəncədədir. Mən burada mənəvi işgəncəni nəzərdə tuturam. Onun fiziki işgəncəyə məruz qalmasını bilmirəm. Bilmədiyim məsələni deyə bilmərəm. Lakin, insan bəzi mənbələrdən əldə etdiyi müəyyən məlumatı açıqladığına görə əzab-əziyyətlərlə üzləşib. Bəlkə də, o, səhv edib, yaxud qaydaları pozub. Bununla belə, Qərbdəki insanlar vəziyyəti elə təsvir edirlər ki, jurnalistlər istədiklərini edə bilər və onların hər hansı cinayət təqibindən toxunulmazlığı var və əgər siz jurnalisti həbs edirsiniz, deməli, siz diktatorsunuz. Ona görə dedim, baxın Culian Assanjın məsələsinə, görün həmin insanla siz nə etdiniz? Onda, siz kimisə bu məsələdə necə ittiham edə bilərsiniz? Həmin hadisə sizin tarixinizdə ən qara səhifədir. Siz də qeyd etdiyiniz kimi, iki ildən çox vaxt keçir və hazırda Culian Assanj haradadır? O, hələ də həbsxanadadır. Hələ də, həbsxanadadır. Kimsə onun haqqında danışır? Yox.

**Müxbir:** Mən özüm səkkiz il Vaşinqtonda müxbir işləmişəm və hər iki istiqamətdə çox şeyi öyrəndim. Azərbaycan, Çin kimi qeyri-Qərb ölkələrin Qərb mətbuatında qərəzli təsviri haqqında danışdıqda, əlbəttə, Siz hesab edirsiniz ki, onlar bu ölkələrə ədalətli yanaşmırlar. Sizcə, bu, niyə baş verir? Səhv təsvirin verilməsinin arxasında duran meyarlar nədir? Yəni, qeyri-Qərb aləmini, o cümlədən Çini səhv təsvir etməyin səbəbi nədir?

**Prezident İlham Əliyev:** Eyni üsulu Çinə qarşı tətbiq etmələrinin səbəbini söyləmək mənim üçün çətindir. Çox güman ki, bunun səbəbləri var. Amma, Azərbaycana gəldikdə, amillər müxtəlifdir. Əsas olmasa da, həmin amillərdən biri Birləşmiş Ştatlarda, Fransada və bəzi digər Qərb ölkələrində erməni lobbisinin böyük infrastruktura malik olmasıdır. Onlar dövri olaraq Azərbaycana hücum çəkirlər, siyasətçiləri ələ alırlar, onların cəmiyyətinə, parlamentinə, mətbuatına və hökumət orqanlarına yol tapırlar. Bütün oxları Azərbaycana tuşlayırlar və bir növ, Azərbaycanofobiya mühitini yaradırlar. Lakin, bu, yeganə səbəb deyil. Düşünürəm, əsas səbəb ondan ibarətdir ki, Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür. Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycan prioritetlərimizə və milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmur. Başqa sözlə desək, biz müstəqil davranırıq və siyasətimiz müstəqildir. Biz əlimizdə olan bütün vasitələrlə özünəməxsusluğumuzu və ləyaqətimizi müdafiə edəcəyik. Fikrimcə, bu, əsas səbəbdir ki, Azərbaycan davamlı olaraq mətbuatın hədəfindədir, dırnaqarası müstəqil QHT-lərin hücumuna məruz qalır. Hamımız bilirik ki, onlar müstəqil deyil. Kim deyə bilər ki, “Human Rights Watch”, “Amnesty International” və “Freedom House” müstəqildirlər. Baxın, onlar kimdən pul alırlar və kim musiqini sifariş edir. Onda görəcəksiniz ki, onlar tamamilə asılıdırlar.

**Müxbir:** Karneqi Beynəlxalq Sülh Fondu...

**Prezident İlham Əliyev:** Elədir ki, var. Onlar tam asılıdır və yiyələri ilə razılaşdırmadan bir addım belə sağa, yaxud sola ata bilməzlər. Lakin, bilirsiniz, biz bu mühitdə yaşamağa öyrəşmişik. Mənim üçün Qərb mətbuatının Azərbaycan haqqında yazdığı deyil, Azərbaycan xalqının hökumətimizin siyasəti barədə düşündüyü vacibdir. İnsanlarla söhbət apardıqda, görə bilərsiniz ki, onlar hökumətimiz barədə nə düşünür, gördüyümüz işlər düzdür, yoxsa səhvdir!

Cəmiyyətimiz həmrəy olması və güclü ictimai dəstək, əlbəttə, əsasən bizim siyasətimiz, əvvəlcə işğal altında olmuş ərazilərin azad edilməsi sayəsində formalaşır. Lakin, həmçinin bu, anti-Azərbaycan təşviqatına olan reaksiyadır. Əgər Qərbdə kimsə düşünür ki, hökumət rəsmilərini təhqir etməklə, böhtan və şayiələr yaymaqla Azərbaycanda ictimai rəyə təsir göstərə bilər, bilsin: ola bilər, o, haqlıdır, lakin həmin təsir onların görmək istədiyi istiqamətdə olmayacaq. Əksinə, cəmiyyət daha da həmrəy olur, çünki biz görürük ki, bu, ədalətli deyil. Biz 30 il işğala məruz qalmışıq və Ermənistan işğalını orada pisləyən olmadı.

**Müxbir:** Onlar yalnız dinc yolla nizamlamanı qeyd etdilər.

**Prezident İlham Əliyev:** Düzdür. Yalnız dinc yolla nizamlama, ərazi bütövlüyünü dilə gətirmirdilər.

**Müxbir:** Bu, ikili standartların jarqonudur.

**Prezident İlham Əliyev:** Elədir! Bunlar ikili standartlardır və cəmiyyətimiz bunları çox yaxşı anlayır. Həmçinin bilmək vacibdir ki, söhbət təkcə bəzi jurnalistlərin müsahibəsindən getmir. Bu halda hökumətlər də var. Hazırda biz Fransa hökumətinin, əgər belə demək olarsa, çox əsassız hücumları ilə üzləşirik. Təsəvvür edirsinizmi, Fransa Ermənistanın ən böyük vəkilinə çevrilib. Yaxşı, bu, onların işidir, lakin onlar Avropada ən iri anti-Azərbaycan mənbəyinə çevriliblər. Onlar bizə hər istiqamətdə hücum çəkirlər. Onların xarici siyasi bəyanatları və rəsmilərin bəyanatları hər cür siyasi etikadan kənara çıxır. Onlar müharibə zamanı bizi elə məsələlərdə ittiham etdilər ki, biz bunları heç vaxt etməmişik və bununla bağlı, üzr belə istəmədilər. İndi isə onlar bizi öz ərazimizdə gördüyümüz işlərə görə ittiham edirlər. Baxın hələ bunu kim edir? O ölkə ki, Korsika dilinə qadağa qoyur, Korsikada öz müqəddəratını təyin etmək hərəkatını qəddarcasına boğur. Onlar Qarabağda ermənilərin “öz müqəddəratını təyin etmələrini” təşviq edirlər. Bu, necə ola bilər? Müharibə zamanı siyasi təcavüz bütün sərhədləri aşanda, dedim ki, əgər onlar “Dağlıq Qarabağ respublikasını” haradasa qurmaq istəsələr, qoy öz ərazisində qursunlar. Məsələn, çoxlu erməninin yaşadığı Marsel şəhərinin ətrafında qurub, “Dağlıq Qarabağ respublikasını” orada elan etsinlər, biz də tanıyaq. Bu ölkə hələ də öz müstəmləkəçilik siyasətini davam etdirir. Baxın Mayot adasına, Fransanın müstəmləkəsi. Yeni Kaledoniya, Fransanın müstəmləkəsi. Onlar hələ də insan hüquqları haqqında danışır!? Bu, siyasi riyakarlıqdır. İndi söylədiklərimi biz deyəndə isə, siz görürsünüz ki, onlar bütün mətbuatı dərhal işə salır, Azərbaycanı, onun rəhbərlərini və siyasətini təhqir etməyə, hücum çəkməyə, şayiə yaymağa başlayırlar.

**Müxbir:** Ərazi bütövlüyü haqqında danışdıqda, bir çox çinlilərin qəlbinə yaxın olan, onlar üçün əziz olan məsələ var: bu, Tayvan məsələsidir. Tayvan məsələsinə kənardan müdaxilə var. Siz öncə söylədiniz ki, Çini bölmək səylərini dəstəkləmirsiniz. Bu barədə ətraflı deyə bilərsinizmi?

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz Çinin ərazi bütövlüyünü, Vahid Çin və Çinin birləşməsi siyasətini hər zaman dəstəkləmişik və dəstəkləməkdə davam edirik. Bu siyasət bir neçə il əvvəl qeyd olunub, bir çox hallarda yenidən təsdiqlənib, tamamilə dəyişməz olaraq qalır və heç zaman da dəyişməyəcək. Birincisi, bu, onunla bağlıdır ki, Çin bizim üçün dost ölkədir. İkincisi, biz hər zaman beynəlxalq hüququn norma və prinsiplərini dəstəkləyirik. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək olmaz. Beynəlxalq hüququ ayrılıqda tətbiq etmək istəyən ölkələr yalnız öz nüfuzunu itirəcəklər, çünki beynəlxalq hüquqda aydın şəkildə deyilir ki, ərazi bütövlüyü onun fundamental prinsipidir. Xalqların öz müqəddəratının təyin edilməsi hər hansı ölkənin ərazi bütövlüyü ilə ziddiyyət təşkil etməli deyil. Bu, beynəlxalq hüququn fundamental prinsipləridir. Buna görə, Vahid Çin siyasəti ilə bağlı mövqeyimiz tam aydındır və ümid edirəm ki, bəzi Qərb hökumətləri də bu mövqeyə uyğun davranacaqlar.

**Müxbir:** Ermənistan-Azərbaycan münasibətlərinə gəldikdə, bilirik ki, atəşkəs mövcuddur, lakin vəziyyət mürəkkəb olaraq qalır. Əvvəlki hadisələrin hamısını nəzərə alaraq, cənab Prezident, Siz sülh müqaviləsi haqqında nə düşünürsünüz? Onu nə vaxt gözləmək olar? Əgər olarsa, o, necə olacaq?

**Prezident İlham Əliyev:** Düşünürəm ki, ona ən yaxın gələcəkdə nail olmaq olar. Nəyə görə mən bu cür düşünürəm, çünki Ermənistan çox mühüm bəyanatla çıxış etməli idi ki, onlar nəinki Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, - əslində, onlar bunu rəsmən ötən ilin oktyabrında bəyan etdilər və sonra bir neçə dəfə təsdiqlədilər, - həmçinin bu ilin mayında onlar bunu aydınlaşdırdılar, çünki biz tələb etdik ki, onlar Qarabağı Azərbaycanın hissəsi kimi tanıdıqlarını qeyd etsinlər. Onlar Azərbaycanın ərazi bütövlüyünü 86,6 min kvadratkilometr ərazidə tanıdılar. Bu əraziyə Qarabağ və Ermənistan ərazisində olan səkkiz Azərbaycan anklavı da daxildir. Bu, əslində, mühüm bəyanatdır. Bundan sonra qalan yeganə məsələ, bunu kağız üzərinə köçürmək və imzalamaqdır. İkinci Qarabağ müharibəsi bitdikdən sonra, sülh müqaviləsi ilə bağlı mövqeyimiz həmin müqavilənin beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmasından ibarətdir. Biz sülh müqaviləsinin əsasını təşkil etməli olan beş beynəlxalq təməl prinsipini hazırladıq. Bir neçə dəfə danışıqlar aparılıb və iyunun sonunda davam etdiriləcək. Fikir ayrılığının yeganə əsas müddəası onunla bağlı idi ki, Ermənistan Qarabağı rəsmən Azərbaycanın hissəsi kimi tanısın. Artıq dediyim kimi, bir – onlar qeyd etməlidir ki, Qarabağ Azərbaycandır və indi isə, onlar ikincini etməlidirlər: imzalamalıdırlar. Bundan sonra razılaşma əldə oluna bilər və düşünürəm ki, əgər ermənilər söylədiklərini yerinə yetirərlərsə və əgər bu, yenidən siyasi manevr deyilsə, prosesi yubatmaq cəhdləri naminə ixtira edilən hekayət deyilsə, onda biz ilin sonuna qədər sülh müqaviləsinə nail olaraq, onu imzalaya bilərik. Bu, həqiqətən mühüm geosiyasi amilə çevrilə bilər, uzunmüddətli qarşıdurmaya son qoyar, Qafqazda real sülh yaradar, bütün kommunikasiyaları açar. Həmçinin əlavə etmək istəyirəm, Azərbaycandakı erməni azlığına gəldikdə, biz artıq rəsmən bəyan etmişik ki, onların hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq. Bununla belə, Azərbaycan onlarla etnik qrupun, o cümlədən ermənilərin yaşadığı ölkədir. Bizim dini və ya etnik zəmində heç zaman hər hansı problemimiz olmayıb. Buna görə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilər hər hansı digər Azərbaycan vətəndaşı qədər bərabər hüquq və təhlükəsizlik zəmanətinə malik olacaqlar. Düşünürəm ki, bu, tam şəkildə beynəlxalq hüququn normalarına uyğundur və fikrimcə, Azərbaycanın bu mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən dəyərləndirilir.

**Müxbir:** Prezident Əliyev, gəlin Sizin sevdiyiniz mövzulardan birinə keçək - idman və fitnesə.

**Prezident İlham Əliyev:** Yaxşı.

**Müxbir:** Siz turnikdə dartındığınız videonu qoymusunuz. 60 yaşınız tamam olurdu həmin vaxt.

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir:** On beş dəfə. Çox xoş təəssürat bağışladı. Daha çox da edə bilərsiniz…?

**Prezident İlham Əliyev:** Əvvəllər çox edirdim. Sadəcə, indi birinci dəfə göstərdim. Gənc olduğum zaman bunu heç zaman göstərmirdim, çünki gənc insan üçün bunu çox etmək təbii haldır. Nəyə görə bunu göstərdim? İstəyirəm ki, gənc nəsil eynən bu cür etsin. Demək istəyirəm ki, 60 yaşın olsa belə, əgər pis vərdişlərin yoxdursa, idmanla müntəzəm məşğul olursansa, onda bunu bacararsan. Mənim gənc nəslə ismarışım bu idi. Əgər siz hesab edirsiniz ki, 60 yaşınız var, edə bilməzsiniz, yanılırsınız, bacararsınız. Amma ondan çox dartınmaq, bəlkə də, bacararam. Lakin bu, o qədər cəlbedici olmaz.

**Müxbir:** Tam haqlısınız. Siz, həmçinin ağır atletikanı sevdiyinizi gizlətmirsiniz. Hətta, yaxın dostunuz, Prezident Ərdoğanın qarşısında hazırlıq olmadan göstərdiniz.

**Prezident İlham Əliyev:** Bu, işin asan hissəsi idi. Bəli, o qədər də ağır deyildi.

**Müxbir:** Amma Siz bunu etdiniz. İdmana şəxsi sevginizi daha böyük ismarışa çevirmək bacarığınız təsirlidir. Elə baxaq Bakıya, onun mərkəzində F1 yarışları keçirilir. Sizdə 2020-ci ilin futbol üzrə Avropa çempionatının oyunları, 2015-ci ildə ilk Avropa Oyunları təşkil olundu. İdmana həvəsiniz barədə söyləyin, nəyə görə məhz idman?

**Prezident İlham Əliyev:** Birincisi, mən idmanı sevirəm. İkincisi, ömrüm boyu mən idmanla müəyyən fasilələrlə məşğul olmuşam. Əfsuslar ki, bəzən atmışam, sonra yenidən başlamışam. Gənc yaşlarımda idmanla çox fəal məşğul olurdum. Sonra dayandırırdım və yenidən başlayanda mənim üçün formanı qaytarmaq çox asan olurdu.

İkincisi, idman ictimai həyatın mühüm amilidir. İşğal dövründə idman qələbələrimiz insanların şüurunda Birinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra bir növ rəmzi kompensasiya oldu. Beləliklə, biz göstərdik ki, qalib gələ bilərik və qələbə Azərbaycanda vətənpərvərliyin çox mühüm amilinə çevrildi. Çünki idmançılarınız qalib gələndə, bayrağımız qalxanda, himnimiz çalınanda adamı böyük qürur hissləri bürüyür. Bu, gənc nəsil üçün vətənpərvər olmaqda mühüm amil idi, çünki mən aydın şəkildə anladım ki, bunsuz biz qələbə qazana bilməyəcəyik. Bəli, biz müdafiə imkanlarımıza, hərbçilərimizin təliminə böyük sərmayələr yatırdıq. Biz İkinci Qarabağ müharibəsinə hazırlaşmaq üçün çox işlər gördük. Lakin sizə deyə bilərəm ki, hazırda, iki il yarımdan sonra, Qələbəmizin əsas meyarı qələbə ruhu idi. Torpaqları azad edənlər həyatlarında heç vaxt Qarabağı görməmişdilər, çünki çox gəncdirlər. Qarabağ işğal ediləndə onlar heç anadan olmamışdılar. Beləliklə, onları bu məqsədə aparan nə idi? Qələbə ruhu, vətənpərvərlik və ləyaqət idi. İdman həm budur, həm fiziki sağlamlıq deməkdir, çünki biz istəyirik ki, cəmiyyətimiz sağlam olsun. Biz istəyirik cəmiyyətimiz fiziki baxımdan güclü olsun. Bunun üçün idman birinci yerdədir. Əlbəttə ki, yaxşı qida, pis vərdişlərin olmaması məsələsi də var. İdman bəlkə onları üstələyir. Həmçinin hazırda biz idmanın kütləviliyi üzərində çalışırıq ki, hər rayonda idman infrastrukturumuz olsun. Bunu artıq yaratmışıq. Eyni zamanda, bu, beynəlxalq nüfuz deməkdir, çünki ilk Avropa Oyunları həqiqətən Azərbaycanı Avropaya açdı. Formula 1 yarışlarını artıq yeddi dəfə keçirmişik. Xüsusən də, nəzərə alsaq ki, o, şəhər küçələrində baş verir. Bu, Bakını heç vaxt görməyən üçün şəhərimizin təqdimatıdır. Formula 1-in auditoriyası 500 milyondur. İlk Formula 1 yarışlarından sonra turizm 20 faiz artdı və COVID-dən əvvəl hər il on – on beş faiz artım var idi. Yarışlar sayəsində çoxlu xarici turist gəldi. Ölkəyə çox xarici valyuta daxil oldu. Bir çox amillər hər bir hökumətin idmanın inkişafına böyük diqqət yetirməli olduğunu göstərir.

**Müxbir:** 2020-ci ilin futbol üzvə Avropa çempionatını çox yaxşı xatırlayıram.

**Prezident İlham Əliyev:** Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Bəli, Bakı artıq böyük idman tədbirləri üçün beynəlxalq məkana çevrilib. Ölkəmizdə, həmçinin 2017-ci ildə İslam Həmrəyliyi Oyunları keçirildi. Təsəvvür edin, 2015-ci ildə ilk Avropa Oyunları və 2017-ci ildə İslam Həmrəyliyi Oyunları bir şəhərdə cəmi iki il ərzində keçirilib. Bu, bir daha Azərbaycanı idman ölkəsi kimi nümayiş etdirir. Avropa ilə Asiyanın kəsişməsində yerləşən ölkəmiz müsəlman aləminin, eyni zamanda, Avropanın bir hissəsidir. Ölkəmizin yerləşməsi çox unikaldır. Ölkəmizin siyasəti, cəmiyyətin statusu bütün bunların təzahürüdür.

**Müxbir:** Prezident Əliyev, Hancouda Asiya Oyunları yaxınlaşır və Çinin Çendu şəhərində Dünya Universitet Oyunları gözlənilir. İdmançılara və iştirakçılara nə deyərdiniz? Çində keçiriləcək həmin oyunlardan gözləntiləriniz?

**Prezident İlham Əliyev:** Mən yalnız uğurlar arzulayıram. Əminəm ki, oyunlar mümkün ən yüksək səviyyədə təşkil olunacaq. Çində idman tədbirlərinin necə təşkil edildiyinə bələdəm. Mən Pekində keçirilmiş Olimpiya Oyunlarında oldum, 2008-ci ildə gözəl ölkənizdə bir neçə gün keçirdim. Yəqin bilirsiniz, biz Asiya Oyunlarında iştirak etmirik, lakin Dünya Universitet Oyunlarında 150-dən artıq atletlə böyük komanda ilə iştirak edəcəyik. Onların sayı heç zaman olmadığı qədər bir neçə dəfə çox olacaq. İdmançılara qələbə, təşkilatçılara uğurlar, Çin xalqına bu oyunlarda sevinc arzu edirəm.

**Müxbir:** Son olaraq, Azərbaycan sıravi çinlilərə görə uzaq, lakin sirli ölkədir. Mən burada ölkə Prezidenti ilə əyləşmişəm. İcazə verin soruşum: Siz proqramımızın çinli tamaşaçılarına söyləyə bilərsinizmi nəyə görə onlar Azərbaycanı növbəti turizm məkanı kimi seçməlidirlər?

**Prezident İlham Əliyev:** Bilirsiniz, birincisi, insanlarımız çox mehriban və qonaqpərvərdirlər. İkincisi, bizim çox müasir hotel infrastrukturumuz var. Rəngarəng təbiətimiz var. Ölkədə doqquz iqlim qurşağı var. Ölkənin ərazisi o qədər böyük deyil, siz qatarla, avtomobillə və yaxud ən uzağı təyyarə ilə asanca qət edə bilərsiniz. Yol infrastrukturu ən yaxşılar sırasındadır. Mətbəx, fikrimcə, ən yaxşılar sırasındadır.

**Müxbir:** Biz çoxlu kabab yedik.

**Prezident İlham Əliyev:** Hava çox yaxşıdır. Dağlarda xizək sürə bilərsiniz. Xəzər dənizində üzə bilərsiniz. Velosipedlə dağlara çıxmaq, palçıq vulkanlarını görmək, Qarabağın dağlarına və meşələrinə getmək olar. Göl və çaylarımız var. Həmçinin düşünürəm ki, çinli turistlər görəcəklər ki, Azərbaycan xalqının Çinə böyük rəğbəti var. Onlar ölkənizi tanıyır, dost olduğumuzu bilirlər. Ona görə, çinlilər özlərini öz evindəki kimi hiss edəcəklər.

**Müxbir:** Prezident Əliyev, ölkənizdə bizi qəbul etdiyinizə görə bir daha çox sağ olun. Bu müsahibəyə görə minnətdarıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**AZƏRTAC**

## “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 907-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2005-ci il 14 iyul tarixli 258 nömrəli, “Elm haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 9 avqust tarixli 1009 nömrəli, “Azərbaycan Respublikasının “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 907-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Elm haqqında” Azərbaycan Respublikası Qanununun 11.3-cü maddəsinin ikinci cümləsində, 13.1-ci və 22.1-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 11.3-cü maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 13.1-ci və 22.1-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 907-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 14 iyul tarixli 258 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 594; 2008, № 5, maddə 373; 2013, № 8, maddə 897; 2016, № 10, maddə 1627; 2017, № 5, maddə 770; 2018, № 2, maddə 207; 2019, № 5, maddə 847; 2020, № 8, maddə 1037, № 12 (I kitab), maddə 1487; 2021, № 8, maddə 920) 2.1-1-ci bəndindən “və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində” və “və elmi təşkilatın magistratura səviyyəsini” sözləri çıxarılsın.

**4.** “Elm haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 avqust tarixli 1009 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1370; 2017, № 11, maddə 2028; 2019, № 7, maddə 1231; 2020, № 5, maddə 550, № 6, maddə 713) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə “, 12.13-cü” sözləri “maddələrində, 11.3-cü maddəsinin ikinci cümləsində” sözləri ilə əvəz edilsin;

4.2. 2.3-1-ci və 2.3-2-ci bəndlər müvafiq olaraq 2.3-3-cü və 2.3-4-cü bəndlər hesab olunsun və aşağıdakı məzmunda 2.3-1-ci və 2.3-2-ci bəndlər əlavə edilsin:

“2.3-1. həmin Qanunun 11.3-cü maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

“2.3-2. həmin Qanunun 13.1-ci və 22.1-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;”;

4.3. 2.5-ci bənddən “, 12.13-cü, 13.1-ci, 22.1-ci” sözləri çıxarılsın.

**5.** “Azərbaycan Respublikasının “Vətən Müharibəsi Qəhrəmanı” adı verilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1226 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1488; 2021, № 8, maddə 923) 2.1.2-ci yarımbəndindən “və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində” və “və elmi təşkilatın magistratura səviyyəsini” sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanununun tətbiqi və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Peşə təhsili haqqında” Azərbaycan Respublikası Qanununun 4.0.19-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 4.0.19-2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. “Peşə təhsili haqqında” Azərbaycan Respublikası Qanununun 4.0.19-2-ci maddəsinə uyğun olaraq, peşə təhsili müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin hazırlanması qaydasını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 908-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi “Peşə təhsili haqqında” Azərbaycan Respublikası Qanununun 4.0.19-1-ci maddəsinə uyğun olaraq, dövlət peşə təhsili müəssisələrinə müəllimlərin və istehsalat təlimi ustalarının işə qəbulu və yerdəyişməsi qaydalarını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4.** “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1230; 2019, № 5, maddə 841; 2020, № 7, maddə 893, № 11, maddələr 1360, 1362; 2021, № 6 (I kitab), maddə 573; 2022, № 5, maddə 458) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə “Qanununun” sözündən sonra “4.0.19-2-ci,” sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. həmin Qanunun 4.0.19-2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

4.3. 2.3-cü bəndə “4.0.20-ci” sözlərindən əvvəl “4.0.19-1-ci, 4.0.19-2-ci,” sözləri, “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

4.4. 2.3-1-ci, 2.10-cu və 2.12-ci bəndlərə “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

4.5. 2.4-cü bənddən “Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında” sözləri çıxarılsın və həmin bəndə (hər üç halda) “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## Azərbaycan Respublikası Prezidentinin “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 279-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2016-cı il 21 iyun tarixli 939 nömrəli, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 336-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2016-cı il 18 noyabr tarixli 1115 nömrəli, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 337-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2016-cı il 18 noyabr tarixli 1116 nömrəli, “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 832-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2017-ci il 5 dekabr tarixli 1706 nömrəli və “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 836-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2017-ci il 14 dekabr tarixli 1720 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Sanitariya-epidemioloji salamatlıq haqqında”, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Yanğın təhlükəsizliyi haqqında”, “Milli arxiv fondu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 910-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 279-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 iyun tarixli 939 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1035) 3-cü hissəsi ləğv edilsin.

**2** “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 336-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 1115 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1822; 2021, № 11, maddə 1212) 3-cü hissəsi ləğv edilsin.

**3** “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 337-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 1116 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1823) 3-cü hissəsi ləğv edilsin.

**4** “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 832-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 dekabr tarixli 1706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 2274) 3-cü hissəsi ləğv edilsin.

**5** “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 836-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli 1720 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12, maddə 2288) 3-cü hissəsi ləğv edilsin.

**6** Bu Fərmanın 2-ci və 3-cü hissələri 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Məktəbəqədər təhsil haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 909-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə” 1999-cu il 15 aprel tarixli 122 nömrəli, “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə” 2017-ci il 19 iyun tarixli 1471 nömrəli, “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə” 2019-cu il 27 may tarixli 711 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Məktəbəqədər təhsil haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 909-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 20-1.1-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 20-1.1-ci maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 20-1.1-ci maddəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Məktəbəqədər təhsil haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 909-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 4.0.12-1-ci maddəsinə uyğun olaraq, dövlət məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi müəllimlərin işə qəbulu və yerdəyişməsi qaydalarını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4** “Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 231; 2000, № 3 (I kitab), maddə 159; 2008, № 7, maddə 611, № 8, maddə 719, № 10, maddə 896; 2009, № 2, maddə 71, № 12, maddələr 977, 987; 2011, № 7, maddə 633; 2012, № 6, maddə 545; 2014, № 7, maddə 791, № 11, maddə 1408, № 12, maddə 1570; 2015, № 1, maddə 20; 2016, № 6, maddə 1050; 2018, № 10, maddə 2007, № 12 (I kitab), maddə 2615; 2019, № 2, maddə 206, № 5, maddə 844; 2020, № 8, maddə 1037, № 11, maddə 1348; 2022, № 6, maddə 596, № 8, maddə 863, № 11, maddə 1270; 2023, № 3, maddə 352) 2-ci hissəsinin on ikinci abzasına “dövlət” sözündən sonra “məktəbəqədər və” sözləri əlavə edilsin.

**5.** “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1087; 2018, № 4, maddə 700, № 10, maddə 2018; 2020, № 6, maddə 699, № 11, maddə 1362; 2021, № 12, maddə 1366) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə “cümləsində” sözündən sonra “, 20-1.1-ci maddəsinin birinci və ikinci cümlələrində” sözləri əlavə edilsin;

5.2. 2.2-ci bəndə “attestasiyası” sözündən sonra “(sertifikatlaşdırılması)” sözü əlavə edilsin;

5.3. aşağıdakı məzmunda 2.2-1-ci və 2.5-2-ci bəndlər əlavə edilsin:

“2.2-1. həmin Qanunun 20-1.1-ci maddəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

“2.5-2. həmin Qanunun 15.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini və 4.0.5-ci maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi qismində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir;”;

5.4. 2.5-ci bənddə “15.3-cü və 23.3-cü maddələrində” sözləri “23.3-cü maddəsində” sözləri ilə əvəz edilsin, həmin bənddən “4.0.5-ci,” sözləri çıxarılsın və həmin bəndə “attestasiyasını” sözündən sonra “, təhsilverənlərin sertifikatlaşdırılmasını” sözləri, “4.0.13-cü,” sözlərindən əvvəl “4.0.12-1-ci,” sözləri, “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

5.5. 2.5-1-ci bəndə “cümləsində” sözündən sonra “və 20-1.1-ci maddəsinin birinci cümləsində” sözləri və “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin.

**6** “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 863; 2020, № 6, maddə 699, № 7, maddə 868, № 11, maddə 1362; 2021, № 6 (I kitab), maddə 573) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.4-cü bənddən “20.2-ci maddəsində,” sözləri çıxarılsın və həmin bəndə “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

6.2. 2.5-ci bənddən “4.0.9-cu,” sözləri çıxarılsın və həmin bəndə “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

6.3. aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

“2.5-1. həmin Qanunun 20.2-ci maddəsində nəzərdə tutulmuş “orqanın (qurumun)” səlahiyyətlərini və 4.0.9-cu maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan ümumi təhsil müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi qismində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

# “Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 869 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 869 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 674; 2019, № 5, maddə 848, № 11, maddə 1718; 2021, № 2, maddə 125) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına və 2-ci hissəsinə “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

1.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin Əsasnaməsi” aşağıdakı redaksiyada verilsin:

# “Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin ƏSASNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik) peşə təhsili sahəsində (bundan sonra – müvafiq sahə) dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, peşə təhsili müəssisələrinin fəaliyyətini tənzimləyən, əlaqələndirən və onların fəaliyyətinə dövlət nəzarətini həyata keçirən, Nazirliyin strukturuna daxil olan qurumdur.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə normativ hüquqi bazanın formalaşdırılmasında iştirak etmək;

2.1.4. peşə təhsili müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və əlaqələndirilməsi üçün tədbirlər görmək;

2.1.5. peşə təhsili müəssisələrində nəticəyönlü, şəffaf və səmərəli idarəetmə modelini formalaşdırmaq və bu prosesdə müasir idarəetmə texnologiyalarından istifadəni təmin etmək;

2.1.6. təhsil proqramları vasitəsilə təhsilalanlara sistemləşdirilmiş bilik, bacarıq və səriştələrin aşılanmasını, onların ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlanmasını təmin etmək;

2.1.7. təhsilverənlərin peşəkarlığının davamlı şəkildə artırılması işini təşkil etmək;

2.1.8. müvafiq sahədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak etmək.

**3. Agentliyin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların hazırlanmasında iştirak etmək, onlara dair rəy vermək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların layihələrinin hazırlanmasında iştirak etmək və onların həyata keçirilməsini təmin etmək;

3.1.3. peşə təhsili müəssisələrində beynəlxalq standartlara cavab verən təhsil şəraiti və mühitinin yaradılması üçün tədbirlər görmək;

3.1.4. peşə təhsilinin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi məqsədilə müxtəlif istiqamətli layihələri həyata keçirmək;

3.1.5. peşə təhsili müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarət etmək;

3.1.6. peşə təhsili müəssisələrinə tədris-metodiki rəhbərliyi həyata keçirmək;

3.1.7. hər tədris ili üçün peşə təhsili müəssisələrinə müvafiq ixtisaslar üzrə tələbə qəbulu barədə təklifləri Nazirliyə təqdim etmək;

3.1.8. peşə təhsili müəssisələrinə tələbə qəbulunu həyata keçirmək;

3.1.9. təhsil proqramlarına (kurikulumlara), tədris planlarına və proqramlarına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.10. peşə təhsili müəssisələrində pedaqoji işçilərin dərs yükü normalarına riayət olunmasına nəzarət etmək;

3.1.11. peşə təhsili müəssisələrində yeni təhsil proqramlarının (ixtisasların) açılmasına dair Nazirliyə təkliflər vermək;

3.1.12. peşə təhsili müəssisələrində sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində müvafiq şərait yaradılmasının təşkilinə nəzarət etmək;

3.1.13. cəzaçəkmə müəssisələri nəzdində fəaliyyət göstərən peşə təhsili müəssisələrində və xüsusi peşə təhsili müəssisələrində təlim-tədris prosesini həmin müəssisələrdəki xüsusi rejimin tələblərinə riayət olunmaqla təşkil etmək;

3.1.14. digər dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisələrində təhsilalanların peşəyönümü işinin təşkilini təmin etmək;

3.1.15. müxtəlifsəviyyəli və müxtəlifmiqyaslı müsabiqələr və yarışlar keçirmək;

3.1.16. dövlət peşə təhsili müəssisələrində təhsilalanların xüsusi iş geyim formaları ilə təmin edilməsi üçün tədbirlər görmək;

3.1.17. peşə təhsili və əlavə təhsil müəssisələrinin (dövlət təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinə lisenziya verilməsi ilə əlaqədar rəy verilməsində iştirak etmək;

3.1.18. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, tabeliyində olan peşə təhsili müəssisələrinin, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin təklifi əsasında onların tabeliyində yaradılması nəzərdə tutulan peşə təhsili müəssisələrinin nizamnamələrinə dair Nazirliyə rəy vermək;

3.1.19. peşə təhsili pilləsində təhsilalanların attestasiyasının (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) həyata keçirilməsinə nəzarət etmək;

3.1.20. müvafiq sahədə planlaşdırmanı, proqnozlaşdırmanı, əlaqələndirməni və qiymətləndirməni (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) həyata keçirmək;

3.1.21. dövlət peşə təhsili müəssisələrinin ümumtəhsil və ixtisas dərslikləri, tədris-metodiki və tədris vəsaitləri, multimedia sistemləri, ədəbiyyatlar, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər texniki vasitələrlə təminatını həyata keçirmək;

3.1.22. tabeliyində olan peşə təhsili müəssisələrinin fənn və ixtisas müəllimlərinə, istehsalat təlimi ustalarına tələbatı barədə məlumatı Nazirliyə təqdim etmək;

3.1.23. dövlət peşə təhsili müəssisələri işçilərinin əməyinin stimullaşdırılmasına, o cümlədən onların mükafatlandırılmasına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.24. tabeliyində olan peşə təhsili müəssislərində təhsil fəaliyyətinin təşkilində və təlim-tərbiyə prosesində müasir təhsil texnologiyalarının və innovasiyaların tətbiqi üçün tədbirlər görmək;

3.1.25. tabeliyində olan peşə təhsili müəssisələrində çalışan təhsilverənlərin, mühəndis-pedaqoji heyətin əlavə təhsilinin təmin edilməsi üçün müvafiq tədbirləri həyata keçirmək;

3.1.26. peşə təhsili müəssisələrində təhsilin və təlim-tərbiyə prosesinin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək;

3.1.27. tabeliyində olan peşə təhsili müəssisələri üzrə tələb olunan dövlət büdcəsi vəsaitinə dair proqnozları hazırlayaraq Nazirliyə təqdim etmək və ayrılmış vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək;

3.1.28. peşə təhsili müəssisələri ilə xarici ölkələrin peşə təhsili müəssisələri arasında təhsilalanların və təhsilverənlərin mübadiləsi proqramlarını əlaqələndirmək;

3.1.29. tədris dilini zəif bilən təhsilalanlar üçün təhsil proqramlarına uyğun hazırlıq kurslarının təşkil edilməsi üçün tədbirlər görmək;

3.1.30. təhsilalanların təhsil müəssisəsinin, ixtisasının dəyişdirilməsinin və təhsil müəssisəsinə bərpa olunmasının həyata keçirilməsini təmin etmək;

3.1.31. peşə təhsili pilləsinin bir səviyyəsindən digərinə keçid zamanı təhsil proqramının (ixtisasın) uyğunluğuna nəzarət etmək;

3.1.32. müvafiq sahədə əlverişli investisiya mühitinin yaradılması üçün təklifləri Nazirliyə təqdim etmək;

3.1.33. hüquqi və fiziki şəxslərin iştirakı ilə tədris-istehsalat sahələrinin qurulmasına şərait yaratmaq;

3.1.34. mülkiyyət növündən asılı olmayaraq hüquqi və fiziki şəxslərlə, eləcə də digər qurumlarla müqavilə əsasında, tabeliyində olan peşə təhsili müəssisələrində kadr hazırlığı işini təşkil etmək;

3.1.35. təhsilalanların istehsalat təcrübəsi keçməsini və iş yerində öyrənməni təmin etmək üçün peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında əməkdaşlıq müqavilələrinin bağlanılmasını təmin etmək;

3.1.36. tabeliyində olan peşə təhsili müəssisələrində peşə hazırlığının səmərəliliyini artırmaq məqsədilə hüquqi və fiziki şəxslərlə birgə fəaliyyət müqavilələrinin bağlanılmasını təşkil etmək;

3.1.37. işəgötürənlərin sifarişləri əsasında, tabeliyində olan peşə təhsili müəssisələrində və iş yerlərində əlavə təhsil kursları təşkil etmək;

3.1.38. peşə təhsili müəssisələri məzunlarının məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə işəgötürənlərlə əməkdaşlığı təşkil etmək;

3.1.39. peşə təhsili üzrə ixtisasların təsnifatı barədə Nazirliyə təkliflər vermək;

3.1.40. müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və ümumiləşdirmək;

3.1.41. ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin tətbiqi üçün tədbirlər görmək;

3.1.42. dövlət peşə təhsili müəssisələrində pedaqoji şuraların təsdiq edilmiş əsasnaməyə uyğun təşkilinə və fəaliyyətinə nəzarət etmək;

3.1.43. müvafiq sahədə statistik məlumatların və hesabatların toplanılmasını, təhlilini və nəticələrin müvafiq orqanlara təqdim edilməsini həyata keçirmək;

3.1.44. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.45. peşə təhsili müəssisələrinin “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”ndən istifadəsini təmin etmək;

3.1.46. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.47. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə “Vətəndaşların müraciətləri haqqında”, “İnzibati icraat haqqında” və “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.48. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.49. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.50. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.51. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.52. Agentliyin fəaliyyətinin nəticələri barədə Nazirliyə hesabat təqdim etmək;

3.1.53. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normativ hüquqi aktın qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh olunması, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında təklifləri Nazirliyə təqdim etmək;

4.1.2. peşə təhsili müəssisələrindən fəaliyyət istiqamətlərinə uyğun olaraq hesabat və məlumatlar almaq;

4.1.3. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.4. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, tədqiqatlar və araşdırmalar aparmaq, monitorinqlər keçirmək, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək;

4.1.5. müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq, peşə təhsili müəssisələri işçilərinin həvəsləndirilməsini və mükafatlandırılmasını həyata keçirmək, onlara dövlət təltiflərinin və fəxri adların verilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

4.1.7. dövlət peşə təhsili müəssislərində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsinə, maddi rifahının yaxşılaşdırılmasına və onlara dövlət qayğısının artırılmasına dair təklifləri Nazirliyə təqdim etmək;

4.1.8. dövlət peşə təhsili müəssisələrinin yaradılması, yenidən təşkili və ləğv edilməsi barədə təklifləri Nazirliyə təqdim etmək;

4.1.9. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək, belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.10. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək;

4.1.11. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentlik öz fəaliyyətini Aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.) vasitəsilə həyata keçirir.

5.2. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Agentliyin direktoru Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Agentlik direktorunun Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır.

5.4. Agentlik direktorunun müavinləri vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

5.5. Agentliyin direktoru:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Agentliyi təmsil edir;

5.5.3. müəyyən edilmiş əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin strukturunu, ştat cədvəlini, gəlir və xərclər smetasını təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.4. strukturuna daxil olan qurumların əsasnamələrini, habelə tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.5. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.6. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində, Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bu Əsasnamənin 5.5.7-ci yarımbəndi nəzərə alınmaqla) strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirlər daxilində onların gəlir və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

5.5.7. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində, tabeliyində olan publik hüquqi şəxslərin (Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) ştat cədvəlinin, əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin və ayrılmış büdcə təxsisatı çərçivəsində gəlir və xərclər smetasının təsdiq edilməsinə razılıq verir;

5.5.8. Agentlik direktorunun müavinləri istisna olmaqla, Agentliyin digər işçilərini və Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərinin müavinlərini, eləcə də Nazirliklə razılaşdırmaqla, Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür, əlavə təhsili üçün müvafiq tədbirlər görür;

5.5.9. strukturuna daxil olmayan tabeliyindəki peşə təhsili müəssisələrinin filial və nümayəndəliklərinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.10. Agentlik direktorunun müavinləri istisna olmaqla, Agentliyin digər dövlət qulluqçularına qanunla müəyyən edilmiş qaydada dövlət qulluğunun ixtisas dərəcələrini verir;

5.5.11. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir, Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.12. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim edir;

5.5.13. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.5.14. Agentliyin fəaliyyəti barədə Nazirliyə hesabat verir;

5.5.15. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Agentliyin işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.16. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin xərclənməsinə dair hesabatları rübdə bir dəfə Nazirliyə təqdim edir;

5.5.17. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şuranın yaradılması barədə Nazirliyə təkliflər verir.”.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun tətbiqi və “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 29.0.37-3-cü maddəsinə uyğun olaraq, ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi aşağıdakı normativ hüquqi aktları üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1. “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 29.0.10-3-cü maddəsinə uyğun olaraq, peşə təhsili müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydalarını;

2.2. həmin Qanunun 29.0.37-1-ci maddəsinə uyğun olaraq, yeni təhsil proqramlarının (ixtisasların) açılması qaydalarını;

2.3. həmin Qanunun 29.0.37-2-ci maddəsinə uyğun olaraq, təhsilin bir pilləsindən və ya səviyyəsindən digərinə keçid zamanı təhsil proqramının (ixtisasın) uyğunluğuna dair tələbləri;

2.4. həmin Qanunun 29.0.42-1-ci maddəsinə uyğun olaraq, ali təhsil müəssisələrində elmi-tədqiqat və elmi-metodik işlərin təşkili qaydalarını və professor-müəllim heyətinin tədris işi vaxtı normasını.

**3** “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 5, maddə 848, № 7, maddə 1229, № 8, maddə 1398; 2020, № 5, maddə 549, № 7, maddə 868, № 11, maddə 1362, № 12 (I kitab), maddə 1469; 2021, № 6 (I kitab), maddə 571, № 11, maddə 1218, № 12, maddə 1364; 2023, № 2, maddə 244) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddən “1.0.54-cü,”, “14.8-1-ci maddəsində,” və “22.5-ci, 22.5-1-ci,” sözləri çıxarılsın və həmin bəndə “29.0.34-cü” sözlərindən əvvəl “29.0.21-ci (xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması qaydalarının müəyyən olunması üzrə),” sözləri əlavə edilsin;

3.2. 2.2-ci bənddən “29.0.21-ci (xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması qaydalarının müəyyən olunması üzrə),” sözləri çıxarılsın və həmin bəndə “ümumi təhsil müəssisələrində” və “ümumi təhsil müəssisələrinin” sözlərindən əvvəl “məktəbəqədər və” sözləri, “29.0.32-ci,” sözlərindən sonra “29.0.37-3-cü,” sözləri əlavə edilsin;

3.3. 2.3-cü bənddən “30.2-ci maddəsinin birinci cümləsində (dövlət ali təhsil müəssisələri, peşə təhsili müəssisələri, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olmayan təhsil müəssisələri və yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan uşaq evləri istisna olmaqla, digər dövlət təhsil müəssisələrinin rəhbərlərinin vəzifəyə təyin edilməsi üzrə),” və “29.0.13-cü (dövlət ali təhsil müəssisələri, peşə təhsili müəssisələri, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olmayan təhsil müəssisələri və yerli icra hakimiyyəti orqanlarının tabeliyindəki uşaq evləri istisna olmaqla, digər dövlət təhsil müəssisələri rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi üzrə),” sözləri çıxarılsın və həmin bəndə “29.0.10-2-ci,” sözlərindən sonra “29.0.10-3-cü,” sözləri, “29.0.37-ci,” sözlərindən sonra “29.0.37-1-ci, 29.0.37-2-ci,” sözləri, “və 29.0.43-cü” sözlərindən əvvəl “, 29.0.42-1-ci” sözləri, “Təhsil Nazirliyi” sözlərindən əvvəl “Elm və” sözləri əlavə edilsin;

3.4. 2.3-1-ci, 2.4-1-ci və 2.7-ci bəndlərə “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

3.5. 2.8-ci bənddə (hər iki halda) “Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələri” sözləri “Elm və Təhsil Nazirliyinin tabeliyindəki təhsil müəssisələri” sözləri ilə əvəz edilsin;

3.6. aşağıdakı məzmunda 2.9-1-ci və 2.9-2-ci bəndlər əlavə edilsin:

“2.9-1. həmin Qanunun 30.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini və 29.0.13-cü maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan orta ixtisas təhsili müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi qismində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir;

2.9-2. həmin Qanunun 30.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini və 29.0.13-cü maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində olan məktəbəqədər, ümumi və məktəbdənkənar təhsil müəssisələrinə münasibətdə – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmaqla, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi qismində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi həyata keçirir;”;

3.7. 2.10-cu bənddən “Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında” sözləri çıxarılsın və həmin bəndə (hər üç halda) “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin;

3.8. 2.10-1-ci bəndə “Təhsil” sözündən əvvəl “Elm və” sözləri əlavə edilsin və həmin bənddən “Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə” sözləri çıxarılsın;

3.9. 2.11-ci bənd ləğv edilsin.

**4** Bu Fərmanın 3.1-ci (“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 29.0.21-ci maddəsinə münasibətdə istisna olmaqla) və 3.9-cu bəndləri 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanının ləğv edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

“Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 161, № 12, maddə 1102; 2007, № 10, maddə 947; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 4, maddə 291, № 6, maddə 531, № 9, maddə 854; 2016, № 11, maddə 1805; 2017, № 7, maddə 1355, № 12 (I kitab), maddə 2312; 2019, № 3, maddə 403, № 5, maddə 848, № 11, maddə 1718; 2020, № 7, maddələr 868, 895, № 9, maddə 1139, № 12 (I kitab), maddə 1469; 2021, № 2, maddə 124, № 12, maddə 1365; 2022, № 2, maddə 103, № 6, maddə 594, № 8, maddə 878) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## X.A.Xələfovun Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Xələf Alı oğlu Xələfov Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## X.A.Xələfovun Azərbaycan Respublikası xarici işlər nazirinin müavini vəzifəsindən azad edilməsi və bundan irəli gələn bəzi məsələlər haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Xələf Alı oğlu Xələfov Azərbaycan Respublikası xarici işlər nazirinin müavini vəzifəsindən azad edilsin.

**2** “Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsinin təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 may tarixli 1158 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 878) ləğv edilsin.

**3** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## “Sanitariya-epidemioloji salamatlıq haqqında”, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Yanğın təhlükəsizliyi haqqında”, “Milli arxiv fondu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 910-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1997-ci il 25 iyul tarixli 619 nömrəli, “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1999-cu il 27 iyul tarixli 168 nömrəli, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1999-cu il 30 avqust tarixli 188 nömrəli, “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə”nin təsdiqi barədə” 2012-ci il 13 fevral tarixli 593 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Sanitariya-epidemioloji salamatlıq haqqında”, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Yanğın təhlükəsizliyi haqqında”, “Milli arxiv fondu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 910-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 26-1.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 26-1.1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;

1.3. “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun 14-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur;

1.5. “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin beşinci hissəsinin birinci cümləsində (birinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Qanunun 10-cu maddəsinin beşinci hissəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Sanitariya-epidemioloji salamatlıq haqqında”, “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında”, “Yanğın təhlükəsizliyi haqqında”, “Milli arxiv fondu haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 910-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3** “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 619 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 416; 2004, № 6, maddə 437; 2005, № 4, maddə 303; 2007, № 6, maddə 601; 2010, № 2, maddə 85; 2018, № 3, maddə 422) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci – doqquzuncu abzaslar müvafiq olaraq 2.1 – 2.8-ci bəndlər hesab edilsin;

3.2. 2.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.8. həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.”.

**4** “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 430; 2006, № 8, maddə 435; 2013, № 8, maddə 899; 2016, № 3, maddə 464; 2022, № 8, maddə 872; 2023, № 4, maddə 513) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə “(birinci halda)” sözləri “(birinci və ikinci hallarda)” sözləri ilə əvəz edilsin;

4.2. 2.2-ci bənddə “(ikinci halda)” sözləri “(üçüncü halda)” sözləri ilə əvəz edilsin;

4.3. 2.8-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

“2.9. həmin Qanunun 10-cu maddəsinin beşinci hissəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi nəzərdə tutulur.”.

**5** “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498; 2001, № 7, maddə 459; 2002, № 8, maddə 487; 2006, № 9, maddə 743; 2007, № 5, maddə 459, № 6, maddə 611; 2008, № 3, maddə 170; 2017, № 5, maddə 767; 2018, № 8, maddə 1691; 2020, № 7, maddələr 861, 877; 2021, № 11, maddə 1212; 2023, № 3, maddə 352) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.2-ci bənd ləğv edilsin;

5.2. 2.4-cü və 2.5-ci bəndlərdən “ikinci halda” sözləri çıxarılsın;

5.3. 2.8-ci bəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunsun və 2.10-cu bənd ləğv edilsin.

**6** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə”nin təsdiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324, № 8, maddə 871; 2023, № 1, maddə 84, № 3, maddə 344, № 4, maddə 471) 5.1-ci bəndindən “21.1-ci,” sözləri çıxarılsın.

**7** Bu Fərmanın 5-ci hissəsi 2023-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## M.M.Şixəliyevin, S.Y.Ələkbərovun və Y.S.Məmmədovun ali hərbi rütbədən və dövlət təltiflərindən məhrum edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Mövlam Məmmədismayıl oğlu Şixəliyevin, Sahib Yunus oğlu Ələkbərovun və Yasin Seyfulla oğlu Məmmədovun ağır və xüsusilə ağır cinayətlər törətdiklərinə görə məhkum olunmaları barədə məhkəmə hökmünün qanuni qüvvəyə minməsini və Bakı Hərbi Məhkəməsinin təqdimatlarını əsas götürərək **qərara alıram:**

**1** Mövlam Məmmədismayıl oğlu Şixəliyev general-mayor ali hərbi rütbəsindən, 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenindən, “Vətən uğrunda” və “Hərbi xidmətlərə görə” medallarından məhrum edilsin.

**2** Aşağıdakı şəxslər “Vətən uğrunda” medalından məhrum edilsinlər:

2.1. Sahib Yunus oğlu Ələkbərov;

2.2. Yasin Seyfulla oğlu Məmmədov.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## Azərbaycan Respublikasının ərazisində radioyayım şəbəkəsinin genişləndirilməsi üçün maliyyə vəsaitinin ayrılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud yayım stansiyalarının maddi-texniki bazasının yaxşılaşdırılması, dayanıqlı fəaliyyətinin təmin edilməsi və fasiləsiz enerji təminatı üçün zəruri infrastrukturun yaradılması, radioyayım şəbəkəsinin müasirləşdirilməsi və genişləndirilməsi, eləcə də milli radiotezlik resursundan səmərəli istifadə məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının ərazisində radioyayım şəbəkəsinin genişləndirilməsi üçün avadanlığın alınması və quraşdırılması, eləcə də mövcud yayım stansiyalarının maddi-texniki bazasının yaxşılaşdırılması, dayanıqlı fəaliyyətinin təmin edilməsini dəstəkləyən zəruri infrastrukturun yaradılması və istismar xərclərinin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə 13,7 milyon (on üç milyon yeddi yüz min) manat vəsait ayrılsın.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində göstərilən tədbirlərin icrası ilə əlaqədar növbəti üç il ərzində istismar xərclərinin maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin müvafiq illər üzrə dövlət büdcəsi layihəsində nəzərdə tutulmasını təmin etsin;

2.2. bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**3** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

## “Azərbaycan Respublikası Elm vəTəhsil Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 664 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli 664 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 891; 2021, № 12, maddə 1472; 2022, № 3, maddə 391) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin strukturu” aşağıdakı redaksiyada verilsin:

“**1**. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparatı.

**2** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi.

**3** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi.

**4** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

# Prezident İlham Əliyevin inteqrasiya məntiqi: tələblər, şərtlər və xəbərdarlıq

## Qarabağ ermənləri bölgədə Azərbaycan qanunları ilə yaşamağa məhkumdurlar

**Prezident İlham Əliyevin iyulun 21-də keçirilmiş "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusundakı Şuşa Qlobal Media Forumunun açılış mərasimində səsləndirdiyi fikirlər nəinki Azərbaycanın, bütövlükdə regionun və beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Dövlətimizin başçısının toxunduğu vacib məsələlərdən biri də Qarabağ ermənilərinin Azərbaycana inteqrasiyasıdır.**



Maraqlıdır ki, ölkəmizin liderinin mövcud xüsusda üzərində dayandığı ilk məqam Qarabağa qanunsuz daşımaların həyata keçirilməsi idi. Məlum olduğu kimi, əvvəllər söhbət silah-sursat və mina daşınmasından gedirdisə, hazırda gündəmdə olan məsələ qaçaqmalçılıqdır. Hər iki hal Azərbaycan qanunlarına saymazyana münasibətdir. Halbuki, ölkəmiz 44 günlük müharibədən sonra haylara şans vermişdi…

***

Əslində inteqrasiya təklifinin özü də şansdır. Prezident isə sözügedən forumda Ermənistana şansın müharibədən əvvəl də verildiyini vurğuladı: "Biz İkinci Qarabağ müharibəsinin başlanmasına qədər iki il müddətində erməni rəhbərliyinə də şans vermişik, amma onlar bundan istifadə etmədilər. Biz Laçın-Xankəndi yolunun, sadəcə, "özbaşına keçid" olduğu, Ermənistanın 2021-ci ildə istehsal etdiyi minaların bu yol vasitəsilə göndərdiyi vaxtda da şans verirdik. Biz bu minaları aşkar etdik, tapdıq. Biz Rusiya sülhməramlı kontingentinin, həmçinin Ağdamda yerləşən Rusiya-Türkiyə monitorinq mərkəzinin nümayəndələrini dəvət etdik, göstərdik və sual verdik: "Bu minalar Qarabağa necə gətirilib? Onları kim gətirib? Kim diqqətdən qaçırıb?". Halbuki, bu, mümkün deyil. Ermənistan terroru davam etdirdiyindən, biz qələbədən sonra öz ərazimizdə nə üçün həlak olmalıyıq?!"

Azərbaycan Prezidenti bütün bunların Qarabağ ermənilərinin Azərbaycana inteqrasiyasına maneçilik törətdiyini əsaslandırarkən, ölkəmizin mövcud istiqamətdə əks addımlarından da söz açdı, postmüharibə dövrünün xüsusiyyətlərinə nəzər saldı, həmçinin bu addımların məntiqli, əsaslandırılmış, müdrik və kifayət qədər cəsarətli olduğunu bildirdi. Əlbəttə, dövlətimizin başçısı Azərbaycanın götürdüyü kursun legitimliyinin bütün aktorlar tərəfindən həvəslə, tam qəbul edilmədiyini də vurğuladı. "Lakin biz neçə dəfə mesaj göndərməliyik, neçə dəfə işarə etməliyik? Məgər bunlar artıq az idi?", – deyən cənab İlham Əliyevin ölkəmizin qətiyyət və prinsipiallıq nümayişini obyektiv zərurət kimi dəyərləndirməsi, mövcud xüsusda Fərrux əməliyyatını, 2021-ci ilin mayında Ermənistan-Azərbaycan sərhədindəki vəziyyəti, o cümlədən 2022-ci ilin sentyabrındakı durumu və nəzarət-buraxılış məntəqəsi qurulması ehtiyacını qabartması, onu deməyə əsas verir ki, Bakının mesajlarından düzgün nəticə çıxarılmaması, inteqrasiya istəklərimizə qarşı çıxmaq mahiyyəti daşımaqdadır. Hər halda səbrimiz tükənməz deyil və qarşı tərəfin də bunu anlaması mütləqdir.

Ermənistan hakimiyyəti, ermənipərəst dairələr, xaricdəki erməni lobbi və diaspor təşkilatlarının təmsilçiləri anlamalıdırlar ki, 44 günlük müharibədən sonra bölgədə yaranmış reallıqlara qarşı çıxmaq cəhdləri əbəsdir. Həmin qüvvələr onu da dərk etməlidirlər ki, Bakının inteqrasiya çağırışlarının nəzərə alınmaması, Qarabağın erməni əhalisinin durumuna mənfi təsir göstərməkdədir. Ancaq anlamaq istəmirlər.

***

Bəli, Qarabağın erməni icmasının nümayəndələri bilavasitə təşəbbüs göstərməli, vətəndaşı olduqları dövlətin iradəsini əsas götürməlidirlər. Düşünməlidirlər ki, Bakının inteqrasiya məntiqinə adekvat davranmaları ölkəmizin onları separatçılardan ayrı tutması baxımından son dərəcə mühüm amildir. Bu durum hansısa ön şərtin irəli sürülməsini inkar edir. Lakin biz görürük ki, bölgənin separatçı rejimi özünü onların erməni əhalisinin baxışlarının ifadəçisi qismində aparır. Elə bu səbəbdən Azərbaycanın inteqrasiya ritorikasından irəli gələn görüş dəvətləri heçə sayılır. Yada salaq ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Qarabağın erməni nümayəndələrini iki dəfə Bakıya görüşə çağırıb. Üstəlik, cənab İlham Əliyev əvvəlki çıxışlarında separatçı rejim təmsilçilərinə amnistiyanın şamil ediləcəyinin mümkünlüyü barədə danışıb…

Deməli, ölkəmizin sərt və prinsipial davranması üçün əsaslar formalaşır. Azərbaycan lideri bildirdi ki, indi inteqrasiya məsələsinin yeni fazası Qarabağ ermənilərinin yanlışlardan, onları girov götürən, qul kimi istismar edən xuntadan nə vaxt qurtula biləcəyindən asılıdır. Ancaq görünən budur ki, istismar davamlı xarakter alıb. Vaxtilə ekofeallarımız Laçın-Xankəndi yoluna çıxanda, Xankəndidəki sözdə "erməni rəhbərliyi" sadə insanların bu yoldan istifadəsinə icazə vermirdisə, hazırda dövlətimizin başçısının dili ilə desək, istismarın digər təzahür formaları var. "Bu gün onlar yenə Ağdam-Əsgəran yolunda beton plitələr qoyublar. Siz "nə üçün ərzaq məhsulları başqa ölkədən gətirilməlidir? Axı "Qarabağ Azərbaycandır" dediniz. Elədirmi? Bunu hamı təsdiq edir? Hamı təsdiq edir. Kimsə bunun belə olmadığını deyirmi? Yox. Onda niyə yüklər başqa ölkədən gətirilməlidir? Bu, məntiqə sığmır. Lakin bu jesti qəbul etmək əvəzinə, orada beton bloklar qoyulur. Kim-kimi bloklayır? Ona görə də bütün məsələ bundadır", – deyən Prezident İlham Əliyevin Bakının prinsipial yanaşmasının məntiqi çalarlarına müfəssəl aydınlıq gətirdiyi göz qabağındadır.

Deməli, Qarabağ erməniləri bölgədə separatçıların düzənlədikləri, Ermənistan hakimiyyətinin dəstək verdiyi "proseslərdən" kənar durmalıdırlar. Belə "ssenarilərin" onların yaşadıqları, ömür sürdükləri ərazidə perspektiv mövcudiyyət baxımından heç bir nəticə doğurmadığını hesablamalıdırlar. Onu da düşünməlidirlər ki, siyasi oyunlarda alətə çevrilmək gələcək mövcudiyyət üçün ziyanlı tendensiyadır. Axı Azərbaycan Prezidentinin haqqında söz açdığı Fərrux əməliyyatı, eləcə də şərti sərhəddə yaranmış gərginliklər, ən əsası Laçında Həkəri çayının üzərində qurulmuş sərhəd məntəqəsi Qarabağdakı separatçılıq çənbərini daraldır. Çənbər daraldıqda isə separatçı rejimin təmsilçiləri ilə yanaşı, sıravi ermənilər də məngənədə sıxılırlar. Bu sıxıntını kimlərinsə "blokada" adlandırmasının heç bir əhəmiyyəti yoxdur. Çünki bir prinsipial yol var və bir daha bildirək ki, Azərbaycan o yoldakı qətiyyətini heç bir qüvvəyə güzəştə gedən deyil. Bu, sadəcə mümkünsüzdür. Həm də ona görə ki, İkinci Qarabağ müharibəsi olub və həmin müharibədə xalqımız şəhidlər verib. O şəhidlərin qanı qarşılığında kimlərinsə etiraz edirmiş kimi çadırlar qurması dövlətimizin başçısının vurğuladığı kimi, komediya şousundan başqa bir şey deyil: "Bu, sadəcə, lətifədir. Özünü "prezidentlər" adlandıran şəxslərin etiraz etməsi, oturaq tətil bizdə bəzi jurnalistlər tərəfindən zarafat mövzusu olub. Yəqin ki, növbəti mərhələdə "uzanan" tətil olacaq. Sonra nə bilim, hansı olacaq, lakin bu, məsələyə kömək etməyəcək".

Bəli, Prezident İlham Əliyev bildirir ki, ölkəmiz Qarabağdakı erməni azlığının hüquqlarına və təhlükəsizliyinə əməl etməklə, Konstitusiyamız çərçivəsində və Azərbaycanda bu məsələlərin necə həll edilməsi üzrə xeyirxah təcrübəyə əsaslanaraq, yenidən inteqrasiya yolu ilə irəliləməyə hazırdır. Bu baxışın alternativi yoxdur.

***

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir, ölkəmizdə yaşayan etnik qrupların bütün nümayəndələri eyni hüquq və vəzifələrə, təhlükəsizlik səviyyəsinə malikdirlər. Ermənistan rəhbərliyi, dünya ermənliyi isə çalışır ki, Qarabağ ermənilərini əlahiddə imtiyazlı təbəqə kimi təsbit olunsunlar və belə yanaşma Azərbaycanla Ermənistan arasındakı sülh müqaviləsində əksini tapsın. Nə üçün? Cavab çox sadədədir – gələcəkdə Azərbaycana qarşı ərazi iddiası sürmək mümkünləşsin. Nəzərə alaq ki, belə bir hal vaxtilə yaşanmışdı – 1923-cü ildə Azərbaycanın tərkibində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması XX əsrin 80-ci illərinin sonuna yaxın erməni avantürizmi üçün qondarma hüquqi zəmin formalaşdırmışdı. İndi də eyni düşüncə ortadadır. Fərq yalnız ondadır ki, əvvəl ərazi məsələsi "prioritet" götürülürdü, indi isə əhali.

Azərbaycan Qarabağ ermənilərinə şansı bütün bunlara rəğmən verir. Əslində, cənab İlham Əliyev Şuşa Qlobal Media Forumunda mövcud istiqamətdə səsləndirdikləri də şansdır. Əlbəttə, söhbət prinsipial yanaşmaya əsaslanmış, erməni separatçılığı üçün heç bir perspektiv vəd etməyən şansdan gedir. Elə bir şansdan ki, onun daxili təbiətinə hansısa etnik qrupu fərqləndirmək təmayülü tam yaddır. Bunu ölkəmizin başçısı da vurğulayır: "Nə üçün hansısa etnik qrup bir fonda fərqlənməlidir, bu, mənə də tam aydın deyil. Bax, bizim yanaşmamız belədir. Biz indiyədək Xankəndidə və ətrafında yaşayan cəmiyyətin sağlam düşüncəli hissəsinin Azərbaycana belə məhəl qoyulmamasının bütün perspektivsizliyini başa düşəcəyinə və sağlam düşüncənin üstünlük təşkil edəcəyinə inanmımızı itirməmişik".

***

Bəs, inamımızı itirsək, necə olacaq? Yəni, çənbər bir qədər də daralsa, hadisələr hansı səmtdə inkişaf edəcək? Axı Azərbaycan Prezidenti heç də əbəs yerə ölkəmizin ordu quruculuğuna diqqəti daha da artırdığını vurğulamadı. Əbəs yerə bildirmədi ki, hazırda Azərbaycan Ordusu üç il əvvəlkindən daha güclüdür. Bu kimi xatırlatmalar, əslində xəbərdarlıq idi. Cənab İlham Əliyev xəbərdarlığını Qarabağ ermənilərinin inteqrasiyasına qarşı çıxan qüvvələrə ünvanlamaqla, Azərbaycanın baxışlarına zidd məntiqin növbəti hərbi eskalasiyaya rəvac verəcəyini də bildirməkdədir. Belə olduqda isə yaranacaq mənzərə aydındır. Ölkəmizin lideri Şuşa forumunda həmin mənzərənin doğuracağı reallıqlardan söz açdı: "Əks halda, düşünürəm ki, kiminsə gəlib onların yerinə döyüşəcəyinə indi yalnız sadəlövhlər bel bağlaya bilər".

***

Bəli, istər Qarabağdakı separatçı rejimin, istər Ermənistan rəhbərliyinin, istərsə də bölgənin sadə erməni əhalisinin reallıqları anlaya bilməsi və barışması üçün bir neçə mərhələ olub. Ancaq görünən budur ki, həmin mərhələlərin doğurduğu nəticələrdən dərs götürmək istəyənlər yoxdur. Əvəzində ayrı-ayrı instansiyalara, qonşulardan başlayaraq, uzaqda yerləşən bəzi ölkələrə qədər müxtəlif dövlətlərə müraciətlər var. "Amma, zənnimcə, ağlı başında olan heç kim Azərbaycanın ərazisində bizimlə döyüşməyəcək. Ona görə də onlar sonunda bu reallıqları başa düşməli və barışmalıdırlar", – deyən Prezident İlham Əliyev bir daha ölkəmizin mövqeyinin sarsılmazlığına əminlik yaradır.

Sonda onu da deyək ki, Azərbaycanın liderinin əminliyi sınaqdan çıxmış, yaxın tariximizdə bizə aşılanan təslimçilik meyillərinə qarşı barışmazlıq təbiətinə və xarakterinə malikdir. Ölkəmiz bu xarakteri inkişafına, əldə etdiyi gücə və qüdrətə, proqmatik dəst-xəttinə güvənərək formalaşdırıb. Bu xarakter bizi xalq kimi ayaqda saxlayıb, Qarabağa yenidən sahiblənməyimiz üçün ideoloji motiv formalaşdırıb. Bu mənada Prezident İlham Əliyevin də tarixdən söz açması heç də təsadüf sayılmamalıdır.

***

İndi Qarabağ ermənilərinin inteqrasiyası məsələsinə prinsipial yanaşdığımız kimi, illər əvvəl də bizi işğal reallığı ilə barışmağa çağıranların fikirlərinə qarşı çıxmaqda əzmkarlıq göstəririk. Bu yerdə dövlətimizin başçısının növbəti xəbərdarlıq mesajını diqqətə çatdırmaqla yazımızı tamamlayaq: "Artıq söylədim ki, işğal dövründə vasitəçilər mənə dəfələrlə deyirdi ki, "Birinci Qarabağ müharibəsi belə qurtarıb, siz reallıqları qəbul etməlisiniz". Lakin mən onları qəbul etmirdim və etmədim. Ancaq indi mən yenə də deyirəm: gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu, yalnız və yalnız nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq. Bu səbəbdən ümid edirəm ki, onlar bu sözləri eşidəcək və düzgün nəticə çıxaracaqlar".

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# İrəvanın ənənəvi müttəfiqi Rusiyaya növbəti xəyanəti

## Avropa İttifaqının Siyasət və Təhlükəsizlik Komitəsi Kanadanın Aİ-nin Ermənistan–Azərbaycan sərhədindəki müşahidə missiyasına qoşulmaq qərarını təqdir edib

**Kanadanın müşahidə missiyasına qoşulması Ermənistanda, xüsusən, sevinclə qarşılanmaqdadır. Halbuki, bu yeniliyin tərəfdarları Kanadanın bölgəyə gəlişinin Ermənistana necə fayda verəcəyi barədə konkret fikir bildirməkdə çətinlik çəkirlər. Bəs, əslində, Kanadanın Ermənistan-Azərbaycan sərhədinə gəlişi bölgədə nəyi dəyişəcək? Doğrudanmı Kanadanın regiona gəlişi bu ölkənin Ermənistana olan sevgisindən qaynaqlanır?**

Hər şeydən öncə qeyd edək ki, Kanadanın Avropa İttifaqının müşahidə missiyasına qoşulması Ermənistanın tarixi müttəfiqi olan Rusiyaya növbəti xəyanətidir. Məlumdur ki, Rusiya ilk gündən Avropa İttifaqı missiyasının Ermənistanın gəlişini İrəvanın Kremlə xəyanəti – Qərbin Cənubi Qafqazda möhkəmlənmək cəhdi kimi qiymətləndirib. Hansı ki, uzun əsrlər boyu Rusiyanın Cənubi Qafqazı öz "qırmızı xətti" elan etdiyi, bu məsələyə xüsusi həssaslıqla yanaşdığı bəllidir. Təsadüfi deyil ki, Avropa İttifaqı missiyasının bölgəyə gəlişindən sonra Rusiya məmurlarının bir çoxu Ermənistanı xəyanətdə ittiham etmiş, bunun cavabsız qalmayacağı ilə bağlı eyhamlar səsləndirmişdir. Nümunə üçün deyək ki, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova 11 oktyabr 2022-ci il tarixində mətbuata açıqlamasında Avropa İttifaqı missiyasının bölgəyə gəlişinə sərt reaksiya vermiş, bunun Azərbaycanla Ermənistan arasındakı problemin həllinə töhfə verməyəcəyini bildirmişdir. Habelə, Zaxarova qeyd etmişdir ki, müşahidə missiyasının bölgəyə gəlişi Rusiyanın vasitəçilik səylərini məhdudlaşdırmaq məqsədi daşıyır: "Biz Avropa İttifaqının mülki missiyasına təəssüflər olsun ki, bu təşkilatın Bakı ilə İrəvan arasında münasibətlərin nizamlanmasına mane olmaq, Rusiyanın vasitəçilik səylərini məhdudlaşdırmaq cəhdi kimi baxırıq".

Rusiya XİN-nin 26 yanvar 2023-cü il tarixli bəyanatı da öz kəskinliyi ilə diqqət çəkir. Bəyanatda deyilir: "Cənubi Qafqazda regiondan kənar amilin möhkəmləndirilməsinə münasibətdə Rusiyanın prinsipial mövqeyi dəyişməyib. Aİ "ekspert"lərinin Ermənistan–Azərbaycan sərhədi ərazisində baş verən hadisələrə nəzarət etməsinə "əlavə dəyər" verməyə ehtiyac görmürük. Əgər Brüsseldə Cənubi Qafqazda sülhə həqiqətən maraqlı olsaydılar, o halda öz missiyalarının fəaliyyət şərtlərini Azərbaycan ilə razılaşdırardılar.

ABŞ-ın və NATO-nun təməsinə çevrilən Avropa İttifaqının nümayəndələrinin Ermənistanın sərhədyanı ərazilərində peyda olması və MDB məkanında qarşıdurma siyasəti yürütməsi regiona yalnız geosiyasi qarşıdurma gətirə və mövcud ziddiyyətləri gərginləşdirə bilər. Aİ missiyasının bəyan edilmiş mülki mahiyyəti aldadıcı olmamalıdır. O, Avropa İttifaqının təhlükəsizlik və müdafiə sahəsində ümumi siyasəti çərçivəsində bütün bunlardan irəli gələn nəticələr əsasında formalaşdırılır".

Kremlin Avropa İttifaqının müşahidə missiyasının bölgədəki fəaliyyətinə qarşı çıxdığı, bunu açıq şəkildə Rusiyanın regiondakı maraqlarına təhdid kimi qəbul etdiyi bir zamanda Ermənistanın Kanadanı da bölgəyə gətirməsi İrəvanın Moskvanın maraqlarına hörmət etmək niyyətində olmadığını göstərir. Həmçinin bu yenilik onu göstərir ki, Ermənistan Rusiyaya xəyanəti davam edir.

***

İrəvan Kanadanın bölgəyə gəlişini bu ölkənin erməni sevgisi kimi dəyərləndirsə də, bu barədə deyilənlərin absurd olduğu şübhəsizdir. Baxmayaraq ki, Kanadada erməni diasporunun güclü olduğu, Kanadada ingilis dili ilə yanaşı, həm də fransız dilinin rəsmi dövlət dili olması səbəbindən arada erməniparəst Fransanın təsirinin özünü aşkar biruzə verdiyi inkaredilməzdir. Ancaq hamıya məlumdur ki, Kanadanı Cənubi Qafqaza gətirən səbəb Ermənistana olan sevgi deyil, Qərbin Rusiyanı bölgədən sıxışdırıb çıxarmaq arzusudur. Məhz bu arzu hər mənadan ABŞ-dan asılı olan, xaricisi siyasətini milli maraqları ilə yanaşı, həm də Ağ evin maraqları üzərində quran Kanadanın Cənubi Qafqaza gəlməsinə səbəb olub.

Ehtimal etmək olar ki, Avropa İttifaqı və Ermənistan Kanadanın ardınca daha bir neçə Qərb ölkəsinin bölgəyə gəlişinə cəhd edəcək, anti-Rusiya cəbhəsində yer alan digər ölkələri də bu addımı atmağa həvəsləndirəcəklər. Məqsəd Ermənistanın çağırışını əsas gətirərək bölgədə möhkəmlənmək, regionda nüfuz sahibi olmağa çalışmaq, Rusiyanın burada çoxəsrlik təsirini maksimum azaltmaqdan ibarətdir.

Şübhəsiz, Rusiyanın bölgədəki təsirinin azaldılması Qərbin regiondakı nüfuzunun güclənməsinə hesablanıb ki, bu da heç bir region dövlətinin, eləcə də Ermənistanın mənafeyinə uyğun deyil. Sadəcə, Ermənistanın 44 günlük müharibədə seyrçi mövqe tutan Rusiyanı cəzalandırmaq arzusu onun Qərbin bölgəyə gəlişinə "yaşıl işıq" yandırmasını şərtləndirməkdədir. Bu məsələdə Ermənistanın Azərbaycanla münasibətləri müstəqil şəkildə tənzimləyə bilməməsi, bunun üçün özündə kifayət qədər cəsarət və güc tapa bilməməsi də prosesə təsir göstərən əsas amillər sırasındadır.

***

Nə qədər qəribə olsa da, bu gün bütün dünya Cənubi Qafqazda Rusiyaya qarşı "beynəlmiləlçi cəbhə"nin formalaşmasına şahidlik etməkdədir. Bu cəbhənin əsas təşkilatçısı isə öz ərazisini Qərb-Rusiya qarşıdurması üçün açıq plasdarma çevirən Ermənistan, onun xəstə təfəkkürlü hakimiyyətidir. İki əsrdir ki, Rusiyanın çətiri altında öz mövcudluğunu qoruyub saxlayan, bütün kritik dönəmlərdə Kremlin yardımından faydalanan Ermənistan, bu gün yaxından bələd olduğu Rusiyanın ən zəif nöqtələrini Qərbə nişan verməklə, yaxşılığa necə yamanlıq etdiyini bütün dünyaya göstərir. Ermənistanın Rusiya sülhməramlılarının mövcud olduğu bir bölgəyə Qərbin yarıhərbi-yarımülki müşahidə missiyasını gətirməsi İrəvanın yeni, qlobal qarşıdurmalarda nə qədər maraqlı olduğunu göstərir. Xatırladaq ki, həla 26 yanvar 2023-cü il tarixində Rusiya XİN-i sülhməramlılarla Avropa İttifaqının müşahidə missiyası arasında mümkün qarşıdurmanın baş verə biləcəyini istisna etməmiş, sülhməramlıların mövcud vəziyyətə uyğun şəkildə addım atacağını bildirmişdir: "Onlar Avropa İttifaqı müşahidəçilərinin davranışlarına yerdəki vəziyyətin inkişafına uyğun olaraq cavab verəcəklər".

Göründüyü kimi, Ermənistan öz ikili və qeyri-stabil siyasəti ilə Rusiya ilə Qərb arasında qarşıdurmanı gücləndirməkdə, iki qütb arasındakı tarixi gərginliyə yeni nüanslar əlavə etməkdədir. Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasına yeni dövlətlərin qoşulacağı təqdirdə bu gərginliyin yeni bir mərhələyə qədəm qoyacağı istisna deyil. Bu gərginliyin bəlli olmasa da, Rusiyanın Ermənistanın xəyanətini cavabsız qoymayacağı şübhəsizdir. Rusiyanın başda süd məshulları olmaqla bir çox ərzaq məhsulunun Ermənistandan idxalına qadağa qoyması Kremlin cavab addımının ilk dalğası hesab edilə bilər. Unutmaq olmaz ki, həm iqtisadi, həm siyasi, həm də hərbi baxımdan Rusiyadan kifayət qədər asılı olan İrəvana Kremlin təzyiq riçaqları sonsuzdur. Bu təzyiq mexanizminin qismən belə hərəkətə gətirilməsi Ermənistanın fəlakətlə üzləşməsi üçün kifayətdir.

***Seymur ƏLİYEV***

# Qlobal Media Forumu başa çatdı

**Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü münasibətilə keçirilən "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" Qlobal Forumu sonuncu gündə panel müzakirələrlə davam edib.**



Forumun "Mediada investisiya və istehlak tendensiyaları" adlı sessiyasında ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media Proqramının direktoru Şəfəq Mehrəliyevanın moderatorluğu ilə yeni mediada istehlak tendensiyaları və media savadlılığı (dezinformasiya və feyk xəbərlərlə mübarizə üsulları) müzakirə olunub.



Sessiyada çıxış edən Böyük Britaniyanın PA Media Qrupunun Baş icraçı direktoru Klayv Marşal iyirmi il əvvəl qəzet satışının azaldığını bildirərək deyib: "Biz ümid edirdik ki, ovaxtkı gənclər yaşlanacaq və qəzetləri alacaqlar. Amma indi baxırıq ki, onlar bu gün o qəzetləri almırlar. Gənclər onlara maraqlı gəlməyən məsələlərdən imtina edirlər. Buna görə də onların nə istədiyini nəzərə almaq lazımdır".

Yalnız bir platformanın istifadəsinin kifayət olmadığını diqqətə çatdıran "DigiTips" şirkətinin təsisçisi və baş icraçı direktoru Matthias Lüfkens bildirib: "Biz auditoriyanı mütləq nəzərə almalı, tviter, tiktok və ddigər sosial şəbəkə hesablarının hamısında fəal olmalıyıq. Davos illik görüşündə xəbərlərlə bağlı bildirmişdim ki, yutub platformasında yerləşək. Mənə dedilər ki, xeyr, o platformanı uşaqlar izləyir. Daha sonra tiktoku təqdim etdilər ki, orada daha aktiv ola bilərik. Demək istədiyim odur ki, auditoriya nəyi necə istəyirsə, biz o istiqamətdə hərəkət etməliyik".

Müdafiə analitiki Oubai Şahbandar çıxışında vurğulayıb ki, oxucular, izləyicilər qarşısında əsas məqsədləri reallığı onlara çatdırmaqdır. Hadisə yerindən dəqiq, operativ, qərəzsiz məlumatların izləyiciyə çatdırılması əsas vəzifədir"

Qarabağa gəlməklərinin əsas səbəbinin buradakı vəziyyəti dünyaya çatdırmaq olduğunu deyən Oubai Şahbandar əlavə edib: "Hadisələri olduğu kimi görərək reallığı ictimaiyyətə çatdırmaq ən vacib məsələmizdir. Biz dünən üç il əvvəl baş verən müharibə yerlərində olduq. Həmin ərazilərdə reportaj hazırlayaraq şərhlərimizi bildirdik, gördüklərimizi ictimaiyyətə çatdırmağa çalışdıq. Dünyada bəzilərinin heç xəbəri yox idi ki, Azərbaycan, Şuşa haradır? Orada nə baş verib? Bütün bunları dünən bu ərazilərdə çəkdiyimiz videoreportaj sayəsində biz də öz növbəmizdə beynəlxalq ictimaiyyətə çatdırdıq".

Gürcüstanın İctimai Televiziyasının Baş direktoru Tinatin Berdzenişvili isə deyib: "Qürur duyuruq ki, işimizi müstəqil şəkildə qururuq. Biz görürük ki, bütün Qərb mediası daha konstruktiv olmağa, ictimaiyyət üçün həll yolları tapmağa çalışır. Çalışmalıyıq ki qərəzsiz, obyektiv olaq. İctimaiyyətin problemləri üçün həll yolları axtarıb tapmaq istiqamətində irəliləməliyik".

Yeni nəslin daha qərəzsiz mediaya ehtiyacının olduğunu söyləyən T.Berdzenişvili vurğulayıb: "Rəqəmsal dünyada bizim vəzifəmiz bu imkanları ictimaiyyətə təqdim etməkdir. Biz bilmirik ki, gələcək necə olacaq. Buna görə də çağırışlara çevik reaksiya verməliyik. Həmçinin biz, həmçinin təkcə xəbərlərə fokuslanmamalı, ictimaiyyətin istəyini də nəzərə alaraq iş görməliyik".



Sessiyada iştirakçılar, həmçinin media məhsullarının istehsalı və istehlakı ilə bağlı dəyişən trendlər, mediada investisiya məsələləri, media savadlılığının peşəkar medianın inkişafında rolu, yeni mediada dəyər zəncirinin yaradılması və biznes modellərinin inkişafı ilə bağlı fikir mübadiləsi aparıb, qonaqların suallarını cavablandırıblar.

***

Həmin gün "TRT World"un aparıcısı Reagen Des Vignesin moderatorluğu ilə keçirilən "Təhlükəsizlik məsələləri" mövzusunda sessiyada jurnalistlərin təhlükəsizliyi məsələləri müzakirə olunub.

Sessiya iştirakçıları böhran vəziyyətlərinin kommunikasiya mexanizmlərinin təkmilləşdirilməsi, münaqişə zonalarında jurnalistlərin qarşılaşdığı təhlükə və çağırışlar barədə məlumatlılığın artırılması, peşəkar "münaqişə jurnalistikası"nın inkişafı və jurnalistlərin təhlükəsizliyinin qorunması məsələləri ətrafında müzakirələr aparıblar. Bildirilib ki, dünyada baş verən müxtəlif hadisələr fonunda qərəzsiz və faktlara əsaslanan xəbərlərin yayılması, eyni zamanda, yanlış və çaşdırıcı məlumatların qarşısının alınması sağlam informasiya mühitinin yaranması üçün əsas şərtlərdəndir.

Rumıniyanın Milli İnformasiya Agentliyi – AGERPRES-in Baş direktoru Klaudia-Victoria Nikolae deyib ki, jurnalist peşə fəaliyyətini maddiyyat qarşılığında qurmamalıdır. Çünki bu sahə bu məqsədlə ediləcək iş deyil. Məqsəd odur ki, oxuculara, izləyicilərə qərəzsiz, doğru məlumatları olduğu kimi çatdırılsın.

Hədə-qorxularla bütün jurnalistlərin rastlaşdığını vurğulayan Klaudia-Victoria Nikolae əlavə edib: "Bəzən belə hallar yaşansa da, yenə də peşəyə sadiq qalmaq mütləqdir. Çünki bizim işimiz elədir ki, bu hallarla qarşılaşmaq təbiidir. Vəziyyət belə olsa da, biz ictimaiyyətə yenə də doğru xəbərləri çatdırmalıyıq".

Koreya Siyasi Elm Assosiasiyasının vitse-prezidenti professor Gi Vung Jung jurnalistlərin təhlükəsizliyini, qorunmasını ümumi məsələ adlandıraraq deyib ki, bunun üçün, ilk növbədə, cəmiyyətlərdə sağlam düşüncənin olması vacibdir. "Əgər cəmiyyət sağlam düşüncədə olarsa, həmin vaxt jurnalistlərin təhlükəsizliyi probleminin həlli istiqamətində irəliləyişə nail olmaq mümkündür", - deyən koreyalı professor Şuşa Qlobal Media Forumunun keçirilməsinə görə Azərbaycana təşəkkürünü ifadə edib.

Milli Məclisin deputatı Nigar Arpadarai çıxışında zamanımızda gördüyümüz yeni tendensiyaların özü ilə birlikdə bir çox yeniliklər gətirsə də, bəzi təhlükələrə də yol açdığını söyləyib. O qeyd edib ki, "Media haqqında" Qanunla jurnalistlərin, media təmsilçilərinin hüquqları təmin edilir. Çünki jurnalistlərə hədə-qorxu gəlib zərər yetirmək istəyənlər onlardan peşələrini buraxmalarını tələb edirlər.

Jurnalist peşəsini olduqca təhlükəli olduğunu hesab etdiyini vurğulayan deputat bildirib: "Bizim iki jurnalistimiz Kəlbəcərdə öz peşə fəaliyyətini yerinə yetirərkən minaya düşərək həlak olub. Yəni, jurnalistika bu qədər təhlükəli peşədir".

Sonra çıxış edən Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) xüsusi müxbiri Vüqar Seyidov deyib: "Hər hansı bir jurnalistin yadda saxlamalı olduğu başlıca məsələ dürüstlük, peşəsinə sadiqlikdir. Jurnalist məlumatları ictimaiyyətə qərəzsiz və doğru şəkildə çatdırmalıdır. Ümumiyyətlə, ictimaiyyət, konkret olaraq xəbər istehlakçıları qərəzsiz, doğru informasiyaları almaq istəyirlər. Bu, hər bir jurnalistin işini icra edərkən yadda saxlamalı olduğu vacib amildir".

Daha sonra sual-cavab sessiyası olub. İştirakçıların suallarını cavablandıran çıxışçılar bildiriblər ki, jurnalistlərin peşə öhdəliklərini yerinə yetirmələri və cəmiyyətə xidmət etmələri üçün media nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi son dövrlərin əsas məsələlərindəndir. Bu məqsədlə jurnalistlərin təhlükəsizliyinin qorunması ilə bağlı müxtəlif qabaqcıl və uğurlu strategiyaların araşdırılması və hazırlanması, zəruri avadanlıqlarla təmin edilmələri ciddi zərurətdir.

Bununla da Şuşa Qlobal Media Forumunun sessiyaları yekunlaşıb.

Xatırladaq ki, Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilən Şuşa Qlobal Media Forumuna 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu qatılıb. Həmçinin Forumda 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edib.

# Azərbaycan Mətbuat Şurası düşmən böhtanlarını cavablandırdı

**Azərbaycan Mətbuat Şurası Ermənistanın Şuşa Qlobal Media Forumu ilə bağlı apardığı məqsədli əks təbliğata və bu fonda ölkənin media qurumlarının "fəaliyyətinə" etiraz əlaməti olaraq bəyanat yayıb.**



Şuradan "Xalq qəzeti"nə daxil olmuş bəyanatda bildirilib ki, Şuşa Qlobal Media Forumu auditoriya genişliyi, mövzu zənginliyi ilə Azərbaycanda, Cənubi Qafqaz regionunda və bütövlükdə dünyada mühüm əhəmiyyət daşıyan hadisəyə çevrildi. İki gün ərzində nüfuzlu media, jurnalist təşkilatları rəhbərləri, ekspertlər media və informasiya-kommunikasiya sahəsinin aktual məsələlərini ətraflı müzakirə etdilər.

Təəssüf ki, böhtan və qarayaxma ənənəsinə sadiq qalan Ermənistanın Azərbaycana qarşı apardığı qaralama kampaniyası hələ tədbirin gedişində özünü göstərməyə başladı. Ölkənin 11 jurnalist təşkilatı Forumun iştirakçılarına müraciət ünvanlayaraq və yersiz həmkar sentimentallığı nümayiş etdirərək, əcnəbi media mənsublarını qınadılar, onları Şuşanı tərk etməyə çağırdılar. Müraciətdə, həmçinin, Qarabağın erməni əhalisinin, guya "blokadada" olduğuna dair iddianın irəli sürülməsi və xarici jurnalistlərdən mövzunu gündəmə gətirmək istənilməsi bu mühüm hadisəni siyasiləşdirmək və bundan mümkün dividend əldə etmək cəhdindən başqa bir şey deyildi, – deyə sənəddə vurğulanıb.

Bəyanatda erməni tərəfinin eyni motivli müraciəti beynəlxalq təşkilatlara da ünvanlamasına toxunulub. Bildirilib ki, həmin müraciətdə Foruma qarşı bəyanatın verilməsi, tədbirə qatılmış xarici jurnalistlərin fəaliyyətinin pislənilməsi kimi qəbuledilməz fikirlər irəli sürüldü. Bu azmış kimi, həmin jurnalistlərin elektron poçt ünvanlarına hədə-qorxu dolu məktublar göndərildi, onlar şantaja və sözün əsl mənasında terrora məruz qaldılar. Bəzi iştirakçılar hətta öz sosial şəbəkə hesablarını müvəqqəti qapatmaq məcburiyyətində qaldılar.

Şura hesab edir ki, beynəlxalq ictimai rəyi çaşdırmağa yönəlmiş, xarici media mənsublarını təhdid edən bu kimi hallar tam yolverilməzdir və məsələyə sərt reaksiyanın göstərilməsi mütləqdir. Qurum beynəlxalq ictimaiyyəti, habelə dünyanın aparıcı jurnalist təşkilatlarını mövcud istiqamətdə həmrəylik nümayişinə, müvafiq tədbirlər görməyə çağırır: "Ermənistanın, ermənipərəst dairələrin bu sayaq spekulyativ addımları heç bir nəticə verməyəcək. Mətbuat Şurası əmindir ki, Şuşa Qlobal Media Forumu davamlı xarakter almaqla, dünyada media sahəsindəki problemlərin dərin müzakirə olunacağı mötəbər platformaya çevrilməkdədir".

## Günün sualı

# "Erməni şəbəkəsi" Şuşa Forumunu niyə gözdən salmaq istəyir?

## *Qarayaxmalara baxmayaraq Azərbaycan öz hədəfinə yetişdi*

**İyulun 21-də başlayan Şuşa Qlobal Media Forumu iyulun 23-də bitsə də, "erməni şəbəkəsi"nin bu tədbirə qarşı qarayaxma kampaniyası davam etdirilir, hətta daha da gücləndirilir.**



Əks kampaniya ilk günlərdə yalnız Ermənistan KİV-ləri üzərindən yürüdülürdüsə, indi prosesə şəbəkənin təsirində olan "beynəlxalq təşkilatlar" da qatılıblar. Dünəndən "Sərhədsiz reportyorlar" təşkilatı da hərəkətə keçib. Ölkəmizə münasibətdə bu bədnam və qərəzkar qurum Forumu gözdən salmaq üçün bütün gücünü ortaya qoyub. Şuşa Forumu "erməni şəbəkəsini" nə üçün bu qədər qəzəbləndirib? Onlar nə üçün həyəcanlanıblar və indiki kampaniya ilə nəyə nail olmaq istəyirlər?

**Mətbuat Şurası İdarə Heyətinin üzvü, media eksperti Müşfiq Ələsgərli ilə müsahibəmizdə bu və digər suallara aydınlıq gətirdik.**

**– Siz Şuşa Qlobal Media Forumunda iştirak etmisiniz, sizin əməkdaşlıq etdiyiniz beynəlxalq təşkilatların təmsilçiləri də Foruma qatılmışdılar. Öncə, Şuşa Qlobal Media Forumunun mahiyyətinə aydınlıq gətirək. Forumu keçirməkdə məqsəd nə idi və Forum öz hədəflərinə çatdımı?**

– Şuşa Qlobal Media Forumunun əsas hədəfi müasir media trendlərinin müzakirə edilməsi idi. Beynəlxalq media məclisi bu kontekstdə öz məqsədinə çatdı. Rəqəmsal transformasiya mühitinin ortaya çıxardığı bütün çağırışlar Forum çərçivəsində müzakirə edildi. Azərbaycanın məşhur media təşkilatlarının, o cümlədən, Medianın İnkişaf Agentliyinin, Mətbuat Şurasının, Audiovizual Şuranın, 60-a yaxın milli KİV subyektinin, həmçinin, 150 xarici KİV qurumunun, 12 beynəlxalq təşkilatın, tanınmış media ekspertlərinin iştirakı ilə baş tutan müzakirələr qeyd edilən istiqamətlər üzrə uğurlu nəticələr verdi. Problemlərin həlli üçün təkliflər səsləndirildi, yeni dövrün hərəkət istiqamətləri müəyyənləşdirildi.

Prezident İlham Əliyevin Forumda çıxış etməsi, xarici və yerli jurnalistlərin suallarını cavablandırması tədbirə əlavə çalar qatdı. Prezidentin səmimi davranışı, arqumentli fikirləri, yeni informasiyalarla zəngin nitqi həm yerli, həm də xarici jurnalistlərdə məmnunluq yaratdı. Tədbirin davam etdiyi günlərdə müvafiq dövlət qurumlarının təmsilçilərinin, o cümlədən, Prezidentin köməkçisi Hikmət Hacıyevin orada iştirak etməsi, jurnalistlərlə canlı təmas yaratması, istənilən növ sualları cavablandırması tədbirin effektini artırdı.

Beynəlxalq təşkilatların təmsilçilərinə şərait yaradıldı ki, onları maraqlandıran bütün suallara cavab tapsınlar. Birmənalı şəkildə demək olar ki, Şuşa Forumu dünya media məkanına töhfələr verdi.

Bununla yanaşı, Forumun birbaşa məqsədləri ilə yanaşı, digər hədəfləri də var idi. Fikrimcə, həmin hədəflərə də nail olundu.

**– Forum Milli Mətbuat və Jurnalistika Günü münasibətilə keçirilən Zəfər zirvəsində keçirilən nüfuzlu və təntənəli media bayramı, irimiqyaslı təbliğat tribunası kimi də yadda qaldı.**

– Təbii ki, tədbirin uğurlu şəkildə təşkil edilməsi ölkəmizin imicinə müsbət xal gətirdi. Foruma qatılmış xarici jurnalistlərin yazdıqları məqalələr, sosial media hesabları üzərindən paylaşdıqları postlar 3 gün ərzində Azərbaycanın adını dünyanın xəbər gündəmində saxladı. Yazılan məqalələrdə, paylaşılan postlarda media müzakirələri ilə yanaşı, Azərbaycan–Ermənistan müharibəsinə, Ermənistan tərəfinin Qarabağda törətdiyi vandalizm aktlarına da yer verildi.

Xarici jurnalistlər Şuşaya səfər zamanı yol üzərində gördükləri dağıntıları qeydə alaraq paylaşırdılar. Ermənistanın işğal dövründə törətdiyi dağıntılarla, Azərbaycanın son 3 ildə bu bölgədə apardığı quruculuq işlərini müqayisə etdilər.

**– İndi isə Ermənistan mediasının və "erməni şəbəkəsinin" son günlərdə apardığı çirkli kampaniyaya aydınlıq gətirək. Düşmənçiliyi bütün üsullarla davam etdirən məğlubların məqsədləri nədir? Niyə bu qədər narahat olublar? Nə etmək istəyirlər?**

– Əslində, "erməni şəbəkəsi"nin narahatlığı son günlərdə deyil, daha öncədən, Forumun 1-ci günündən başlayıb. Şuşa Qlobal Media Forumunun açılış mərasimindən dərhal sonra bəlli oldu ki, Ermənistan tərəfi Forumun işini pozmaq üçün hərəkətə başlayıb. Ermənistanın 11 jurnalist təşkilatı vahid bəyanat imzalayaraq, Şuşa Qlobal Media Forumunun iştirakçılarına müraciət etdilər. Onlar xarici jurnalistlərin Foruma qatılmasını pislədilər, xarici jurnalistləri "reallıqları" dilə gətirməməkdə qınadılar. Guya, "həmkar" kimi imzaladıqları müraciətlərində çağırış edirdilər ki, xarici jurnalistlər Forumda iştiraklarını dayandırıb Şuşanı tərk etsinlər. Yaxud, tədbirdə söz alaraq, "Artsaxın blokadası" mövzusunu gündəmə gətirsinlər.

Erməni tərəfi eyni motivli müraciəti beynəlxalq təşkilatlara da ünvanlayıb. Foruma qarşı bəyanat verməyə, tədbirə qatılmış xarici jurnalistlərin fəaliyyətini pisləməyə çağırırdılar. Bir gün sonra isə bəlli oldu ki, ermənilər Foruma qatılmış xarici jurnalistlərin elektron poçt ünvanlarına hədə dolu məktublar göndəriblər. Şantaj motivli mesajlar yazaraq, Forumu tərk etmək məcburiyyəti yaratmaq istəyiblər.

Bütün bunlar uğursuz olunca, "erməni şəbəkəsi" fərqli bir vasitədən istifadə edib. Forumda iştirak edən beynəlxalq təşkilatların təmsilçiləri adından yalançı açıqlamalar yaydılar. Məsələn, Ermənistanın məşhur KİV-lərindən olan "news.am" xəbər portal yazıb ki, guya Forumda iştirak edən Beynəlxalq Jurnalistlər Federasiyasının baş katibi Antoni Ballenger "Artsaxın" blokadasının aradan qaldırılmasına çağırış edib. "Azərbaycan hökumətindən tələb edib ki, jurnalistlərin "Artsaxa" səfərinə mane olmasın" ( https://news.am/rus/news/771981.html ).

Tamamilə yanlış, dezinformasiya xarakterli məqalədir. Ermənilər BJF baş katibinin sosial şəbəkə hesabında paylaşdığı postunu kontekstdən çıxaraq şərh ediblər. Antoni Ballengerin açıqlaması onun sosial hesablarında qalır. O, "Artsax" sözünü ümumiyyətlə işlətməyib. Əksinə, öz postunda qeyd edib ki, "Qarabağ beynəlxalq aləm tərəfindən tanınmış Azərbaycan torpağıdır". Və bu məqamdan çıxış edərək təklif verib ki, Azərbaycan dövləti jurnalistlərin bu regiona sərbəst gediş-gəlişini təşkil etsin.

Belə baxanda, Ballengerin çağırışı normal bir çağırışdır. Azərbaycan media ictimaiyyəti olaraq biz də hesab edirik ki, jurnalistlərin bu regiona ayaq açmaları reinteqrasiya prosesinə töhfə verər. Amma Xankəndidə mövcud olan terrorçu qruplaşma bu cür xoş niyyətli proseslərin reallaşmasını əngəlləyir. Hətta BJF baş katibi Forum zamanı çıxışında təklif etdi ki, Azərbaycan jurnalistləri ilə Ermənistan jurnalistlərinin dialoqunun başlanmasında vasitəçilik edə bilər.

Erməni mediası isə bu fikri tamamilə baş-ayaq təqdim edərək, öz mövqelərinə uyğunlaşdırmağa çalışıb. Bu gündən başlayaraq "Sərhədsiz Reportyorlar" təşkilatı hərəkətə keçib, Forumu gözdən salmaq üçün bütün gücünü ortaya qoyub. Burada da təəccüblü bir şey yoxdur. Çünki hamımız bilirik ki, "Sərhədsiz Reportyorlar" Parisdə mənzillənir. Fransa hökumətinin və erməni diasporunun təsiri altındadır. Bu baxımdan onun Şuşa Forumuna qarşı çıxması anlaşılandır.

Bütün bunlarda məqsəd Şuşa Qlobal Media Forumunun işini pozmaq, Qarabağda Ermənistan tərəfindən törədilmiş vandalizm aktlarının dünyaya çatdırılmasının qarşısını almaq idi. Amma baş tutmadı. Forum möhtəşəm şəkildə təşkil edildi, uğurla nəticələndi. Azərbaycan tərəfi qarşıya qoyulan bütün hədəflərə çatdı.

**– Obyektiv açıqlama üçün sağ olun.**

**Söhbəti hazırladı:**
**Tahir AYDINOĞLU,**
**"Xalq qəzeti"**

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

# V.Ə.Quliyevin "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Öz həyatı təhlükə altında olduğu halda insan həyatını xilas etdiyinə görə polis baş serjantı Vüsal Əbülfəz oğlu Quliyev "İgidliyə görə" medalı ilə təltif edilsin (ölümündən sonra).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2023-cü il**

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin əsasnaməsi

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik) elm, ali və orta ixtisas təhsili sahələrində (bundan sonra – müvafiq sahə) dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, elmi müəssisə və təşkilatların, ali və orta ixtisas təhsili müəssisələrinin (bundan sonra – elm və təhsil müəssisələri) fəaliyyətini tənzimləyən, əlaqələndirən və onların fəaliyyətinə dövlət nəzarətini həyata keçirən, Nazirliyin strukturuna daxil olan qurumdur.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə normativ hüquqi bazanın formalaşdırılmasında iştirak etmək;

2.1.4. elm və təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və əlaqələndirilməsi üçün tədbirlər görmək;

2.1.5. elmi fəaliyyətlə tədris prosesinin inteqrasiyasının təmin edilməsi məqsədilə tədbirlər görmək;

2.1.6. elm və təhsil müəssisələrində nəticəyönlü, şəffaf və səmərəli idarəetmə modelini formalaşdırmaq və bu prosesdə müasir idarəetmə texnologiyalarından istifadəni təmin etmək;

2.1.7. əmək bazarının tələblərinə uyğun olaraq ixtisaslı kadr hazırlığına dair tələbatın müəyyən edilməsi üçün tədbirlər görmək;

2.1.8. müvafiq sahədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak etmək.

**3. Agentliyin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların hazırlanmasında iştirak etmək, onlara dair rəy vermək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların layihələrinin hazırlanmasında iştirak etmək və onların həyata keçirilməsini təmin etmək;

3.1.3. elm və təhsil müəssisələri ilə xarici elm və təhsil müəssisələri arasında təhsilalanların və təhsilverənlərin mübadiləsi proqramlarını əlaqələndirmək;

3.1.4. ali və orta ixtisas təhsili müəssisələrində beynəlxalq standartlara cavab verən təhsil şəraiti və mühitinin yaradılması üçün tədbirlər görmək;

3.1.5. ali və orta ixtisas təhsilinin keyfiyyətinin artırılması, elmi-metodiki təminatının gücləndirilməsi və təhsilin əhatə dairəsinin genişləndirilməsi məqsədilə müxtəlif istiqamətli layihələri həyata keçirmək;

3.1.6. ali və orta ixtisas təhsili müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarət etmək;

3.1.7. elm və təhsil müəssisələrinə elmi-metodiki və tədris-metodiki rəhbərliyi həyata keçirmək;

3.1.8. hər tədris ili üçün orta ixtisas və ali təhsil müəssisələrinə müvafiq ixtisaslar üzrə tələbə qəbulu barədə təklifləri Nazirliyə təqdim etmək;

3.1.9. doktoranturaya illik qəbul və dissertantların təhkimolunma planlarına, habelə doktoranturaların (adyunkturaların) yaradılmasına dair vəsatətlə bağlı təklifləri Nazirliyə təqdim etmək;

3.1.10. ali təhsil müəssisələrində magistraturaların yaradılması ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

3.1.11. ali və orta ixtisas təhsili müəssisələrində sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində müvafiq şərait yaradılmasının təşkilinə nəzarət etmək;

3.1.12. müxtəlifsəviyyəli və müxtəlifmiqyaslı müsabiqələr və yarışlar keçirmək;

3.1.13. xüsusi istedada malik təhsilalanların müəyyənləşdirilməsi və təhsillərinin davam etdirilməsinin stimullaşdırılması üçün tədbirlər görmək, onlar üçün məqsədli və adlı təqaüdlər təsis edilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

3.1.14. tədris dilini zəif bilən təhsilalanlar üçün təhsil proqramlarına uyğun hazırlıq kurslarının təşkil edilməsi üçün tədbirlər görmək;

3.1.15. tabeliyində ali təhsil müəssisələri olan dövlət orqanlarının (qurumlarının) və özəl ali təhsil müəssisələrinin təklifləri əsasında bakalavriat səviyyəsində hazırlıq qrupları təşkil olunan ali təhsil müəssisələrinin və ixtisasların müəyyən edilməsi üçün Nazirliyə təkliflər vermək;

3.1.16. ali və orta ixtisas təhsili müəssisələrində pedaqoji işçilərin dərs yükü normalarına riayət olunmasına nəzarət etmək;

3.1.17. ali və orta ixtisas təhsili müəssisələrində təhsilalanların təhsil müəssisəsinin, ixtisasının, təhsilalma formasının dəyişdirilməsinin və təhsil müəssisəsinə bərpa olunmasının həyata keçirilməsini təmin etmək;

3.1.18. ali təhsil müəssisələri tərəfindən elmi tədqiqat və elmi-metodiki işlərin təşkili qaydalarına və professor-müəllim heyətinin tədris işi vaxt normasına riayət olunmasına nəzarət etmək;

3.1.19. ali və orta ixtisas təhsili müəssisələrində yeni təhsil proqramlarının (ixtisasların) açılmasına dair Nazirliyə təkliflər vermək;

3.1.20. təhsilin bir pilləsindən və ya səviyyəsindən digərinə keçid zamanı təhsil proqramının (ixtisasın) uyğunluğuna nəzarət etmək;

3.1.21. ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçməsinin müəyyən edilmiş qaydaya uyğun təşkilinə nəzarət etmək;

3.1.22. ali, orta ixtisas və əlavə təhsil müəssisələrinin (dövlət təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinə lisenziya verilməsi ilə əlaqədar rəy verilməsində iştirak etmək;

3.1.23. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin təklifi əsasında onların tabeliyində yaradılması nəzərdə tutulan orta ixtisas təhsili müəssisələrinin nizamnamələrinə dair Nazirliyə rəy vermək;

3.1.24. elmi fəaliyyət subyektlərinin elmi istinadlı informasiya resurslarına çıxışının təmin edilməsi üçün tədbirlər görmək;

3.1.25. elm və təhsil fəaliyyətinin səmərəli təşkili, idarə edilməsi və inkişafı, habelə maddi-texniki bazasının möhkəmləndirilməsi, infrastruktur, avadanlıq, yüksəkixtisaslı elmi kadrlar, informasiya və digər zəruri vasitələrlə təmin olunması üçün tədbirlər görmək;

3.1.26. elm, ali və orta ixtisas təhsili sahəsində planlaşdırmanı, proqnozlaşdırmanı, əlaqələndirməni və qiymətləndirməni (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) həyata keçirmək;

3.1.27. dövlət təhsil müəssisələrinin tədris, elmi, elmi-metodik, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər texniki vasitələrlə təminatını həyata keçirmək;

3.1.28. dövlət elmi müəssisə və təşkilatlarının, təhsil müəssisələrinin işçilərinin əməyinin stimullaşdırılmasına, o cümlədən mükafatlandırılmasına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.29. tabeliyində olan elm və təhsil müəssislərində elmi fəaliyyətin təşkilində və təlim-tərbiyə prosesində müasir təhsil texnologiyalarının və innovasiyaların tətbiqi üçün tədbirlər görmək;

3.1.30. tabeliyində olan təhsil müəssislərində çalışan təhsilverənlərin əlavə təhsilinin təmin edilməsi üçün müvafiq tədbirləri həyata keçirmək;

3.1.31. tabeliyində olan elm və təhsil müəssisələri üzrə tələb olunan dövlət büdcəsi vəsaitinə dair proqnozları hazırlayaraq Nazirliyə təqdim etmək və ayrılmış vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək;

3.1.32. elm və ali təhsil müəssisələrində aparılan elmi araşdırmaları əlaqələndirmək, elmi tədqiqat işlərini dəstəkləmək və mükafatlandırmaq;

3.1.33. müasir təfəkkürlü və yaradıcı gənclərin erkən vaxtlardan elmi araşdırmalara cəlb olunmasını təşviq etmək;

3.1.34. elmi kadr tələbatının müəyyən edilməsinə və həmin tələbata uyğun olaraq dövlət sifarişi əsasında elmi və elmi-pedaqoji kadrlar hazırlanmasına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.35. elm və təhsil sahəsində əlverişli investisiya mühitinin yaradılması üçün təklifləri Nazirliyə təqdim etmək;

3.1.36. tabeliyində olan elm və təhsil müəssisələrinin istehsalat bazalarının, texnoparklarının, laboratoriyalarının müasirləşdirilməsi və inkişafı üçün tədbirlər görmək;

3.1.37. ali və orta ixtisas təhsili müəssisələri üçün universitet şəhərciklərinin (kampusların), tələbə yataqxanalarının yaradılmasını təşviq etmək;

3.1.38. elmi tədqiqat, texniki konstruktor işlərinin kommersiyalaşdırılmasına, bu məqsədlə həyata keçirilən tədqiqatların maliyyələşdirilməsinə kömək göstərmək, tədqiqat nəticələrinin məhsula çevrilməsinə yardım etmək;

3.1.39. elm və təhsil müəssisələrində aparılan elmi tədqiqatların müasir standartlar səviyyəsinə çatdırılmasına, elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinə kömək göstərmək, elmin informasiya təminatının gücləndirilməsi, beynəlxalq elmi əlaqələrin dərinləşdirilməsi sahəsində tədbirləri təşviq etmək;

3.1.40. hüquqi və fiziki şəxslərin iştirakı ilə tədris-istehsalat sahələrinin qurulmasına şərait yaratmaq;

3.1.41. ali təhsil müəssisələrinin təhsil tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsinə dəstək vermək;

3.1.42. elm və ali təhsil sahələrində qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və ümumiləşdirmək;

3.1.43. Azərbaycan Respublikası vətəndaşlarının yüksəkreytinqli xarici ali təhsil müəssisələrində və elm-təhsil mərkəzlərində təhsilinin təşkili və elmi fəaliyyəti üçün tədbirlər görmək;

3.1.44. elm və ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi istiqamətində tədbirlər görmək;

3.1.45. ali təhsil müəssisələrində ölkənin inkişaf prioritetlərinə uyğun ixtisas proqramları üzrə nüfuzlu xarici ali təhsil müəssisələri ilə birlikdə beynəlxalq ikili diplom proqramlarının əhatə dairəsinin genişləndirilməsini təmin etmək;

3.1.46. ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin tətbiqi üçün tədbirlər görmək;

3.1.47. dövlət orta ixtisas təhsili müəssisələrində pedaqoji şuraların, dövlət ali təhsil müəssisələrində elmi şuraların təsdiq edilmiş əsasnaməyə uyğun təşkilinə və fəaliyyətinə nəzarət etmək;

3.1.48. ali və orta ixtisas təhsili müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı tədbirlər görmək, tələbələrin idman yarışlarında, turist yürüşlərində iştirakına, onların texniki və bədii yaradıcılığına, digər tədbirlərə dəstək vermək;

3.1.49. müvafiq sahədə statistik məlumatları və hesabatları toplamaq, təhlil etmək və nəticələrini müvafiq orqanlara təqdim etmək;

3.1.50. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.51. ali və orta ixtisas təhsili müəssisələrinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndən istifadəsini təmin etmək;

3.1.52. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.53. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.54. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.55. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.56. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.57. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.58. Agentliyin fəaliyyətinin nəticələri barədə Nazirliyə hesabat təqdim etmək;

3.1.59. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normativ hüquqi aktın qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh olunması, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında təklifləri Nazirliyə təqdim etmək;

4.1.2. elmi müəssisə və təşkilatlardan, təhsil müəssisələrindən fəaliyyət istiqamətlərinə uyğun olaraq hesabat və məlumatlar almaq;

4.1.3. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.4. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, tədqiqatlar və araşdırmalar aparmaq, monitorinqlər keçirmək, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək, bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait dairəsində elmi tədqiqat işlərinin aparılmasını təmin etmək;

4.1.5. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.6. fəaliyyət istiqamətinə uyğun olaraq, elm və təhsil müəssisələrinin işçilərinin həvəsləndirilməsini və mükafatlandırılmasını həyata keçirmək, onlara dövlət təltiflərinin və fəxri adların verilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

4.1.7. dövlət elmi müəssisə və təşkilatlarının, təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə təklifləri Nazirliyə təqdim etmək;

4.1.8. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.9. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək;

4.1.10. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentlik öz fəaliyyətini Aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.) vasitəsilə həyata keçirir.

5.2. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Agentliyin direktoru Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Agentlik direktorunun Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır.

5.4. Agentlik direktorunun müavinləri vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

5.5. Agentliyin direktoru:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Agentliyi təmsil edir;

5.5.3. müəyyən edilmiş əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin strukturunu, ştat cədvəlini, gəlir və xərclər smetasını təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.4. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində, Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bu Əsasnamənin 5.5.5-ci yarımbəndi nəzərə alınmaqla) strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirlər daxilində onların gəlir və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

5.5.5. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində tabeliyində olan publik hüquqi şəxslərin (Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) ştat cədvəlinin, əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin və ayrılmış büdcə təxsisatı çərçivəsində gəlir və xərclər smetasının təsdiq edilməsinə razılıq verir;

5.5.6. strukturuna daxil olan qurumların əsasnamələrini, habelə tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.7. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.8. Agentlik direktorunun müavinləri istisna olmaqla, Agentliyin digər işçilərini və Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərinin müavinlərini, eləcə də Nazirliklə razılaşdırmaqla, Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür, əlavə təhsili üçün müvafiq tədbirlər görür;

5.5.9. strukturuna daxil olmayan tabeliyindəki orta ixtisas təhsili müəssisələrinin filial və nümayəndəliklərinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.10. Agentlik direktorunun müavinləri istisna olmaqla, Agentliyin digər dövlət qulluqçularına qanunla müəyyən edilmiş qaydada dövlət qulluğunun ixtisas dərəcələrini verir;

5.5.11. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir, Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.12. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim edir;

5.5.13. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.5.14. Agentliyin fəaliyyəti barədə Nazirliyə hesabat verir;

5.5.15. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Agentliyin işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.16. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin xərclənməsinə dair hesabatları rübdə bir dəfə Nazirliyə təqdim edir;

5.5.17. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi, habelə elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi tədqiqat fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi məqsədilə ictimai əsaslarla fəaliyyət göstərən şuraların yaradılması barədə Nazirliyə təkliflər verir.

# Kim kimi bloklayır, Paşinyan?

## Hayların “blokada”, “humanitar böhran”, “acından ölənlər”şoularının heç bir faydası olmayacaq

(əvvəli 1-ci səhifədə)

### Səhvi etiraf etmək azdır...

Agentliyə müsahibəsində Paşinyanın jurnalistin Ermənistanın Ukrayna müharibəsi fonunda Rusiya ilə Qərb arasında balansı necə saxladığı ilə bağlı sualına cavabı diqqəti çəkir: “İrəvanın illər uzun yürütdüyü komplimentar xarici siyasəti yanlış idi. Ermənistan üçün bu xarici siyasəti tamamilə səhv sayıram. Əslində, bu yanlış siyasətin tarixi uzağa – 30 ilə deyil, 100 ildən də o tərəfə gedib çıxır. Reallıq odur ki, Ermənistan Rusiya ilə Qərb arasında deyil, 4 qonşusu – Gürcüstan, Türkiyə, İran və Azərbaycan arasında yaşayır. Yəni, biz bu qonşularımız arasında təhlükəsiz həyatımızı təmin etməliyik”.

İlk baxışda sağlam məntiqə söykənən bu fikirlərinin ardınca Paşinyan sonrakı açıqlamalarında özünü təkzib edir. O, haqlı olaraq qonşuları ilə normal münasibətlərin Ermənistanın təhlükəsiz yaşaması üçün əsas şərt olduğunu etiraf edir, digər tərəfdən isə nə hərb, nə sülh vəziyyətində olduğu ən yaxın qonşusu – Azərbaycanla məsələlərin həllini qəsdən gecikdirir. Paşinyan müsahibəsində keçən əsrin əvvəllərində baş vermiş və ermənilərin “soyqırımı” kimi qələmə verdiyi olayların Rusiya imperiyasının əlində alət olması və bu imperiyanın süqutundan sonra Türkiyə ilə üz-üzə qalması ilə əlaqələndirib. Bununla hay baş nazir dolayısı ilə həm də onu demək istəyir ki, Osmanlı dövlətində yaşayan ermənilər çörəyini yedikləri Türkiyəyə xəyanət edərək Rusiya imperiyasının oyununa “düşüblər” və nəticədə məğlubiyyətə uğrayıblar. Onun sözlərinə görə, ermənilərin radikal (daşnak-red.) kəsimi bu gün də Moskvanın qurduğu oyunda iştirak etdiklərindən onlar üçün nəticə heç də fərqli olmayacaq.

### Taxılı dəyirmana daşıya bilmirlər?

Nikol Paşinyan “Frans Press” agentliyinə müsahibəsində danışıqlar prosesi, Laçın dəhlizinin Azərbaycan tərəfindən “qeyri-qanuni şəkildə bağlanması”, Qarabağdakı ermənilərin “blokadaya” alınması və beynəlxalq mexanizmlər çərçivəsində “Stepanakert (Xankəndi) – Bakı dialoqu”nun zəruriliyindən danışıb: “Mənim fikrimcə, danışıqların irəliləməsinə əsas maneə Azərbaycan rəhbərliyinin davamlı təcavüzkar ritorikası, nifrət dolu ifadələri, bütün ermənilərə qarşı nifrət aktları və əlbəttə ki, ermənilərdən Dağlıq Qarabağ xalqından qisas, aydın görünən etnik təmizləmə siyasətidir”.

İki ölkə arasında sülhün əldə olunmamasında əsas günahı Bakının üzərinə yıxmağa cəhdlər edən Paşinyan Dağlıq Qarabağ sakinlərinin gündəlik tələbat mallarından məhrum edildikləri kimi ağ yalanı beynəlxalq mediaya üfürməkdən belə çəkinmir: Bu gün Dağlıq Qarabağda bitki yağı, şəkər, müxtəlif ərzaq məhsulları, gigiyenik vasitələr yoxdur. Sözsüz ki, Dağlıq Qarabağ sakinləri zəhmətsevər insanlardır və burada müəyyən miqdarda kənd təsərrüfatı, ərzaq məhsulları istehsal olunur. İntəhası, yanacaq olmadığından həmin məhsulu potensial istehlakçıya çatdırmaq praktiki olaraq mümkün deyil. Onların zəruri taxıl ehtiyatları var, amma yanacaq olmadığından məhsulu dəyirmana çatdıra bilmirlər. Əgər kimsə bunu edə bilirsə, bu zaman unu çörək zavodlarına daşıya bilmir. Çörək zavoduna unu çatdıran isə yanacaq və elekrtik enerjisi qıtlığından çörəyin bişirilməsi mümkün olmur. Yox, kimsə bir yolla çörəyi bişirirsə, bu halda onu mağazaya çatdırmaqda çətinlik çəkir. Mağazada çatdırılan çörəyi gəlib almaq istəyən sakinlər nəqliyyat problemi yaşayırlar. Fəqət birtəhər mağazaya çatanların da əksəriyyətinin işsiz olduğundan çörək almağa zəruri maliyə vəsaiti yoxdur”.

Yəni, Paşinyan demək istəyir ki, hər şeydən məhrum olmuş, hər yerdən əlləri üzülmüş “zavallı” Qarabağ ermənilərini bu hala salan Bakıdır. Onun bu yalan və məsuliyyətsiz



çıxışının cavabını isə Azərbaycan Prezidenti İlham Əliyev Şuşadan verdi: “Qarabağda hakimiyyəti ələ keçirmiş xunta və özlərini gah “prezident”, gah “nazir”, gah da “deputat” adlandıranlar artıq hər kəsdə gülüş doğurur. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidə yaşayanları girov götürüblər... İnteqrasiya məsələsi Qarabağın erməni sakinlərinin bax bu yanlışlardan, onları girov götürən, qul kimi istismar edən bu xuntadan nə vaxt qurtula biləcəyindən asılıdır”.

Bu qədər aydın və konkret cavabdan sonra dövlət başçımız “Qarabağdakı erməni azlığın hüquqlarına və təhlükəsizliyinə əməl etməklə Konstitusiyamız çərçivəsində və Azərbaycanda bu məsələlərin necə həll edilməsi üzrə xeyirxah təcrübə çərçivəsində yenidən inteqrasiya yolu ilə irəliləməyə hazırıq” – dedi.

Bəli, bununla da cənab Prezident Xankəndidə mərkəzi hakimiyyətin bərpa edilməsinə, erməni əhalisinin reinteqrasiyasının həyata keçirilməsinə qədər prosesin davam edəcəyi ilə bağlı son nöqtəni qoydu.

### “Pessimizm bizim siyasətimizi dəyişmir”

Danışıqlar prosesinin gedişində İrəvan üçün “qırmızı xət”dən danışan Paşinyan burada “Dağlıq Qarabağ xalqı”nın (?) hüquq və təhlkəsizliyini önə çəkir, Bakı – Stepanakert (Xankəndi -red.) dialoqunun vacibliyindən, İrəvanın dəyişməyən siyasi kursundan dəm vurur: “Doğrudur, Ermənistanda pessimizm var və bu hiss Dağlıq Qarabağda (?) hər gün güclənməkdədir. Amma bu, heç cür bizim siyasi kursumuzu dəyişə bilməz. Biz əminik ki, danışıqlar problemin həllinin yeganə üsuludur. Fəqət, digər tərəfdən, əgər məsələlər sülh yolu ilə həllini tapmırsa, onda bu proses ictimaiyyət tərəfindən boş vaxt itkisi, yaxud mediada “nəsə iş görülür” imitasiyası kimi qəbul ediləcək. Bütün bunlar isə sülh prosesinə birbaşa və ya dolayısı ilə təsir edən risklərdir”.

Müxbirin “Müharibə təkrarlana bilərmi?” – sualına məğlub ölkənin baş naziri “nə qədər ki, sülh sazişi imzalanmayıb, həmin müqaviləni iki ölkənin parlamenti paraflamayıb, müharibə ehtimalı, əlbəttə, qalmaqdadır” şəklində cavab verib. Paşinyana görə, Ermənistanın xarici siyasətinin çoxillik paradiqması Qərb və Rusiya arasında komplementarizm olub. Komplementarizmin Ermənistan üçün fəlakətli yanlışlıq olduğunu düşünən baş nazir bu səhvin heç də yeni olmadığı qənaətindədir.

“Frans-Press”ə müsahibəsində, həmçinin KTMT-nın bölgəyə hərbi müdaxiləsi variantına, Rusiyaya qarşı Qərbin sanksiya siyasətində Ermənistanın tutduğu mövqeyə də toxunan Paşinyan sonda yenidən Xənkəndidəki separatçı rejimin danışıqlarda tərəf kimi tanınmasını, Dağlıq Qarabağ ermənilərini “fəlakətdən qurtarmaq üçün beynəlxalq qüvvələri prosesə cəlb etməyin vacibliyini nəzərə çatdırmağı” da “unutmayıb”.

### Düşmən marıqdadır, ayıq olmalıyıq

Azərbaycan Prezident İlham Əliyevin Şuşada Qlobal Media Forumunda çıxışı zamanı səsləndirdiyi fikirlər ölkəmizin suverenliyinə təhdid yaradan separatçılara və onlara “züy tutanlara” tutarlı cavab sayılmalıdır:

“Siz “nə üçün ərzaq məhsulları başqa ölkədən gətirilməlidir? Axı “Qarabağ Azərbaycandır” - dediniz. Elədirmi? Bunu hamı təsdiq edir? Hamı təsdiq edir. Kimsə bunun belə olmadığını deyirmi? Yox! Onda niyə yüklər başqa ölkədən gətirilməlidir? Bu, məntiqə sığmır. Amma bu jesti qəbul etmək əvəzinə, orada beton bloklar qoyulur. Kim kimi bloklayır? Bütün məsələ bundadır. Çadırlarda oturub kiməsə etiraz edilməsi komediya şousudur. Bu, sadəcə, lətifədir. Özünü “prezidentlər” adlandıran şəxslərin etiraz etməsi, oturaq tətil bizdə bəzi jurnalistlər tərəfindən zarafat mövzusu olub. Yəqin ki, növbəti mərhələdə “uzanan” tətil olacaq. Sonra nə bilim, hansı olacaq, lakin bu, məsələyə kömək etməyəcək”.

Dövlət başçımız ermənilərə ünvanladığı bu sözlərlə xalqa bir növ “yol xəritəsi”ni təqdim edərək deyib: “Biz ayıq olmalıyıq və keçmişimizi unutmamalıyıq. Unutmamalıyıq ki, qonşularımız tərəfindən kürəyimizə bıçaq sancıldı və o zaman Azərbaycandakı xaosdan istifadə edərək ərazilərimizi işğal etdi. Biz unutmamalıyıq ki, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayırlar. Ona görə biz istənilən ssenariyə hazır olmalıyıq”.

Şərti sərhədin o tərəfindəki yolda beton sədd qurmaqla kimdən qorunduğunu nümayiş etdirməyi hədəfləyən hayların bütün təxribatlarının, bölgədə və beynəlxalq müstəvilərdə göstərdiyi cəhdlərinin fiaskoya uğrayacağı şəksizdir. Belə lüzumsuz vurnuxmalarla danışıqlarda vaxt uddüğunu düşünən Hayastanın baş naziri bununla öz sonunu yaxınlaşdırdığının fərqində olmalıdır.

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Paşinyan azı il yarımdır həmin iddiaları səsləndirir. İddia və istəklə məsələlər öz həllini tapmır. Azərbaycan Qarabağ erməniləri ilə danışıqlar aparmır, onlar bizim tərəf-müqabilimiz deyil. Sadəcə olaraq, onlara dialoq çağırışı edilib, buyursunlar gəlsinlər Bakıya, burada onlarla danışacağıq. Əgər Bakı onlara uzaq və təhlükəli görünürsə, yaxınlıqda Ağdam, Şuşa var. Təhlükəsizliklərinə bütün təminatlar verilməsi şərtilə. Laçın yolunun açılması, oradan humanitar yüklərin daşınması üçün istifadə məsələsi də müzakirə olunacaq. Amma onlara Azərbaycanın həm qaz, həm də elektrik enerjisi şəbəkəsinə qoşulmaq təklifi edilib. Ən mühüm məsələ isə Ermənistandan soydaşlarımızın hamısı qovulduğu halda, rəsmi Bakı Qarabağ ermənilərinə vətəndaşlıq təklif edir.

Bu səbəbdən onların beynəlxalq platforma dedikləri ağılsız istəklərinə Azərbaycan heç reaksiya vermir. Əslində, burada məqsəd hansısa danışıq platforması qazanmaq deyil. Paşinyanın məqsədi ondan ibarətdir ki, beynəlxalq müstəvidə sülh danışıqları başlayanda Qarabağ ermənilərinin tərəf-müqabil, öz müqəddaratını təyinetmə hüququ olduğunu car çəksin. Ümumiyyətlə, beynəlxalq formatda danışıqlara bu cür yersiz müdaxilə mövcud vəziyyətin dondurulmasına xidmət edir. Guya, orada Azərbaycanın qanunları işləmir, “de-fakto” Ermənistanın bir hissəsi kimi qeyri-müəyyən müddətə bu status-kvonu qoruyub saxlaya bilsinlər. Üstəlik, ağlaşma qurmaqla bölgəyə hansısa beynəlxalq müşahidəçi qrupunu çağırmaq istəyirlər. Onların arzusu məhz budur. Təbiidir ki, Azərbaycan bunu birdəfəlik rədd edir. Bakı təklifini verib, istəmirlərsə, özlərindən küssünlər.

Azərbaycan öz siyasətini ardıcıl şəkildə aparır və önümüzdə duran əsas məsələ Qarabağ iqtisadi rayonumuzdakı qeyri-qanuni hərbi birləşmələrin tərk -silah olunması, ağır texnikanın təhvil verilməsi, burada qanunsuz yaşayan, müqavilə ilə hərbi xidmət keçən Ermənistan vətəndaşlarının torpaqlarımızdan rədd olub getməsidir. Bunu etməyə ağılları çatacaqsa, yap yaxşı, əks-təqdirdə proses ağır itkilərlə müşayiət olunacaq.

# Uşaq qatili indi də azyaşlıların qorunmasından dəm vurur

**Ermənistan və Qarabağ erməniləri neçə aylardır ki, “blokada”da olduqlarını iddia edirlər. Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradıldığı aprelin 23-dən iyunun 15-də törədilən məlum təxribata qədər məntəqədən hər iki istiqamətdə sərbəst keçidin olmasına baxmayaraq haylar Azərbaycanı qaralamaq, ona böhtan atmaq üçün dəridən-qabıqdan çıxırlar. Son vaxtlarda Ermənistan, Qarabağ erməniləri və diasporlarının bu istiqamətdə səyləri birləşdirdikləri, bir növ koordinasiyalı hərəkətləri diqqəti cəlb edir. Onlar bununla öz aləmlərində rəsmi Bakının iradəsinə təsir etmək, böyük dövlətlərin və beynəlxalq təşkilatların ölkəmizə təzyiq etməsinə nail olmaq məqsədi güdürlər.**

**Ekspert rəyi**



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Serjik Sarkisyanın bu məktubu onun gücsüzlüyündən, heç bir təsir imkanının olmamasından xəbər verir. Belə bir təəssürat formalaşdırmağa çalışır ki, hələ də siyasi gündəmdədir və cari proseslərlə bağlı fikir yürüdə bilər. Onun Qarabağ iqtisadi rayonundakı prosesləri yenidən “blokada” – Azərbaycanın sıxışdırması kimi təqdim etməsi artıq, həqiqətən də, ikrah doğurur. Bununla yanaşı, uydurmalarla diqqət çəkməyə çalışır, uydurmaları geniş təbliğ edirlər. Guya “blokada” nəticəsində iki azyaşlı həyatını itirib. Halbuki bu, belə olmayıb. Bu barədə bir müddət öncə açıqlama verilib. Onlar avtomobildəki yüksək temperatur nəticəsində yuxuda olarkən, yəni valideyn səhlənkarlığı nəticəsində vəfat ediblər. Bu cür cılız hekayələri uydurmaqla göz yaşları, mənəvi-psixoloji sarsıntı yaratmağa çalışırlar. Amma siyasət bu cür yanaşmalardan uzaqdır. Real siyasət tamamilə başqa prosesləri və hadisələri diktə edir. Ona görə də düşünürəm ki, Serjik Sarkisyanın məktubunu ciddi saymaq olmaz. Onun özü kimi, məktubu da mənasız və saxtadır.

Bu istiqamətdə sonuncu hadisə Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın ABŞ Prezidenti Co Baydenə, Rusiya Prezidenti Vladimir Putinə və Fransa Prezidenti Emmanuel Makrona yazdığı açıq məktubdur. Serj Sarkisyanın açıq məktubu, təbii ki, Qarabağın “blokadası” ilə bağlıdır. O, girişdə əsl hay xislətinə uyğun olaraq hiyləgərcəsinə gediş edir. Dünya ictimaiyyətinin hər zaman xüsusi həssaslıqla yanaşdığı uşaqların hüquqlarının qorunmasından bəhs edir. Bu kontekstdə dövlət başçılarının diqqətinə aşağıdakı fikirləri çatdırır: “Bir neçə gün əvvəl “Artsax”ın “Martakert” rayonunun (keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olan Ağdərə rayonu Milli Məclisin 1992-ci ilin 13 oktyabr tarixli qərarı ilə ləğv edilərək ərazisi Tərtər, Ağdam və Kəlbəcər rayonlarına verilib-S.H.) kəndlərindən birində üç yaşlı Levon və altı yaşlı Gita onların qidalanması üçün yemək tapmaq məqsədilə şəhərə getmiş analarını tapmaq istəyərkən boğularaq ölüblər. “Artsax”ın 7 aydan çox davam edən blokadası qocaların və uşaqların, sadəcə günahı öz torpağında və babalarının torpağında (?) doğulub yaşamaları və həyatı sevmələri olan sadə insanların canını almağa başlayıb. Biz bu vəziyyətlə bağlı aydın bəyanatlar verdiyinə görə bütün nüfuzlu ölkələrə və beynəlxalq strukturlara minnətdarıq. O bəyanatların həyatları uğrunda mübarizə aparan “Artsax xalqı” üçün böyük əhəmiyyəti var. Ancaq, təəssüf ki, bu bəyanatlar balaca Levon və Gitanın həyatını xilas edə bilmədi və ən dəhşətlisi, mücərrəd gələcəkdə deyil, sabah səhər bir çox başqa uşaqların və qocaların da həyatını xilas edə bilməyəcək”.

Təbii ki, S.Sarkisyanın yalan-palanla dolu geniş məktubunu burada nöqtə-vergülünədək əks etdirmək kimi bir niyyətimiz yoxdur. Onun yazdığı iki-üç abzas da bizim ona cavab yazmağımız üçün kifayət edər. Odur ki, gəlin, Sarkisyanın bura qədərki yalanlarına aydınlıq gətirək. İlk olaraq müraciətin üç ölkənin dövlət başçısına ünvanlanması diqqəti çəkir. Bunlar ATƏT-in keçmiş Minsk qrupunun həmsədrləri olan dövlətlərdir. O ölkələr ki, ərköyün uşaq kimi hər zaman Ermənistanın nazı ilə oynayıblar, hər zaman onun başını sığallayıblar. Onlar bir dəfə də İrəvanın işğal və təcavüz siyasəti ilə bağlı aydın bəyanat verməyiblər. Hər zaman ikibaşlı, çoxmənalı sözlərlə tərəfləri hansısa mücərrəd barışığa çağırıblar. Necə deyərlər, “dovşana qaç, tazıya tut” deyiblər. Məhz bu ölkələrin təcavüzkarı dəstəkləməsi işğalçını şirnikləndirib, onu yeni-yeni torpaqlar ələ keçirməyə həvəsləndirib. Nəticədə, ərazilərimizin 20 faizi işğal olunub, 1 milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı törədilib. Bu soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq



valideynlərindən birini itirib. Düşmənin atəşi nəticəsində 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bugünədək məlum deyil.

Yeri gəlmişkən, S.Sarkisyanın Xocalı soyqırımında iştirakı sübuta yetirilmiş faktıdır. Bu haqda az sonra bəhs edəcəyik. Ermənilər işğal olunmuş ərazilərimizə divan tutub, əllərinə keçən hər şeyi daşıyaraq satıblar. Hələ 2021-ci il yanvarın 19-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul edən Prezident İlham Əliyev işğal dövründə ərazilərimizdə baş verənləri olduqca sərrast qiymətləndirmişdi: “Azərbaycan işğal olunmuş ərazilərə qayıdandan sonra, beynəlxalq təşkilatların, səfirliklərin nümayəndələri, jurnalistlər oraya səfər edir, hər şeyi öz gözləri ilə görürlər. Bu, misli görünməmiş vandallıqdır. Elə bil, bu ərazilərdən vəhşi qəbilə keçib”.

Həmsədr ölkələrin isə bütün bu vəhşiliklərə səssizliyi Azərbaycanı hərəkətə keçməyə vadar edib, ordumuz Ali Baş Komandanın əmri ilə 2020-ci il sentyabrın 27-də düşmənin növbəti təxribatına cavab olaraq onların üzərinə yürüş edib. Cəmi 44 gün ərzində torpaqlarımız yağı düşməndən təmizlənib. Nəticədə ATƏT-in Minsk qrupu da tarixin arxivinə göndərilib. Buna baxmayaraq, haylar həmin qrupu “diriltmək” istiqamətində səmərəsiz gedişlər edirlər. S.Sarkisyanın müraciətinin üç keçmiş həmsədr dövlətin başçısına edilməsi bu mənasız cəhdlərdən biridir. Alınmayacaq!

*

Serj Sarkisyanın iki uşağın “blokada” nəticəsində vəfat etməsi yalanını bir müddət öncə hayların xarici işlər naziri Ararat Mirzoyan da dilə gətirmişdi. O, təxminən 10 gün əvvəl özünün “Twitter” hesabında Qarabağda “humanitar vəziyyətin pis olması” səbəbindən 3 və 6 yaşlı iki uşağın vəfat etdiyini yazmışdı. Həmin vaxt Mirzoyana ən tutarlı cavabı Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev vermişdi. Cənab Hacıyev Mirzoyanın yalan paylaşımını elə “Twitter”də yazdığı bu sözlərlə ifşa etmişdi: “Ermənistan XİN rəsmi olaraq dezinformasiya yaydığı zaman faktların yoxlanması və miflərin aşkarlanması lazımdır. Birincisi, yerli polis valideyn tərəfindən nəzarətsiz qalan iki uşağın səhlənkarlıq və maşındakı yüksək temperatur nəticəsində yuxuda olarkən vəfat etdiyini təsdiqləyib. Bu, riyakarlıqdan başqa bir şey deyil. İkincisi, Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi işləyir, lakin ümumilikdə onun bu hadisə ilə heç bir əlaqəsi yoxdur. Üçüncüsü, Ermənistan xarici işlər naziri, yəqin ki, Laçın sərhəd nəzarət-buraxılış məntəqəsini qeyd etməklə, guya, Qarabağda ərzaq qıtlığı varmış kimi rəy yaratmağa çalışır. Amma Xankəndi restoranından olan videoda bunun əksi görünür”.

Beləliklə, S.Sarkisyanın bu yalanı artıq ifşa olunmuş sayılır. Onun “ananın uşaqların qidalanması üçün yemək tapmaq məqsədilə” şəhərə getməsi fikri Qarabağ ermənilərinin dünya ictimaiyyətinin gözündə fağır, mağmın obrazının yaradılması məqsədi daşıyır. “Yemək almaq” sözünün “yemək tapmaq” sözü ilə əvəzlənməsi isə ayrıca məzmuna malikdir.

*

Qeyd etdiyimiz kimi, S.Sarkisyanın Xocalı soyqırımında iştirakı sübuta yetirilmiş faktdır. Əsl adı Serjik olan bu şəxs məlum faktı Qafqaz, Rusiya və Qara dəniz bölgəsi üzrə ixtisaslaşan jurnalist Tomas de Vala 2000-ci il dekabrın 15-də verdiyi müsahibə zamanı ilk dəfə etiraf edib. Həmin dövrdə Ermənistanın müdafiə naziri olan S.Sarkisyanın müsahibəsi Tomas de Valın müəllifi olduğu “Qara Bağ: Ermənistan və Azərbaycan sülh və müharibə arasında” adlı kitabın 172-ci səhifəsində öz əksini tapıb. S.Sarkisyan müsahibə zamanı deyib: “Xocalıya qədər azərbaycanlılar bizimlə sadəcə, zarafat etdiklərini düşünürdülər. Onlar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Bütün bu düşüncələri dəyişmək lazım idi. Belə də oldu. Biz bu streotipi sındıra bildik”.

İndi insanlıq əleyhinə cinayət olan soyqırımının iştirakçısının, əli azərbaycanlı uşaqların qanına batan qatilin iki erməni uşağın dünyasını dəyişməsinə görə açıq məktub yazması riyakarlığın son həddi kimi qiymətləndirilə bilər.

S.Sarkisyanın hansı xislətə malik olduğunu Prezident İlham Əliyev 2021-ci il oktyabrın 4-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Azərbaycan Bayrağını ucaltdıqdan sonra etdiyi çıxışı zamanı böyük məharətlə ölkə və dünya ictimaiyyətinə göstərmişdi: “Bu fərarilərin içində Ermənistanın keçmiş prezidenti Serjik Sarkisyan da var idi. Birinci fərari elə odur. Çünki o, müharibə zamanı Xankəndiyə soxulmuşdu, guya, orada hansısa işlər görəcək. Amma görəndə ki, Azərbaycan Ordusu artıq gəlir və onun qulağından tutub Bakıya gətirə bilər, qorxaqcasına oradan fərari kimi qaçmışdır. Mən ona Serjik Sarkisyan ona görə demirəm ki, onu alçaltmaq istəyirəm, ona görə ki, bu, onun əsl adı və soyadıdır. Bizim arxivlərimizdə bu məlumatlar var. Onun “metirka”sında, yəni, doğum haqqında şəhadətnaməsində, onun komsomol biletində Sarkisyan Serjik yazılıbdır. Sonra bunu edib Sarkisyan Serj. Guya “Serj”, necə deyərlər, məqbul bir addır.

Bu adam ömrü boyu oğru, cinayətkar, saxtakar, xain, satqın, fərari kimi tanınıb. Serjikin oğurluğu haqqında Ermənistanda bilməyən yoxdur. Bu gün onunla əlbir olan “müharibə qəhrəmanları” artıq ya həbsdədir, ya cəhənnəmdə. “Tuşonka” satan və artıq cəhənnəmdə yanan, Serjikin sağ əli olan “general” Ermənistan ordusunun və Serjikin əsl simasını göstərir. Müharibə zamanı “tuşonka” satan general hansı sözlərə layiqdir? Serjikin sağ əli olan, müharibə dövründə müdafiə naziri vəzifəsində çalışan hərbi cinayətkar bu yaxınlarda Ermənistanda həbs edildi, oğurluğa görə. Nasaz silahlar alırdı, pullarını da qoyurdu cibinə. Bu haqda bizdə kifayət qədər məlumat var. Həm müharibədən əvvəl, həm müharibə zamanı hansı əməllərdən çıxırdılar. Ayaqları altında torpaq yanırdı, Azərbaycan Ordusu hər gün irəli gedirdi, Ermənistan müdafiə naziri kontraktlar imzalayıb, nasaz silahlar aldırıb, qiymət fərqini də cibinə qoyurdu. Onlar Serjikin yetirmələridir, onun kimi oğrulardır”.

Cənab İlham Əliyevin Serjik Sarkisyan haqqında səsləndirdiyi bu fikirlərdən sonra çörəyini yediyi Azərbaycan xalqına xəyanət edən bu şəxs haqqında nə isə demək artıq olardı. Yalnız onu demək istərdik ki, onun bütün təşəbbüsləri kimi bu cəhdi də uğursuzluğa məhkumdur.

***Səxavət HƏMİD,***
***“Xalq qəzeti”***

**Həyəcan təbili**

**Xəzər dənizi suyunun getdikcə azalması son illər yenidən narahatlıq doğurur. Müxtəlif mülahizələr səsləndirilir. Bu ilin martında X Qlobal Bakı Forumunda da Xəzərin səviyyəsinin sürətlə enməsi mövzusu gündəliyə salınaraq müzakirəyə çıxarılmışdı. Toplantıda Qazaxıstanın informasiya və sosial inkişaf naziri Darxan Kidirali yaxın gələcəkdə Xəzərdə suyun səviyyəsinin 9 metr azalacağının gözlənildiyini, bunun sahilyanı 5 ölkə üçün ciddi təhlükə törədəcəyini bildirmişdi.**

# Xəzərin suyu niyə çəkilir?

## *Yaxın gələcəkdə dənizin səviyyəsinin 9 metr enəcəyi gözlənilir*



***Ekoloqların böyük əksəriyyəti bunun səbəbini, əsasən, son illər yağıntıların və qlobal istiləşmə nəticəsində Xəzər hövzəsinə tökülən suyun həcminin azalması ilə əlaqələndirir. Ekoloq Rasim Səttarzadə bildirir:*** "Xəzər qapalı su hövzəsi olduğundan onun səviyyəsində periodik dəyişmələr labüddür. Dənizin səviyyəsinin dəyişməsində başlıca amil onun hövzəsinin iqlimi hesab olunur və səviyyə tərəddüdləri də Xəzərin su balansı elementlərindən, yəni, onu qidalandıran çaylardan və düşən yağıntının miqdarından, həmçinin buxarlanmadan asılıdır".

Rasim Səttarzadənin sözlərinə görə, dəniz dibində baş verən tektonik hərəkətlər də səviyyənin dəyişməsinə təsir göstərən amillərdəndir. Bu gün Xəzərin əsas qida mənbəyi olan Volqa çayının axımında da azalma müşahidə edilir. Ötən ilin birinci yarısı çayın mənsəbində illik axım 114 kilometrkub təşkil edib ki, bu da orta çoxillik normadan (146 kilometrkub) xeyli dərəcədə azdır.

Son illər ərzində Xəzərin səviyyə dinamikasının dəyişməsindən bəhs edən ekoloq dənizin XX əsrdə ən aşağı səviyyənin 1977-ci ildə qeydə alındığını, sonradan isə qısa zamanda, yəni, 1977–1995-ci illər ərzində 2,5 metr artdığını, nəhayət, bundan sonrakı dövrdə yenidən azalma müşahidə olunduğunu bildirib. O, eyni zamanda, 2006-cı ildən etibarən Xəzərin səviyyəsində enmənin də nəzərə çarpdığını, 2019-cu ildə isə dənizin orta illik səviyyəsinin Baltik sistemi ilə mənfi 27,89 metr qeydə alındığını, bunun da 1977-ci ildəki səviyyədən 1,1 metr yüksək olduğunu qeyd edib.

Rasim Səttarzadə Xəzərin səviyyəsinin dinamikası barədə müddətli proqnoz verməyin mümkünsüzlüyünü də xatırladıb. Bu fikri isə bugünədək hazırlanan uzunmüddətli səviyyə proqnozlarının heç birinin özünü doğrultmaması ilə əlaqələndirib.

Bu məqamda onu da qeyd edək ki, hazırda sosial şəbəkələrdə Xəzər dənizinin Qazaxıstan hissəsində suyun azalmasını göstərən videolar yayılıb. Həmin videolarda dənizin 200 metrə yaxın geri çəkildiyi, torpaq qatının üstə çıxdığı əks etdirilib. "Belə hal Xəzərin Azərbaycan hissəsində də baş verə bilərmi?" sualına cavabında ekoloq Rövşən Abbasov bildirib ki, Xəzərdə suyun səviyyəsinin düşməsi 1995-ci ildən mütəmadi hal alıb. Onun sözlərinə görə, dənizdə suyun ən aşağı səviyyəsi 1977-ci ildə olub. Hazırkı vəziyyət də bu prosesin davamlılığını təsdiqləyib".

Ekspert belə bir şəraiti şərtləndirən səbəbləri də diqqətə çatdırır. Birincisi, bu, Xəzər dənizinə tökülən çayların suyunun azalmasıdır. İkincisi isə qlobal istiləşmənin nəticələrindən irəli gəlir. O, deyir ki, qapalı hövzələrdə suyun səviyyəsinin artıb-azalması həmişə nəzərə çarpır. Dünyada elə göllər var ki, orada vəziyyət daha acınacaqlıdır. Xəzərdə suyun səviyyəsinin daha çox düşməsinin qarşısını alan Volqa çayıdır. Belə ki, Xəzər dənizinə suyun 80 faizi Volqa çayı ilə gəlir. Rusiya hidroloqlarının məlumatına görə, Volqada suyun yağışlı havalarla əlaqədar artacağı gözlənilir. Əgər belə olarsa, Xəzərdə suyun səviyyəsi qalxacaq. Avropalı mütəxəssislər isə bildirirlər ki, Xəzərdə səviyyə bir neçə metr düşə bilər.

***Bu günlərdə isə Qazaxıstan mediasında jurnalist Talqat Umarovun həyəcan doğuran bir yazısı yayımlanıb. Müəllif Xəzər dənizinin dayazlaşmasının kritik həddi keçdiyini, suyun səviyyəsinin kəskin aşağı düşdüyünü diqqətə çatdırıb. T.Umarov yazıb:*** "Xəzər dənizində suyun səviyyəsi 2006-cı ildən azalmağa başlayıb və 2022-ci ildə kritik həddə çatıb. Qazaxıstan hakimiyyəti hesab edir ki, dünyanın ən böyük qapalı (dünya okeanından təcrid olunan) su anbarının dayazlaşması iqlim dəyişikliyi ilə bağlıdır. Başqa sözlə, istiliyinin artması, yağıntının zəif olması və çaylarda suluğun getdikcə azalması Xəzərdə suyun çəkilməsini şərtləndirir".

***Ekoloq Azamat Sarsenbaev Aktau şəhər sakinlərinin 2016-cı ildən etibarən Xəzər dənizinin kəskin dayazlaşmasını hiss etdiklərini bildirib:*** "Hazırda bəzi yerlərdə su birdən-birə bir neçə metr çəkilib. Suyun azalması səbəbindən bütün adalar açılıb. Dəniz şəhərdən on metrlərlə, şimal tərəfdən isə kilometrlərlə uzaqlaşıb. "Dəniz səviyyəsinin bir metrdən çox aşağı düşməsi Xəzər dənizinin sahil zolağının, xüsusən də Qazaxıstan sektorunun mövqeyinin dəyişməsinə səbəb olub. Bu, dəniz sahəsinin dibinin və ona bitişik qurunun kiçik yamaclarına malik olması və hətta dəniz səviyyəsindəki kiçik dəyişikliklərin əhəmiyyətli dərəcədə daşqın və ya sahilin qurumasına gətirib çıxarması ilə izah olunur. Bu müddət ərzində dənizin su səthinin sahəsi 22 min kvadratmetrdən çox azalıb.

Azamat Sarsenbayev Xəzər dənizinin dayazlaşmasını həm də su anbarını qidalandıran iki əsas çayın–Jayk (Ural) və Volqanın vəziyyətinin pisləşməsi ilə əlaqələndirir: "Düşünürəm ki, bunun əsas səbəbi bu çayların vəhşicəsinə istismar olunmasıdır. Sovet İttifaqının dağılmasından bəri həmin çaylar üzərində çoxlu sayda bəndlər tikilib, su kənd təsərrüfatı məqsədləri üçün istifadə olunur, sahilboyu şəhərlər var ki, onlar da Jayk və Volqadan su ilə təmin olunurlar".

***Ekoloq və "EkoMangistau" qeyri-hökumət institutunun direktoru Kirill Osin də Xəzərin acınacaqlı vəziyyətinin səbəblərindən biri kimi çayların dayazlaşmasını hesab edir:*** "Bu, əsasən, iqlim dəyişikliyindən təsirlənir. Çaylar təbii yolla suyu qəbul etmir və əlavə olaraq sudan qeyri-rasional istifadə, çay yatağının lillənməsi kimi amillər də mənfi rol oynayır".

Qazaxıstan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Xəzəri qidalandıran çayların vəziyyətinin pisləşməsi ilə bağlı ictimaiyyət nümayəndələrinin fikri ilə həmrəydir. Nazirliyin məlumatında Xəzər dənizindəki suyun 90 faizdən çox hissəsinin Rusiya Federasiyası ərazisindən keçən Volqa çayı vasitəsilə gəldiyi deyilir. Jaiyk çayının payının isə 2 faizdən çox olmadığı, onun Xəzər dənizinin balıq ehtiyatlarının çoxalmasında mühüm önəm daşıdığı diqqətə çatdırılır. Eyni zamanda, bu çayın axınının 50-60 faiz azalması, buna görə də kürü tökmə yerlərinin deqradasiyaya uğraması səbəbindən də çayın ekoloji vəziyyəti daha da pisləşir.

***Qazaxıstan mətbuatı yazır ki, vəziyyəti normallaşdırmaq məqsədilə Qazaxıstan və Rusiya tərəfindən"Çay hövzələrində (Jaiyk, Yertis və s.) tədqiqatlar üzrə əməkdaşlığın intensivləşdirilməsi üzrə birgə "Vahid yol xəritəsi" imzalanıb.***

Bu ölkənin sosial şəbəkələrində Xəzərin suyunun çəkilməsi də xronoloji ardıcıllıqla yayımlanıb. Başqa sözlə, ötən əsrdə qazax alimləri tərəfindən Xəzərdə ilk dayazlaşma hallarının 1930–1941-ci illərdə müşahidə edildiyi, bu dövrdə dəniz səviyyəsinin genişmiqyaslı iqlim dəyişikliyi səbəbindən Baltik sisteminə görə, 27,85 metr azaldığı vurğulanıb. Sonrakı illərdə dayazlaşmanın sürəti azalıb və 1960-cı illərdə sabitləşmə müşahidə edilib. Ötən əsrin 70-ci illərinin birinci yarısında isə bu səviyyə son 150 ildə həddindən artıq aşağı düşüb və sahilyanı ərazilərin səhralaşması prosesi başlayıb. Lakin 1978-ci ildən başlayaraq, Xəzərin səviyyəsində yenidən yüksəlmə müşahidə olunub və 1995-ci ilə qədər 2,5 metr qalxaraq 26,62 metr Baltik sisteminə çatıb. Bu dövr ərzində səviyyənin qalxmasının orta intensivliyi ildə təqribən 14 santimetr, bəzi illərdə isə 36 santimetr təşkil edib. 1995-ci ildə dəniz səviyyəsinin qalxması yenidən səngiyib, 2006-cı ildən isə təzədən azalmağa başlayıb.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Azad olunmuş ərazilərin bərpası qeyri-neft sektorunun inkişafını sürətləndirəcək

## *6 ayda bu bölmədə 36 milyard manatlıqdan çox məhsul buraxılıb*

**Son 20 il ərzində Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində sosial-iqtisadi tərəqqinin əsas keyfiyyət göstəricisi olan ümumi daxili məhsul (ÜDM) istehsalı 3 dəfədən çox artıb. Ümumi inkişaf dinamikasını cari ilin birinci yarısında da qoruyub saxlamaq mümkün olub.**

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ilin yanvar-iyun aylarında ölkəmizdə 60 milyard 302,1 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,5 faiz çox ÜDM istehsal olunub.

Ölkəmizdə ümumi iqtisadi artımın əsas hissəsi ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış neft strategiyasının uğurlu nəticələri hesabına təmin olunsa da, son illər qeyri-neft-qaz sektoru üzrə də xüsusi fəallıq nəzərə çarpır. Bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin məntiqi nəticəsidir. Müqayisə üçün qeyd edək ki, 2010-cu ildə ölkəmizin qeyri-neft-qaz sektorunda 18,4 milyon manatlıq məhsul istehsal olunduğu halda, 2022-ci ildə bu göstərici 69,8 milyard manat təşkil edib.



Bu sahədə artım tendensiyası cari ilin ilk yarısında da davam edib. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin 6 ayında iqtisadiyyatın qeyri-neft-qaz sektorunda 36 milyard 153 milyon manatlıq məhsul istehsal olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz artım deməkdir. Elə Dünya Bankının Azərbaycanda qeyri-neft iqtisadiyyatı ilə bağlı proqnozu da nikbinliyə əsas verir. Belə ki, bankın proqnozlarına görə, cari ilin sonunadək ÜDM-də qeyri-neft sektorunun payının 3 faizdən çox olacağı gözlənilir. Bununla yanaşı, bir sıra beynəlxalq ekspertlər də bu qənaətdədirlər ki, Azərbaycanın ən yaxın tarixində ÜDM-də qeyri-neft-qaz sektorunun payı maksimuma çatacaq. Onların fikrincə, Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan yeni layihələr və Azərbaycanın Avrasiya regionunda artan logistik əhəmiyyəti sayəsində qeyri-neft-qaz sektorunun hazırkı inkişaf tempini saxlamaqla 2024-cü ilə qədər onun ÜDM-də payı 70 faizə yaxınlaşacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin əsasını da məhz ölkədə qeyri-neft sektorunun davamlı inkişafını təmin etməkdən ibarətdir. İyulun 21-də "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa keçirilən Qlobal Media Forumunun açılış mərasimində dövlətimizin başçısı bunu bir daha bəyan edərək deyib: "Bizim prioritetimiz təbii ki, qeyri-neft sektorunun inkişafıdır. Biz ümumi daxili məhsulda iqtisadiyyatımızın qeyri-neft sektorunun payını ildən-ilə artırırıq. O, artıq 50 faizdən yüksəkdir. Bu gün biz həm də qeyri-neft ixracını artırırıq".

Ölkəmizin ümumi inkişafının neft və qaz sektorundan asılılığının azaldılmasını prioritet hesab edən Prezident İlham Əliyev bildirib ki, hazırda iqtisadiyyatın istənilən şəraitdə və vəziyyətdə dayanıqlı olmasını təmin etməliyik. Azərbaycanda bu məqsədlə ehtiyat yaradılır, valyuta ehtiyatları artırılır, idarəetmə sistemi təkmilləşdirilir. Bütün bunların ölkəmizə əlavə imkanlar qazandırdığını vurğulayan dövlətimizn başçısı deyib: "Statistik olaraq vergi və gömrük orqanlarının proqnozları həyata keçirmə qabiliyyətinə baxsanız, mənzərə kifayət qədər təsiredicidir. Artıq ilk il deyil ki, may və iyun aylarında biz büdcəyə əlavələri artım istiqamətində qəbul edirik və bunun əsası odur ki, vergi və gömrük orqanları planlaşdırılandan daha çox gəlir əldə etmişlər. Bu, yalnız və yalnız şəffaflıq və yeni idarəetmə yanaşması sayəsində mümkün olmuşdur".

Bütövlükdə isə, son illər qeyri-neft-qaz sektorundan daxil olan gəlirlər hesabına Azərbaycanda ÜDM istehsalı artan dinamika üzrə davam edir. Yaxın illərdə isə işğaldan azad edilmiş ərazilərdə həyatın tədricən əvvəlki məcrasına qayıtması ilə bu göstərici getdikcə yaxşılaşacaq. Bunun üçün isə, Azərbaycan dövləti bütün imkanları səfərbər edib. Yeri gəlmişkən, nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərinə, təqribən, 12 milyard manata qədər vəsaitin xərclənməsi nəzərdə tutulur.

Ölkəmizdə yaradılmış əlverişli biznes mühiti, investisiyaların təşviqi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər əcnəbi şirkətlərin Qarabağ və Şərqi Zəngəzura marağını getdikcə artırır. Prezident İlham Əliyev Şuşadan ölkəmizin işğaldan azad olunmuş ərazilərimizin bərpasında iştirak etmək, burada biznes fəaliyyəti ilə məşğul olmaq istəyən xarici şirkətlərə bir sıra konkret mesajlar ünvanlayıb. Bu gün kapital və sərmayənin proqnozlaşdırıla bilən və sabit məkanlara getdiyini vurğulayan dövlətimizin başçısı Azərbaycanın məhz belə bir məkan olduğunu əminliklə söyləyib. Qeyd olunub ki, Azərbaycan hökumətinin çox uzaqgörən və proqnozlaşdırıla bilən, inkişafla bağlı, biznes mühitinin yaxşılaşdırılması ilə bağlı proqramı var.

Prezident deyib ki, Azərbaycanda yaşayan əcnəbi insanlar ölkəmizdə idarəçilikdə çox müsbət dəyişikliklərin, xüsusilə də maliyyə sistemində, korporativ menecment baxımından yerli şirkətlərdə böyük dəyişiklikləri təsdiq edə bilərlər. Dövlətimizin başçısı Azərbaycanın özünü neft-qaz sahəsində etibarlı tərəfdaş kimi sübut etdiyini və bu gün coğrafi yerləşməni, artıq çox müasir nəqliyyat infrastrukturunu nəzərə alaraq əlaqələndirmə məsələlərində fəal çalışdığını ölkəmizə gəlmək istəyən xarici şirkətlər üçün yaxşı bir mesaj kimi dəyərləndirib.

Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurun bərpası prosesində prioritet sayılan sahələri də konkret nişan verib. Məsələn, Amerika Birləşmiş Ştatlarının "Global Policy" İnstitutunun prezidenti Paolo von Schirachin "bu gün Azərbaycanda çalışmaq istəyən Amerika şirkətlərinə hansı mesajı verə bilərsiniz" sualını cavablandıran dövlətimizin başçısı ölkəmizin azad olunmuş ərazilərində bu gün çoxsaylı beynəlxalq şirkətlərin kontraktor kimi fəaliyyət göstərdiyini, Amerika şirkətlərini isə kənd təsərrüfatı sahəsində görmək istədiyini bildirib. Hazırda ölkəmizin kənd təsərrüfatı sahəsində, suvarmada Amerika şirkətlərinin aparıcı avadanlıqlarından istifadə edildiyini vurğulayan Prezident İlham Əliyev onları, həm də investor görmək istəyini bəyan edib. O, fikrinin davamı olaraq Azərbaycanda aqrar sektorun, xüsusilə azad edilmiş ərazilərin kənd təsərrüfatı potensialının yüksək olduğunu, burada çox məhsuldar torpaqların və su resurslarının mövcudluğunu diqqətə çatdırıb.

Dövlətimizn başçısı, həmçinin Azərbaycanın nəqliyyat-logistika baxımından da yüksək potensiala malik olduğunu bildirib və qonşularla beynəlxalq əməkdaşlıq çərçivəsində nəqliyyat infrastrukturunun genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu önə çəkib.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# I yarımildə 648 milyon manatdan çox sığorta haqqı toplanılıb

**Mərkəzi Bankın məlumatına görə, cari ilin yanvar-iyun aylarında Azərbaycandakı 20 sığorta şirkətinin xətti ilə 648,945 milyon manat sığorta haqqı toplanılıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 32 faiz çoxdur.**



Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 225,032 milyon manat təşkil edib. Bu isə illik müqayisədə 28,6 faiz çoxdur.

6 ay ərzində sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 34,7 manatı ödəniş edilib. Ötən ilin eyni dövründə bu göstərici 35,6 manat olub.

***"Xalq qəzeti"***

# ƏDV-nin 65,2 milyon manatı istehlakçılara qaytarılıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yaydığı məlumata görə, cari ilin yanvar-iyun aylarında fiziki şəxs olan istehlakçılar tərəfindən respublika ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınan mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilən ƏDV-nin 65,2 milyon manatı geri qaytarılıb.**

Məlumatda, həmçinin bildirilir ki, ölkədə "ƏDV geri al" layihəsi uğurla tətbiq edilir və iqtisadiyyatın şəffaflaşdırılması istiqamətində mühüm nəticələr əldə olunur.

Xatırladaq ki, alınan mallara və əldə edilən xidmətlərə görə, ödəniş nağdsız həyata keçirildikdə ƏDV-nin 17,5 faizi, nağd qaydada olduqda isə 5 faizi istehlakçılara qaytarılır.



***"Xalq qəzeti"***

# Ağdam Sənaye Parkına beton bloklar buraxılacaq

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "Tviter" hesabında "Eos Qrup" QSC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verildiyini bildirib. Onun sözlərinə görə, bununla da parkın rezidentlərinin sayı 18-ə çatıb.**

Paylaşımda şirkətin sənaye parkının ərazisində investisiya dəyəri 4,7 milyon manat olan qazbeton blok istehsalı müəssisəsi yaradacağı və 49 nəfərin işlə təmin ediləcəyi vurğulanıb.

***"Xalq qəzeti"***

# Bu il ölkəmizdə 975 kiloqramdan çox qızıl istehsal edilib

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyun aylarında ölkədə 975,5 kiloqram qızıl, 1 ton 841,3 kiloqram isə gümüş istehsal edilib.**



Ötən ilin I yarımili ilə müqayisədə qızıl istehsalı 29,6 faiz, gümüş istehsalı isə 42,5 faiz azalıb.

Qeyd edək ki, 2023-cü il iyul ayının 1-nə 352,2 kiloqram gümüş, 101,9 kiloqram isə qızıl hazır məhsul ehtiyatı yaradılıb.

***"Xalq qəzeti"***

Həyatı yaşadanlar

# Qeyrəti öyüncə çevrilən Vüsal

## *Xilaskarlıq zirvəsində qazanılmış əbədiyyət*

**Faciəli xəbər ildırım sürətilə bütün Naxçıvana yayıldı. Bir saat keçməmiş bütün ölkə elektron media vasitəsilə Babək rayonun Uzunoba gölündə baş vermiş faciədən – polis serjantı Vüsal Əbülfəz oğlu Quliyevin suda batan 13 yaşlı qızı xilas etməsindən, uşağın anası Səadət Aslanlıya kömək göstərərkən onunla birlikdə həlak olmasından xəbər tutdu.**



Qeyrətli polis işçisinin igidliyi xalqımızda kədər, hüzn qarışıq öyünc və minnətdarlıq düyğuları da yaşatdı. Hamı bir daha əmin oldu ki, dinc günlərdə qayda-qanunun keşiyində duran, əmin-amanlığı qoruyan, düşmənlə savaşda ön cəbhədə vuruşan Azərbaycan polisinin təmsilçiləri mülki fəlakət anında da insanları xilas etmək üçün həyatından keçməyə belə hazırdır.

Prezident İlham Əliyev suda boğulan soydaşlarımızı xilas edərkən göstərdiyi igidliyə – öz həyatı təhlükə altında olduğu halda insan həyatını xilas etdiyinə görə polis baş serjantı Vüsal Əbülfəz oğlu Quliyevi ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif etdi. Bu xəbər isə bir daha göstərdi ki, Azərbaycan dövləti və onun rəhbəri hər hansı bir ictimai fərqlənməni, fədakarlığı, insanların həyatı naminə xilaskarlığı yüksək qiymətləndirir, belə hal-

xilaskarlığına dövlət başçısının həssas və qədirbilən münasibəti idi.

Belə hüznlü günlərdə dünyasını dəyişmiş insanın ailə üzvləri ilə ünsiyyət qurmaq çətin olsa da, Vüsal Quliyevin atası Əbülfəz Quliyevə başsağlığı verib duyğu-düşüncələrini qeydə aldıq. Əbülfəz müəllim dedi ki, 3 övladı var – bir qız, iki oğlan:

– Vüsal ailənin ikinci övladı idi. Hərbi xidmətdən sonra uzun illər idi ki, polis orqanlarında işləyirdi. 41 yaşı var idi. İndiyədək daim çalışqanlığı, dürüstlüyü, xeyirxahlığı ilə hər kəsin hörmətini qazanmışdı. Bəlkə də elə buna görədir ki, bir müddət əvvəl xidmət müddətinin tamam olmasına baxmayaraq, rəhbərlik işini davam etdirməsini lazım bilmişdi. Sən demə, xidməti işdən ayrılmağı bu cür olacaqmış...

– Vüsalla aramızda 13 yaş fərq olsa da, onunla dostluğumuz tay-tuş səviyyəsində idi. O, məndən kiçik olsa da, hər zaman böyük-kiçik yeri bilməsi, sadəliyi, dürüstlüyü ilə hamımızın məhəbbətini qazanmışdı. Həddən artıq xeyirxah insan idi. Çalışardı ki, hər kəsə köməyi dəysin. Buna görə də kənddə hər kəs onu çox sevirdi. Vüsal həmişə bizim qəlbimizdə xeyirxah insan kimi qalacaq.

**Hüzr mərasimində söhbətləşdiyimiz digər müsahibimiz isə Vüsal Quliyevin yaxın qohumlarından biri olan İman Hümbətov oldu:**

– Vüsal dövlətini, Vətənini qəlbən sevən bir insan idi. Uzun illər polis orqanlarında çalışaraq komandirlərinin, rəislərinin böyük etimadını qazanmışdı. Ona bütün yoldaşları, dostları etibar edirdi. Birinə kömək lazım olanda tez Vüsala müraciət edirdi. Dostluğa sadiqliyi, qohum-əqrəbaya yanarlığı, hər kəsə yardım əlini uzatması onun xarakteri və həyat tərzi idi. Onun yoxluğuna inana bilmirəm. Heyf ki, əcəl onu bizdən tez ayırdı.

**İman Hümbətovun atası Dilsuz kişi də bu ailənin yaxın qohumu, ziyalı ağsaqqal kimi yanıb-yaxılırdı:**

– Bu acı xəbəri alanda gözlərim qaraldı. Sonra öyrəndim ki, Vüsal Uzunoba gölündə boğulan bir qadın və uşağı xilas etmək üçün suya atılıb. Məhz onun bu əməli ilə bu gün həmin azyaşlı uşaq həyatda yaşayır. Heyf ki, uşağın anasını da xilas edə bilmədi, özü də igidliklə həlak oldu. Vüsal bu hərəkəti ilə gənclərimizə, yeniyetmələrimizə əsl nümunə oldu. Eyni zamanda, o, Azərbaycan polisi adını sonadək şərəflə daşıyaraq əsl xilaskarlıq nümunəsi ortaya qoydu. Buna görə də Vüsal Quliyev bundan sonra daim bir qəhrəman, igid polis kimi xatırlanacaq.

**Qardaşı haqqında danışmaq Vüqara çətin olsa da, hünəri ölkəni dolaşan, bütün xalqımızın yas tutduğu, öyündüyü polis qardaşı ilə qürur duyduğunu dedi:**

– Prezidenti İlham Əliyevin sərəncamı ilə qardaşımın "İgidliyə görə" medalı ilə təltif olunması əvəzsiz üçün bir fəxarətdir. Buna görə dövlətimizə minnətdarıq.

**...Mərasim evindən ayrılanda qəhrəman polisimizin atası Əbülfəz Quliyevlə sağollaşıb dedik:**

– Başınız sağ olsun, dünənədək Vüsal sizin oğlunuz idi. İndi hünəri ilə Vətən oğlu olduğunu sübuta yetirdi. Vüsal kimi oğulları olan bu məmləkət hər zaman qəhrəmanlar yetirəcək. O qəhrəmanlar ki, lazım olan anda xalqımızı, dövlətimizin xilaskarlarına çevrilməyi bacarırlar. Elə torpaqlarımızı Vətən edən də belə oğullarımızdır.



ları geniş təşviq edir.

Naxçıvanda isə Vüsal Quliyevin hünəri, igidliklə həlak olması 3 gündür ki, muxtar respublikanın ictimai həyatına hakim kəsilib. Adamlar bu faciəli hekayədən danışır, bir-birilə kədərlərini bölüşür, qeyrətli polis işçisinin ruhuna rəhmət diləyirlər. Naxçıvan MR Daxili İşlər Nazirliyinin qürur duyduğu xilaskar işçisi Vüsal Quliyevin doğulub dəfn edildiyi Cəhri kəndində təşkil etdiyi yas mərasiminə gəlib-gedənlərin isə ardı-arası kəsilmir, sayı-hesabı bilinmir. Mərhumun 3 mərasimi isə daha izdihamlı idi.

Vüsalın qohum-əqrabası, dost-tanışları, xidmət yoldaşları ilə ani söhbət də onun gözəl insan, nümunəvi polis işçisi, başqalarına kömək etməkdən məmnunluq duyan bir soydaşımız olduğunu üstüstə isbatlayırdı. Ailə üzvləri üçünsə bu acı həqiqəti qəbul etmək çətin olsa da, el yanğısı, ölkə kədəri, şərəfli aqibət onlara toxtaxlıq, dözüm gətirir. Ölkə Prezidentinin sərəncamı isə Vüsalın ailəsinə də, el-obasına da baş ucalığı duyğuları yaşadır.

Yas mərasiminə gələnlərin söhbətinin baş mövzusu da Vüsalın igidliyi və onun

**Əbülfəz müəllim qəhərini boğub bildirdi ki, ağır xəbəri Bakıda eşidib:**

– Həmin vaxt Vüsalın iki oğlu da mənim yanımda idi. Naxçıvana necə gəldiyimi xatırlamıram. Ancaq sağ olsun Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin rəhbərliyi. Hadisədən sonra dərhal bütün hazırlıq işlərini ən yüksək səviyyədə təşkil edərək dərdimizə yaxından şərik oldular. 3 gündür ki, yas mərasimindən ayaqları kəsilmir.

Nazirlikdən nə lazımdırsa edirlər. Məzarının üstünü götürməyə də hazırlıq aparırlar. Elə məclisdəkilərin çoxu da polis işçiləridir. Hər kəs Vüsalın qorxmazlığından, xeyirxahlığından, hadisə baş verən zaman heç nəyə baxmayaraq, digərlərinin həyatını qurtarmaq üçün necə riskə atıldığından danışır. Həmin gün Vüsal işdə deyilmiş. Amma buna baxmayaraq, o, bu hərəkəti ilə çevik, fədakar polis işçisi nümunəsi göstərib. Sağ olsun Prezidentimiz. Onun oğlumun hünərinə verdiyi yüksək qiymət ailəmizə təsəlli, həmyerlilərə öyünc gətirir.

**Söhbətimizə Vüsal Quliyevin yaxın dostu, Cəhri kənd sakini Afiq Əhmədov da qoşuldu. O, özünü toparlayıb dedi:**

**Səbuhi HƏSƏNOV,**
**"Xalq qəzeti"**

**Naxçıvan – Cəhri**

# BMT-nin rezident əlaqələndiricisi postmünaqişə dövrü barədə məlumatlandırılıb





**Dünən xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Respublikasında rezident əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.**

Ceyhun Bayramov BMT Baş Assambleyası çərçivəsində sentyabrın 18–19-da təşkil olunacaq DİM Sammitinin dayanıqlı inkişaf gündəliyinin icrasının mövcud vəziyyətinin təhlili baxımından əhəmiyyətini qeyd edib.

Nazir postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarına əsaslanan yenidənqurma işləri, yaşıl enerji zonasının yaradılması istiqamətində atılan addımlardan bəhs edib. Ermənistan tərəfindən hərbi-siyasi təxribatların və mina təhdidinin davam etdirilməsinin sülh səylərinə xələl gətirdiyi bildirilib.

Rezident əlaqələndirici Vladanka Andreyeva Azərbaycan tərəfindən DİM-in təşviqi istiqamətində görülən işlərin əhəmiyyətli olduğunu vurğulayıb. Ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığından məmnunluq ifadə olunub.

# Ceyhun Bayramov Moskvaya yola düşüb

**24 iyul tarixində xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına işgüzar səfərə yola düşüb. Bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb.**

Səfər çərçivəsində, 25 iyul tarixində Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov ilə ikitərəfli görüşün, eləcə də Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında "Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında ikitərəfli Saziş" layihəsi üzrə danışıqların növbəti raundunun keçirilməsi nəzərdə tutulub.

# Qarabağ və Şərqi Zəngəzurda səyyar ədliyyə xidmətləri

**Ədliyyə Nazirliyi tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində, habelə Zəngilan və Laçın rayonlarında yaşayan əhaliyə, genişmiqyaslı yenidənqurma işlərinə cəlb olunan işçilərə və bu ərazilərdə xidmət göstərən hərbçilərə, digər peşə sahiblərinə notariat hərəkətləri, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı ilə bağlı nazirliyin mobil tətbiqləri vasitəsi ilə əlavə sənəd tələb olunmadan elektron informasiya resursları əsasında ədliyyə xidmətləri göstərilib.**





Səyyar qəbullar zamanı, həmçinin vətəndaşlara hüquqi məsləhətlər verilib, elektron və mobil ədliyyə xidmətlərindən istifadə imkanları diqqətə çatdırılıb, müvafiq bukletlər paylanılaraq, onları maraqlandıran suallar cavablandırılıb.

**"Xalq qəzeti"**

# Baş Prokurorluğun məlumatı

**İnternet informasiya ehtiyatlarında qanunvericiliklə yayılması qadağan edilmiş məlumatların yerləşdirilməsinin qarşısının alınması və informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlər davam etdirilir.**



Baş Prokurorluqdan bildirilib ki, "Hürriyyət" qəzetinin baş redaktoru Məmmədov Vüqar Tofiq oğlu və Məmmədov Elnur Teymur oğlu tərəfindən "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri pozularaq internet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi faktı üzrə Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılıb.

Aşkar edilmiş hüquqpozmalarla bağlı hər iki şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 388-1.1.1-ci maddəsi ilə (internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınması) inzibati xəta haqqında iş üzrə icraat başlanaraq, toplanmış materiallar baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib.

Məhkəmə qərarı ilə Vüqar Məmmədov və Elnur Məmmədov 1 ay müddətinə inzibati qaydada həbs edilib.

**"Xalq qəzeti"**

# Ağcabədinin bolluq yaradılan günləri

**Ölkənin iqtisadi potensialından səmərəli istifadə və ixracyönümlü məhsul istehsalının təşviqi istiqamətində həyata keçirilmiş tədbirlər ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələr əldə etməyə imkan verib. Ağcabədi bu sahədə fərqlənən rayonlardan biridir. Bölgənin pambıqçılıq sahəsində xüsusi təcrübəsi, gərəkli ənənələri var. Əlverişli təbii iqlim şəraiti uğurları artırmağa imkan verir. Bu il rayonda 1514 nəfər istehsalçı ilə emal müəssisələri arasında müqavilə bağlanıb. Sifarişə əsasən, 11 min 492,7 hektar ərazi şumlanıb, çiyid səpini həyata keçirilib.**

Pambıq sahələrindən bol məhsul gözlənir. Çünki düzgün aqrotexniki qulluq aparılıb, zərərvericilərə qarşı vaxtında və səmərəli mübarizə təşkil edilib. Fermerlər gübrə və pestisid və keyfiyyətli toxum verilib. Bundan başqa, 2023-cü il üçün subsidiya əmsalları barədə qəbul olunmuş qərara əsasən pambığa görə məhsul subsidiyasının qiyməti hər ton üçün 180 manat təyin olunub. Cənab Prezidentin tapşırığı və tövsiyələrinəəsasən pambıq istehsalı və emalı ilə məşğul olan şirkətlər tərəfindən pambığın alış qiymətiat artırılaraq 1-ci sort üçün 800 manat, 2-ci sort üçün 780 manata çatdırılıb. Pambığın ixrac potensiali yüksək olduğundan kifayət qədər alıcısı var.

Xatırladaq ki ötən il də Ağcabədidə yüksək məhsul əldə edilib. Ağcabədi rayonunda 11 min 838,6 hektar sahədə çiyid səpini aparılıb, bu da əvvəlki illə müqayisədə 7, 6 faiz çox idi. Sahələrdən 40 min 362,6 ton xam pambıq tədarük edilib. Hər hektardan orta məhsuldarlıq 34,1 sentner təşkil edib. Bu respublika göstəricisindən 4,2 sentner çox idi.

Ağcabədi həm də buğda üzrə ixtisaslaşmış rayonlarımızdan biridir. Torpaq mülkiyyətçiləri 2023-cü ildə 26 min 664,2 hektar sahədə taxıl becəriblər. Onun 19 min 514,2 hektarı buğda, 7150 hektarı arpadır. Taxıl biçininə, ümumilikdə rayon üzrə 56 taxılbiçən kombayn cəlb edilib. Bunun 27-si "Aqroservis" ASC-yə məxsus, 8 ədədi fiziki şəxslərin və iri təsərrüfat sahiblərinin istifadəsində olan, 21-i isə digər rayonlardan gəlmiş texnikadır.

Hazırda rayonun taxılçıları biçini davam etdirirlər. Bu günədək 26 min 654 hektar sahədə biçin aparılıb, 120 min 663 ton məhsul əldə olunub. Hər hektarın orta məhsuldarlığı 45,4 sentner təşkil edir.

Məhsuldarlıq ötən ilin orta göstəricisindən buğda üzrə 5, 53 sentner, çoxdur. Yüksək nəticəyə sahələrə arotexniki qaydada xidmət göstərilməsi, sertifikatlı toxumun seçilməsi, taxılın vaxtında suvarılması, kübrənin verilməsi təsir edib. Nəticəyə təsir edən faktorlardan biri də Ağcabədidə böyük həcmli təsərrüfatların yaradılmasıdır. Bu təsərrüfatların potensialı daha böyükdür.



***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Məhkəmə Qubad İbadoğlu barəsində qərar verib

**Nərimanov Rayon Məhkəməsində Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlunun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Hakim Vüsal Qurbanovun sədrliyi ilə keçirilən prosesdə Q.İbadoğlu barəsində 3 ay 26 günlük həbs qətimkan tədbiri seçilib.

O, Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) maddəsi ilə təqsirləndirilir.

Qeyd edək ki, Daxili İşlər Nazirliyinin məlumatına görə, Türkiyə Daxili İşlər Nazirliyindən daxil olan informasiya əsasında Azərbaycanda FETÖ ilə əlaqəli olan şəxslərə qarşı əməliyyat tədbirləri keçirilib. Tədbirlərlə saxlanılan 5 nəfərdən biri Q.İbadoğlu ilə əlaqəsinin olması barədə ifadə verib. Həmin ifadə əsasında Q.İbadoğlunun ofisində axtarış aparılıb, iş üzrə zəruri əhəmiyyət kəsb edən sənədlər aşkarlanıb və o, saxlanılıb.

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 fevral tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında əsasnamə

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) elm və təhsil sahəsində (bundan sonra – müvafiq sahə) dövlət siyasətini və tənzimləməni həyata keçirən, elmi müəssisə və təşkilatların, təhsil müəssisələrinin elm və təhsil fəaliyyətini əlaqələndirən və istiqamətləndirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını rəhbər tutur.

1.3. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Nazirliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Nazirliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Nazirlik Bakı şəhərində yerləşir.

**2. Nazirliyin fəaliyyət istiqamətləri**

2.1. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və onun həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə dövlət tənzimləməsini həyata keçirmək, elmi müəssisə və təşkilatların, təhsil müəssisələrinin elm və təhsil fəaliyyətini əlaqələndirmək və istiqamətləndirmək;

2.1.4. müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirmək;

2.1.5. elmi müəssisə və təşkilatlara, təhsil müəssisələrinə elmi-metodiki və tədris-metodiki rəhbərliyi və nəzarəti həyata keçirmək;

2.1.6. təhsilin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək, elmin və təhsilin keyfiyyət səviyyəsini qiymətləndirmək;

2.1.7. müvafiq sahədə beynəlxalq əməkdaşlığı həyata keçirmək.

**3. Nazirliyin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Nazirliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn vəzifələri yerinə yetirmək;

3.1.2. müvafiq sahənin inkişafına dair dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların hazırlanmasında və bu sahənin prioritet inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində iştirak etmək, habelə həmin sənədlərin icrasını təmin etmək;

3.1.3. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə öhdəliklərin yerinə yetirilməsi üçün tədbirlər görmək;

3.1.4. elmi müəssisə və təşkilatlarla, təhsil müəssisələri ilə xarici elmi müəssisə və təşkilatlar, təhsil müəssisələri arasında təhsilalanların və təhsilverənlərin mübadiləsi proqramlarının əlaqələndirilməsini təşkil etmək;

3.1.5. milli təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasını və beynəlxalq standartlara cavab verən təhsil şəraiti və mühitinin yaradılmasını təmin etmək;

3.1.6. təhsilin keyfiyyətinin artırılması, elmi-metodiki təminatının gücləndirilməsi və təhsilin əhatə dairəsinin genişləndirilməsi məqsədilə müxtəlif istiqamətli layihələrin həyata keçirilməsini təmin etmək;

3.1.7. təhsil müəssisələrində təhsilin və təlim-tərbiyə prosesinin keyfiyyətinə, habelə təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarətin həyata keçirilməsini təmin etmək;

3.1.8. təhsil proqramlarını (kurikulumları), tədris planlarını (ali və orta ixtisas təhsil müəssisələri üzrə tədris planları istisna olmaqla) və proqramlarını təsdiq etmək;

3.1.9. hər tədris ili üçün peşə, orta ixtisas və ali təhsil müəssisələrinə müvafiq ixtisaslar üzrə tələbə qəbulunun müəyyən edilməsinə dair təkliflər vermək;

3.1.10. doktoranturaya illik qəbul və dissertantların təhkimolunma planlarına, habelə doktoranturaların (adyunkturaların) yaradılmasına dair vəsatətə rəy vermək;

3.1.11. ali təhsil müəssisələrində magistraturanın yaradılması ilə bağlı məsələləri həll etmək;

3.1.12. məktəbyaşlı uşaqların icbari ümumi orta təhsilə cəlb olunmasını təmin etmək və icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət etmək;

3.1.13. təhsilin hamı üçün açıq və bərabər imkanlı olmasını təmin etmək;

3.1.14. respublika psixoloji-tibbi-pedaqoji komissiyasını yaratmaq, rayon, şəhər psixoloji-tibbi-pedaqoji komissiyalarının yaradılmasını təmin etmək;

3.1.15. sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmətin, habelə nitq pozuntusu olan təhsilalanlara kömək məqsədilə loqopedik xidmətin təşkilinin təmin olunmasına nəzarət etmək;

3.1.16. müxtəlifsəviyyəli və müxtəlifmiqyaslı fənn olimpiadalarının, müsabiqələrin və yarışların keçirilməsini təmin etmək;

3.1.17. xüsusi istedada malik təhsilalanların müəyyənləşdirilməsi və təhsillərinin davam etdirilməsinin stimullaşdırılması tədbirlərinin həyata keçirilməsini təmin etmək, onlar üçün məqsədli və adlı təqaüdlərin təsis edilməsi istiqamətində tədbirlər görmək;

3.1.18. təhsil müəssisələrində tədrisin müvafiq dövlət təhsil standartları və ya beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları əsasında digər dillərdə aparılmasına razılıq vermək;

3.1.19. tədris dilini zəif bilən təhsilalanlar üçün təhsil proqramlarına uyğun hazırlıq siniflərinin və kurslarının təşkilini təmin etmək;

3.1.20. tabeliyində ali təhsil müəssisələri olan dövlət orqanlarının (qurumlarının) və özəl ali təhsil müəssisələrinin təklifləri əsasında bakalavriat səviyyəsində hazırlıq qrupları təşkil olunan ali təhsil müəssisələrini və ixtisasları müəyyən etmək;

3.1.21. ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin tətbiqinin təmin edilməsi üçün tədbirlər görmək;

3.1.22. xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasının həyata keçirilməsini və tanınmaya dair sənədlərin verilməsini təmin etmək;

3.1.23. vətəndaşların peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə etdikləri bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsi və tanınması məqsədilə imtahanın keçirilməsini və onlara peşə ixtisasını təsdiq edən sənədin verilməsini təmin etmək;

3.1.24. təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarına riayət olunmasına nəzarəti həyata keçirmək;

3.1.25. tədris ilinin müddətinin müəyyən edilməsinə dair təkliflər vermək;

3.1.26. yeni təhsil proqramlarının (ixtisasların) açılması qaydalarını müəyyən etmək;

3.1.27. təhsilin bir pilləsindən və ya səviyyəsindən digərinə keçid zamanı təhsil proqramının (ixtisasın) uyğunluğuna dair tələbləri müəyyən etmək;

3.1.28. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, təhsil müəssisələrinin (dövlət təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinə lisenziya verilməsi ilə əlaqədar rəy vermək, verilmiş lisenziyanın şərtlərinə riayət olunmasına nəzarətin həyata keçirilməsini təmin etmək, lisenziya sahibinin lisenziya şərtlərinə riayət etməməsi hallarını aşkar etdikdə lisenziyanın dayandırılması və ləğvi üçün lisenziya verən orqana təqdimat göndərmək;

3.1.29. elmi müəssisə və təşkilatlara, təhsil müəssisələrinə elmi-metodiki və tədris-metodiki rəhbərliyin həyata keçirilməsini təmin etmək;

3.1.30. digər dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisələrində təhsilalanların peşəyönümü işinin təşkilinə nəzarət etmək;

3.1.31. ümumi təhsil müəssisələrinin beynəlxalq qiymətləndirmə proqramlarında iştirakı barədə qərar qəbul etmək;

3.1.32. təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsini və onlara akkreditasiya şəhadətnaməsinin verilməsini təmin etmək;

3.1.33. məktəbəqədər təhsil müəssisələrinin yaradılmasını və inkişafını təşviq edən mexanizmlərin həyata keçirilməsini təmin etmək;

3.1.34. təhsil sahəsində qeyri-dövlət sektorunun dəstəklənməsi və rəqabət mühitinin inkişafı məqsədilə özəl və bələdiyyə təhsil müəssisələrinin yaradılmasını və inkişafını təşviq etmək, dəstəkləmək, onlara metodiki kömək göstərmək;

3.1.35. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar və ali təhsil müəssisələri istisna olmaqla, tabeliyində olan təhsil müəssisələrinin, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin təklifi əsasında onların tabeliyində yaradılması nəzərdə tutulan təhsil müəssisələrinin nizamnamələrini təsdiq etmək, habelə bələdiyyə və özəl təhsil müəssisələrinin nizamnamələrinə rəy vermək;

3.1.36. təsisçisi (təsisçiləri) əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və ya xarici hüquqi şəxslər olan, o cümlədən nizamnamə kapitalının və ya səhmlərinin 51 faizindən çoxu əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və ya xarici hüquqi şəxslərə məxsus təhsil müəssisəsinin rəhbərinin və onun müavininin namizədliyinə razılıq vermək;

3.1.37. təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodiki vasitələrinin müəyyən edilmiş qaydada hazırlanmasını, təsdiqlənməsini və nəşrini təmin etmək;

3.1.38. elm və təhsil fəaliyyətinin səmərəli təşkilinə, idarə edilməsinə və inkişafına, maddi-texniki baza, infrastruktur, avadanlıq, yüksəkixtisaslı elmi və pedaqoji kadrlar, informasiya və digər zəruri vasitələrlə təminatına şərait yaratmaq;

3.1.39. elmi fəaliyyət subyektlərinin elmi istinadlı informasiya resurslarına çıxışının təmin edilməsini dəstəkləmək;

3.1.40. müvafiq sahədə planlaşdırma, proqnozlaşdırma, əlaqələndirmə və qiymətləndirmənin (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) həyata keçirilməsini təmin etmək;

3.1.41. maddi-texniki və tədris bazasının yenilənməsi məqsədilə dövlət məktəbəqədər, ümumi və peşə təhsili müəssisələrinin ümumtəhsil və ixtisas dərslikləri, tədris vəsaitləri, ədəbiyyat, əyani və texniki vəsaitlərlə təmin edilməsini həyata keçirmək;

3.1.42. tabeliyində olan təhsil müəssisələrində tam dövlət təminatında olan təhsilalanların yemək, paltar, ayaqqabı, şəxsi gigiyena əşyaları, yumşaq inventar, yataq ləvazimatı, dərslik, tədris ləvazimatı, zəruri avadanlıqlarla və s. ilə təmin edilməsini həyata keçirmək;

3.1.43. dövlət təhsil müəssisələrinin (yerli icra hakimiyyəti orqanlarının tabeliyində olan uşaq evləri istisna olmaqla) tədris, elmi, elmi-metodik, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər texniki vasitələrlə təminatının həyata keçirilməsini təmin etmək;

3.1.44. dövlət elmi müəssisə və təşkilatlarının, təhsil müəssisələrinin işçilərinin əməyinin stimullaşdırılmasına, o cümlədən onların mükafatlandırılmasına dair təkliflər vermək;

3.1.45. tabeliyində olan məktəbəqədər, ümumi və peşə təhsil müəssisələrinin təhsilverənlərə (pedaqoji kadrlara) tələbatının müəyyən edilməsini, habelə həmin müəssisələrin kadr təminatının həyata keçirilməsini təmin etmək;

3.1.46. tabeliyində olan təhsil müəssisələrində təhsil fəaliyyətinin təşkilində və təlim-tərbiyə prosesində müasir təhsil texnologiyalarının və innovasiyaların tətbiqinə şərait yaratmaq;

3.1.47. tabeliyində olan təhsil müəssisələrində çalışan təhsilverənlərin əlavə təhsilini təmin etmək;

3.1.48. dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinin idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərinin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsinin həyata keçirilməsini təmin etmək;

3.1.49. dövlət məktəbəqədər və ümumi təhsil müəssisələrinin (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrinin) təhsilverənlərinin sertifikatlaşdırılmasının həyata keçirilməsini təmin etmək;

3.1.50. dövlət təhsil müəssisələrinin (adambaşına maliyyələşən təhsil müəssisələri istisna olmaqla) nümunəvi ştatlarının və xərc normalarının müəyyən edilməsinə dair təkliflər vermək;

3.1.51. tabeliyində olan elmi müəssisə və təşkilatlar, təhsil müəssisələri üzrə tələb olunan dövlət büdcəsi vəsaitinə dair proqnozları hazırlamaq, bununla bağlı təkliflərini təqdim etmək və ayrılmış vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarəti təmin etmək;

3.1.52. hər büdcə ili üzrə dövlət təhsil sisteminin maliyyələşdirilməsi məqsədilə hər bir təhsilalana (uşağa, şagirdə, tələbəyə, doktoranta və s.) düşən təhsil xərclərinin miqdarına və maliyyə normativlərinə dair təkliflər vermək;

3.1.53. təhsili idarəetmə orqanlarının, elmi müəssisə və təşkilatların, təhsil müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsini və istiqamətləndirilməsini təşkil etmək;

3.1.54. elmi müəssisə və təşkilatlarda, təhsil müəssisələrində aparılan elmi araşdırmaların əlaqələndirilməsi, elmi tədqiqat işlərinin dəstəklənməsi və mükafatlandırılması istiqamətində tədbirlər görmək;

3.1.55. elmi kadr tələbatını müəyyən etmək və həmin tələbata uyğun olaraq dövlət sifarişi əsasında elmi və elmi-pedaqoji kadrların hazırlanması ilə bağlı təkliflər vermək;

3.1.56. müvafiq sahədə əlverişli investisiya mühitinin yaradılması üçün təkliflər vermək;

3.1.57. Azərbaycan Respublikası vətəndaşlarının yüksəkreytinqli xarici ali təhsil müəssisələrində və elm-təhsil mərkəzlərində təhsilinin təşkili və elmi fəaliyyəti üçün tədbirlər görülməsini təmin etmək;

3.1.58. elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi istiqamətində tədbirlər görülməsini təmin etmək;

3.1.59. dövlət peşə təhsili müəssisələrində təhsilalanların xüsusi iş geyim formaları ilə təmin olunmasına nəzarət etmək;

3.1.60. təhsilverənlərin etik davranış qaydalarını müəyyən etmək;

3.1.61. peşə təhsili müəssisələrinə tələbə qəbulunun həyata keçirilməsini təmin etmək;

3.1.62. tabeliyində olan ümumi təhsil müəssisələrinə, məktəbəqədər təhsil müəssisələrinə, ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına uşaqların qəbulunun, həmçinin şagirdlərin sinifdən-sinfə keçirilməsinin və yerdəyişməsinin həyata keçirilməsini təmin etmək;

3.1.63. təhsil müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı lazımi tədbirlər görmək, uşaq, şagird və tələbələrin idman yarışlarında, turist yürüşlərində iştirakına, onların texniki və bədii yaradıcılığına, digər tədbirlərə dəstək verilməsini təmin etmək;

3.1.64. fiziki tərbiyə dərslərinin və idman məşğələlərinin yüksək səviyyədə keçirilməsi, tədris planlarına və təhsil standartlarına uyğun olaraq çağırışaqədər yaşlı gənclərin və çağırışçıların hərbi xidmətə zəruri fiziki hazırlığının təmin edilməsi, habelə təhsilalanların müəyyən edilmiş idman normativlərini yerinə yetirə bilməsinə şəraitin yaradılması üçün tədbirlər görmək;

3.1.65. müvafiq sahədə statistik məlumatları və hesabatları toplamaq, təhlil etmək və nəticələrini müvafiq orqanlara təqdim etmək;

3.1.66. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.67. təhsil müəssisələrinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə qoşulmasını və ondan istifadəsini təmin etmək;

3.1.68. Nazirliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək;

3.1.69. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.1.70. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.71. Nazirliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.72. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək, pozulmasının qarşısını almaq;

3.1.73. Nazirlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.74. Nazirliyə daxil olan təklifləri ümumiləşdirmək və tədbirlər görmək;

3.1.75. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Nazirliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Nazirlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

4.1.2. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.3. elmi müəssisə və təşkilatlardan, təhsil müəssisələrindən fəaliyyət istiqamətlərinə uyğun olaraq hesabat və məlumatlar almaq;

4.1.4. fəaliyyət istiqamətlərinə uyğun olaraq, o cümlədən elmdə və təhsildə inkişaf və innovasiyalar üzrə hüquqi və fiziki şəxslərə qrantların verilməsini təmin etmək;

4.1.5. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, tədqiqatlar və araşdırmalar aparmaq, monitorinqlər keçirmək, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək, bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait çərçivəsində elmi tədqiqat işlərinin aparılmasını təmin etmək;

4.1.6. müstəqil ekspert və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.7. müvafiq sahədə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.1.8. elm və təhsil işçilərinin həvəsləndirilməsi, mükafatlandırılması, onlara dövlət təltiflərinin və fəxri adların verilməsi ilə bağlı tədbirləri həyata keçirmək;

4.1.9. dövlət elmi müəssisə və təşkilatlarında, təhsil müəssisələrində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsinə, maddi rifahının yaxşılaşdırılmasına və onlara dövlət qayğısının artırılmasına dair təkliflər vermək;

4.1.10. dövlət elmi müəssisə və təşkilatlarının, təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə təkliflər vermək;

4.1.11. çap mediası və onlayn media subyektini təsis etmək;

4.1.12. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.13. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək, danışıqlar aparmaq və danışıqlar aparılmasında iştirak etmək, beynəlxalq müqavilələrin layihələrini hazırlamaq və ya hazırlanmasında iştirak etmək;

4.1.14. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Nazirliyin fəaliyyətinin təşkili**

5.1. Nazirliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.), habelə Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanı Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Nazirliyin strukturunu Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Nazirliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini, Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Azərbaycan Respublikasının elm və təhsil naziri (bundan sonra – nazir) rəhbərlik edir. Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün nazir şəxsən məsuliyyət daşıyır.

5.4. Nazirin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən dörd müavini vardır. Nazir müavinləri nazirin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.5. Nazir:

5.5.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. nazir müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin digər vəzifəli şəxslərinin kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.3. Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və elmi-texniki şurasının əsasnamələrinin, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) nizamnamələrinin təsdiqi barədə, həmçinin bu Əsasnamənin 5.11-ci bəndində Nazirliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

5.5.4. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Nazirliyin strukturuna daxil olan qurumların, Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) nizamnamələrini (əsasnamələrini) təsdiq üçün təqdim edir;

5.5.5. Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların fəaliyyətinə nəzarəti təşkil edir və onların işinin əlaqələndirilməsini təmin edir;

5.5.6. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bu Əsasnamənin 5.5.7-ci yarımbəndi nəzərə alınmaqla) strukturunu, ştat cədvəlini, əməyin ödənişi fondunu və ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

5.5.7. tabeliyində olan publik hüquqi şəxslərin (Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) strukturunu, əməyin ödənişi fondunu, işçilərin say həddini və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini təsdiq edir, onların ştat cədvəlinin və ayrılmış büdcə təxsisatı çərçivəsində gəlir və xərclər smetasının təsdiq edilməsinə razılıq verir;

5.5.8. Nazirliyin Aparatının işçilərini, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini (Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla) və onların müavinlərini (ali təhsil müəssisələrində prorektorları), strukturuna daxil olan qurumların yerli bölmələrinin rəhbərlərini, həmçinin ali təhsil müəssisələrinin filial və nümayəndəliklərinin rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.5.9. Nazirliyin strukturuna daxil olan qurumların yerli bölmələri rəhbərlərinin müavinlərinin və yerli bölmələrin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərinin, eləcə də Nazirliyin strukturuna daxil olan qurumların strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.10. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.5.11. Nazirliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.12. Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət orqanları (qurumları) ilə, hüquqi və fiziki şəxsləri ilə, habelə beynəlxalq təşkilatlarla münasibətlərdə Nazirliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq beynəlxalq sənədləri imzalayır;

5.5.13. fəaliyyət istiqamətlərinə aid məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitin formalaşdırılması ilə bağlı təkliflər verir;

5.5.14. dövlət büdcəsindən ayrılmış vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir;

5.5.15. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə tabeliyində olan təhsil müəssisələrinin göstərdiyi ödənişli təhsil xidmətlərindən və tabeliyində olan digər qurumların gördüyü işlərdən (göstərdiyi xidmətlərdən) əldə olunan gəlirlərin sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Nazirliyin işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.16. Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

5.5.17. Nazirliyin Aparatının işçilərinə, strukturuna daxil olan qurumların rəhbərlərinə və onların müavinlərinə, habelə strukturuna daxil olan qurumların yerli bölmələrinin rəhbərlərinə dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri verir.

5.6. Nazir öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

5.7. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.

5.8. Nazirlikdə nazirdən (Kollegiyanın sədrindən), nazirin müavinlərindən, Naxçıvan Muxtar Respublikasının aidiyyəti icra hakimiyyəti orqanının rəhbərindən və Nazirliyin digər rəhbər işçilərindən ibarət tərkibdə Kollegiya yaradılır. Nazirliyin Kollegiyasının tərkibinə mütəxəssislər və alimlər də daxil edilə bilərlər.

5.9. Nazirliyin Kollegiyası üzvlərinin sayını və Kollegiyanın tərkibini Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.10. Nazirliyin Kollegiyası öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələlərə baxır və müvafiq qərarlar qəbul edir.

5.11. Nazirliyin Kollegiyası qərar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

5.11.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

5.11.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktları;

5.11.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

5.11.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

5.11.5. Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları;

5.11.6. nazirin təşəbbüsü ilə Nazirliyin Kollegiyasının müzakirəsinə çıxarılan bu Əsasnamənin 5.5.3-cü yarımbəndində nəzərdə tutulmuş normativ hüquqi aktları;

5.11.7. bu Əsasnamənin 5.11.1–5.11.6-cı yarımbəndlərinə uyğun olaraq Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.

5.12. Nazirliyin Kollegiyasının iclasları Kollegiya üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Nazirliyin Kollegiyasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin Kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Kollegiya sədrinin səsi həlledici hesab edilir.

5.13. Nazirliyin Kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda nazir bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat verərək, öz qərarını həyata keçirir. Nazirliyin Kollegiyasının üzvləri şəxsi fikirlərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edə bilərlər.

5.14. Nazirliyin Kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının), habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri də dəvət edilə bilərlər.

5.15. Nazirlikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin öz sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin və ya onun struktur (yerli) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərinə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.

5.16. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi, habelə elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi tədqiqat fəaliyyətlərinin əlaqələndirilməsi və istiqamətləndirilməsi məqsədilə Nazirlikdə ictimai əsaslarla fəaliyyət göstərən şuralar yaradıla bilər.

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin əsasnaməsi

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra – Nazirlik) yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi (bundan sonra – Agentlik) məktəbəqədər və ümumi təhsil sahələrində (bundan sonra – müvafiq sahə) dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, məktəbəqədər, ümumi və məktəbdənkənar təhsil müəssisələrinin (bundan sonra – təhsil müəssisləri) fəaliyyətini tənzimləyən, əlaqələndirən və onların fəaliyyətinə dövlət nəzarətini həyata keçirən, Nazirliyin strukturuna daxil olan qurumdur.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə normativ hüquqi bazanın formalaşdırılmasında iştirak etmək;

2.1.4. təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və əlaqələndirilməsi üçün tədbirlər görmək;

2.1.5. təhsil müəssisələrində nəticəyönlü, şəffaf və səmərəli idarəetmə modelini formalaşdırmaq və bu prosesdə müasir idarəetmə texnologiyalarından istifadəni təmin etmək;

2.1.6. təhsil proqramları vasitəsilə təhsilalanlara sistemləşdirilmiş bilik, bacarıq və səriştələrin aşılanmasını, onların ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlanmasını təmin etmək;

2.1.7. təhsilverənlərin peşəkarlığının davamlı şəkildə artırılması işini təşkil etmək;

2.1.8. təhsilalanların milli-mənəvi dəyərlər, vətənpərvərlik və azərbaycançılıq ideyaları ruhunda tərbiyə olunması istiqamətində tədbirlər görmək;

2.1.9. müvafiq sahədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak etmək.

**3. Agentliyin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların hazırlanmasında iştirak etmək, onlara dair rəy vermək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların layihələrinin hazırlanmasında iştirak etmək və onların həyata keçirilməsini təmin etmək;

3.1.3. təhsil müəssisələrində beynəlxalq standartlara cavab verən təhsil şəraiti və mühitinin yaradılması üçün tədbirlər görmək;

3.1.4. məktəbəqədər və ümumi təhsilin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi məqsədilə müxtəlif istiqamətli layihələri həyata keçirmək;

3.1.5. təhsildə inkişaf və innovasiyalar üzrə qrant layihələrini həyata keçirmək;

3.1.6. təhsil müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarət etmək;

3.1.7. təhsil müəssisələrinə tədris-metodiki rəhbərliyi həyata keçirmək;

3.1.8. təhsil proqramlarına (kurikulumlara), tədris planlarına və proqramlarına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.9. məktəbyaşlı uşaqların icbari ümumi orta təhsilə cəlb edilməsi və icbari ümumi orta təhsilin həyata keçirilməsi üçün tədbirlər görmək;

3.1.10. təhsil müəssisələrində sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində müvafiq şərait yaradılmasının təşkilinə nəzarət etmək;

3.1.11. rayon, şəhər psixoloji-tibbi-pedaqoji komissiyalarını yaratmaq və onların fəaliyyətini təşkil etmək;

3.1.12. sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmətin təşkilinə nəzarəti təmin etmək;

3.1.13. nitq pozuntusu olan təhsilalanlara kömək məqsədilə loqopedik xidmətin təşkilini təmin etmək;

3.1.14. digər dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisələrində təhsilalanların peşəyönümü işinin təşkilində iştirak etmək;

3.1.15. müxtəlifsəviyyəli və müxtəlifmiqyaslı fənn olimpiadaları, müsabiqələr və yarışlar keçirmək;

3.1.16. təhsil müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı lazımi tədbirlər görmək, uşaqların və şagirdlərin idman yarışlarında, turist yürüşlərində iştirakına, texniki və bədii yaradıcılığına, digər tədbirlərə dəstək vermək;

3.1.17. fiziki tərbiyə dərslərinin və idman məşğələlərinin yüksək səviyyədə keçirilməsini, tədris planlarına və təhsil standartlarına uyğun olaraq çağırışaqədər yaşlı gənclərin və çağırışçıların hərbi xidmətə zəruri fiziki hazırlığını təmin etmək, habelə təhsilalanların müəyyən edilmiş idman normativlərini yerinə yetirə bilməsi üçün şərait yaratmaq;

3.1.18. xüsusi istedada malik təhsilalanların müəyyənləşdirilməsi və təhsillərinin davam etdirilməsinin stimullaşdırılması üçün tədbirlər görmək;

3.1.19. tədris dilini zəif bilən təhsilalanlar üçün təhsil proqramlarına uyğun hazırlıq siniflərinin və kurslarının təşkil edilməsi üçün tədbirlər görmək;

3.1.20. dövlət ümumi təhsil müəssisələrində təhsilini dövlət təhsil standartları əsasında digər dildə almaq istəyən şagirdlərin təhsil almaq istədikləri tədris dili üzrə müsahibədən keçirilməsi üçün tədbirlər görmək;

3.1.21. təhsil müəssisələrində pedaqoji işçilərin dərs yükü normalarına riayət olunmasına nəzarət etmək;

3.1.22. təhsil müəssisələrinin (dövlət təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinə lisenziya verilməsi ilə əlaqədar rəy verilməsində iştirak etmək;

3.1.23. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, tabeliyində olan təhsil müəssisələrinin, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin təklifi əsasında onların tabeliyində yaradılması nəzərdə tutulan təhsil müəssisələrinin nizamnamələrinə dair Nazirliyə rəy vermək;

3.1.24. ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası istisna olmaqla, təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmə) həyata keçirilməsinə nəzarət etmək;

3.1.25. tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə, ümumi təhsil müəssisələrinə, ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına uşaqların qəbulunun, habelə şagirdlərin sinifdən-sinfə keçirilməsinin və yerdəyişməsinin həyata keçirilməsini təşkil etmək;

3.1.26. dövlət ümumi təhsil müəssisələrində günüuzadılmış qrupların təşkil edilməsinə nəzarət etmək;

3.1.27. müvafiq sahədə planlaşdırmanı, proqnozlaşdırmanı, əlaqələndirməni və qiymətləndirməni (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) həyata keçirmək;

3.1.28. dövlət təhsil müəssisələrinin dərsliklərlə, dərs vəsaitləri və digər tədris-metodiki vasitələr, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər əyani və texniki vasitələrlə təminatını həyata keçirmək;

3.1.29. tabeliyində olan təhsil müəssisələrində tam dövlət təminatında olan təhsilalanları yemək, paltar, ayaqqabı, şəxsi gigiyena əşyaları, yumşaq inventar, yataq ləvazimatı, dərslik, tədris ləvazimatı, zəruri avadanlıqla və s. ilə təmin etmək;

3.1.30. dövlət təhsil müəssisələri işçilərinin əməyinin stimullaşdırılmasına, o cümlədən onların mükafatlandırılmasına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.31. tabeliyində olan məktəbəqədər və ümumi təhsil müəssisələrinin təhsilverənlərə (pedaqoji kadrlara) tələbatı barədə məlumatı Nazirliyə təqdim etmək;

3.1.32. tabeliyində olan təhsil müəssisələrində təlim-tərbiyə prosesində müasir təhsil texnologiyalarının və innovasiyaların tətbiqi üçün tədbirlər görmək;

3.1.33. tabeliyində olan təhsil müəssisələrinə münasibətdə təhsilverənlərin əlavə təhsilinin təmin edilməsi üçün tədbirlər görmək;

3.1.34. təhsil müəssisələrində təhsilin və təlim-tərbiyə prosesinin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək;

3.1.35. tabeliyində olan təhsil müəssisələri üzrə tələb olunan dövlət büdcəsi vəsaitinə dair proqnozları hazırlayaraq Nazirliyə təqdim etmək və ayrılmış vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək;

3.1.36. müvafiq sahədə əlverişli investisiya mühitinin yaradılması üçün təklifləri Nazirliyə təqdim etmək;

3.1.37. müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və ümumiləşdirmək;

3.1.38. ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin tətbiqi üçün tədbirlər görmək;

3.1.39. dövlət təhsil müəssisələrində pedaqoji şuraların təsdiq edilmiş əsasnaməyə uyğun təşkilinə və fəaliyyətinə nəzarət etmək;

3.1.40. müvafiq sahədə statistik məlumatları və hesabatları toplamaq, təhlil etmək və nəticələrini müvafiq orqanlara təqdim etmək;

3.1.41. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.42. təhsil müəssisələrinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndən istifadəsini təmin etmək;

3.1.43. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.44. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.45. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.46. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.47. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.48. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.49. Agentliyin fəaliyyətinin nəticələri barədə Nazirliyə hesabat təqdim etmək;

3.1.50. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normativ hüquqi aktın qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh olunması, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında təklifləri Nazirliyə təqdim etmək;

4.1.2. təhsil müəssisələrindən fəaliyyət istiqamətlərinə uyğun olaraq hesabat və məlumatlar almaq;

4.1.3. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.4. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, tədqiqatlar və araşdırmalar aparmaq, monitorinqlər keçirmək, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək;

4.1.5. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq təhsil müəssisələri işçilərinin həvəsləndirilməsini və mükafatlandırılmasını həyata keçirmək, onlara dövlət təltiflərinin və fəxri adların verilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

4.1.7. dövlət təhsil müəssisələrində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsinə, maddi rifahının yaxşılaşdırılmasına və onlara dövlət qayğısının artırılmasına dair təklifləri Nazirliyə təqdim etmək;

4.1.8. dövlət təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə təklifləri Nazirliyə təqdim etmək;

4.1.9. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək, belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.10. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti dövlət orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək;

4.1.11. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentlik öz fəaliyyətini Aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.) vasitəsilə həyata keçirir.

5.2. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Agentliyin direktoru Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Agentlik direktorunun Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən üç müavini vardır.

5.4. Agentlik direktorunun müavinləri vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

5.5. Agentliyin direktoru:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Agentliyi təmsil edir;

5.5.3. müəyyən edilmiş əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin strukturunu, ştat cədvəlini, gəlir və xərclər smetasını təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.4. strukturuna daxil olan qurumların əsasnamələrini, habelə tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.5. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.6. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində, Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bu Əsasnamənin 5.5.7-ci yarımbəndi nəzərə alınmaqla) strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirlər daxilində onların gəlir və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

5.5.7. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində tabeliyində olan publik hüquqi şəxslərin (Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) ştat cədvəlinin, əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin və ayrılmış büdcə təxsisatı çərçivəsində gəlir və xərclər smetasının təsdiq edilməsinə razılıq verir;

5.5.8. Agentlik direktorunun müavinləri istisna olmaqla, Agentliyin digər işçilərini və Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərinin müavinlərini, eləcə də Nazirliklə razılaşdırmaqla, Agentliyin strukturuna daxil olan yerli bölmə rəhbərlərinin müavinlərini, yerli bölmələrin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini və Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür, əlavə təhsili üçün müvafiq tədbirlər görür;

5.5.9. strukturuna daxil olan yerli bölmələrin şöbə müdirlərinin və onların müavinlərinin, həmçinin strukturuna daxil olmayan tabeliyindəki təhsil müəssisələrinin filial və nümayəndəliklərinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.10. Agentlik direktorunun müavinləri və strukturuna daxil olan yerli bölmələrin rəhbərləri istisna olmaqla, Agentliyin digər dövlət qulluqçularına, habelə strukturuna daxil olan yerli bölmə rəhbərlərinin müavinlərinə qanunla müəyyən edilmiş qaydada dövlət qulluğunun ixtisas dərəcələrini verir;

5.5.11. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir, Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.12. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim edir;

5.5.13. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.5.14. Agentliyin fəaliyyəti barədə Nazirliyə hesabat verir;

5.5.15. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Agentliyin işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.16. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin xərclənməsinə dair hesabatları rübdə bir dəfə Nazirliyə təqdim edir;

5.5.17. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən elmi-metodik şuranın yaradılması barədə Nazirliyə təkliflər verir.

## YAP Mərkəzi Aparatının rəhbəri Kambocada parlament seçkilərini müşahidə edib



**Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının nümayəndə heyətinin üzvü – Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov parlament seçkilərini müşahidə etmək məqsədilə Kamboca Krallığına səfər edib.**

Səfər çərçivəsində ICAPP missiyasının üzvləri bir sıra görüşlərdə və seçki prosesinin müşahidəsində iştirak ediblər. Onları Krallığın Baş naziri, Kamboca Xalq Partiyasının prezidenti Hun Sen qəbul edib. Sonra nümayəndə heyəti FUNCİNPEC Partiyasının prezidenti, kral ailəsinin üzvü Norodom Çakravut və "Grassroots" Demokratik Partiyasının rəhbəri Yeng Virakla da görüşüblər.

***"Xalq qəzeti"***

## Partlayışla bağlı cinayət işi açılıb

***Müdafiə Sənayesi Nazirliyinin Şirvan şəhərində yerləşən zavodunda sursat partlayışı nəticəsində 1966-cı il təvəllüdlü Mehman Əhmədovun ölməsi, 1978-ci il təvəllüdlü Səbinə Şəkərovanın isə xəsarətlər alması faktı ilə bağlı Şirvan Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanaraq, ibtidai istintaq aparılır.***

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib.

***

***Müdafiə Sənayesi Nazirliyinin Şirvan şəhərində yerləşən zavodunda bir nəfərin ölümü, bir nəfərin isə xəsarət alması ilə nəticələnən sursat partlayışı üzrə Şirvan Şəhər Prokurorluğunda araşdırma aparılır.***

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Hazırda hadisə yeri şəhər prokurorluğunun əməkdaşları və prokuror-kriminalist tərəfindən müayinə olunur.

## Baş prokuror Tovuz rayonunda vətəndaşlarla görüşüb



**Dünən Baş prokuror Kamran Əliyev Tovuz Rayon Prokurorluğunun inzibati binasında Tovuz, Şəmkir, Gədəbəy, Ağstafa, Qazax və digər rayonlardan olan vətəndaşlarla görüşüb.**

Qəbulda iştirak edən 27 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin operativ həlli üçün müvafiq göstərişlər verilib.

Həmçinin Baş prokuror "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub, müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.

# DOST-un xidmətləri çoxalır

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü 12 iyul il tarixli Fərmanı ilə DOST mərkəzlərində göstərilən xidmətlərin siyahısına yeniləri də əlavə olunub. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Agentliyinin Müşahidə Şurasının növbəti iclasında bildirilib.**



Şuranın sədri, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramının nailiyyətlərindən biri kimi, 2019-cu ilin may ayında DOST Agentliyi və bundan sonra 6 DOST mərkəzi açıldığı, ötən dövrdə bu mərkəzlərdə 1 milyon 616 mindən çox vətəndaşa xidmət göstərildiyi, xidmətlərdən vətəndaş məmnunluğu səviyyəsinin 98,2 faiz təşkil etdiyi barədə məlumat verib.

S.Babayev ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sayəsində Azərbaycanda dövlət sosial xidmətlərinin müasir və çevik, tam şəffaf mexanizmlər üzərindən, "bir pəncərə"dən, innovativ əsasda təqdim edildiyini vurğulayıb.

Həmçinin bu ilin sentyabr ayında DOST Agentliyinin təşəbbüsü ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi, habelə DOST Agentliyinin yaradılmasının 5 illiyi münasibətilə Azərbaycanda ilk dəfə sosial xidmətlər sahəsində "DOST 2023: çevik, innovativ və davamlı xidmətlərin göstərilməsi üçün vahid platforma" adlı beynəlxalq konfransın keçiriləcəyini diqqətə çatdırıb.

Bildirilib ki, regional DOST infrastrukturunun qurulması ilə bütün ölkə əhalisi, o cümlədən işğaldan azad edilmiş ərazilərimizin sakinləri DOST xidmətləri ilə tam əhatə olunacaq.

DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov tərəfindən qurumun builki fəaliyyətinə və hədəflərinə dair təqdimat edilib.

F.Məmmədov bildirib ki, bu ilin yanvar–iyun aylarında DOST mərkəzləri tərəfindən 347 min vətəndaşa xidmət göstərilib və DOST xidmətlərindən



vətəndaşların məmnunluq səviyyəsi 97,8 faiz təşkil edib. Hazırda fəaliyyət göstərən 6 DOST mərkəzində sosial sahələr üzrə 154 xidmət "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ şəkildə təqdim olunur. "Könüllü DOST" proqramına isə son 6 ayda daha 13 min 983 müraciət olub və proqrama daha 757 nəfər cəlb edilib. Hazırda Naxçıvan, Bərdə, Quba, Sabirabad, Sumqayıt, Gəncə, Masallı, Şuşada da DOST xidmətləri infrastrukturlarının qurulması üçün işlər aparılır.

İclasda DOST Agentliyinin fəaliyyəti ilə bağlı məsələlər, strateji məqsədlər və prioritetlər müzakirə olunub.

*Z.HÜSEYNOVA, "Xalq qəzeti"*

## Hünər ekranı

# Şuşanı görməyən şuşalı qəhrəman haqqında film

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan – İraq" Mədəni Əlaqələr İctimai Birliyi "neo-təbliğat" adlı layihə əsasında "Şuşalı qəhrəman İsrafil İbrahimov: "Yalnız irəli - 4" sənədli filminin çəkilişlərinə start verib. Sentyabrın sonunadək başa çatacaq layihə haqqında İctimai Birliyin rəhbəri Tahirə Məmmədova məlumat verərək bildirib:**

Gənclərimizin azərbaycançılıq ideologiyası və hərbi-vətənpərvərlik ruhunda formalaşmasına, yeni nəslin milli-mənəvi dəyərlərlə böyüməsinə, sahib olduqları vizual-virtual məhsulların, məlumatların hazırlanaraq geniş təbliğatına, tanıtımına və s. xüsusi önəm verilməlidir. Bu baxımdan II Qarabag müharibəsində iştirak edərək, canlarını Vətən uğrunda fəda edən şəhid qəhrəmanlarımızın geniş kütlələrə tanıdılması, onların müqəddəs amallarının təbliği, gənclərdə vətənpərvərlik hissinin, azərbaycansevərliyin daha da gücləndirilməsi çox vacibdir. II Qarabağ savaşında baş verənlər bir daha sübut etdi ki, Vətən torpağı yağı düşmənlərin təhdidlərinə məruz qalanda belə, onun uğrunda canını vermək və ən qatı düşmənə də qalib gəlmək mümkündür.

Əslən Qarabağdan olan şəhid qəhrəmanlar haqqında ərsəyə gələn ekran işi "neo-maarifçilik" tanıtım və təqdimatlar vasitəsilə geniş real və virtual kreativ-vətənpərvərlik aksiyaları keçirmək, Vətənə diqqət, sayğı və sevgi



aşılamaq, torpaqlarımız uğrunda canını fəda edənlərin simasında dəyərli şəxslərə xalqın, gənclərimizin ehtiramını artırmaq qarşımızda duran aktual məsələlərdəndir.

Əlavə edək ki, şuşalılar haqqında vizual ensiklopediyanın bir hissəsi olan "Yalnız irəli - 4" sənədli filmi, Qarabağ uğrunda qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə qalxmış igid hərbçi İsrafil Zülfüqar oğlu İbrahimovun həyat və döyüş yolundan bəhs edir. O, Vətən müharibəsində iştirak edərək, Cəbrayıl, Qubadlı, Laçın uğrunda döyüşlərdə igidlik göstərmiş peşəkar hərbçilərdən biri olub. Ömründə bir dəfə də olsa Şuşanı görməyən bu qəhrəmanın şərəfli döyüş yolu, Vətənə xidmətləri gənclərimizə nümunədir.

Xatırladaq ki, 1997-ci il oktyabrın 16-da Bakıda anadan olan kiçik çavuş rütbəli İsrafil Zülfüqar oğlu İbrahimov Lənkəranda Sərhəd qoşunlarında xidmət edib. 2017-ci ilin mayında hərbi xidməti başa vurub. Xüsusi Hərbi hissədə sülhməramlı qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb,1 il 6 ay qulluqdan sonra könüllü olaraq xüsusi təyinatla ön cəbhəyə göndərilib. Cəbrayıl, Qubadlı,Laçın uğrunda döyüşlərdə iştirak edib. 16 oktyabr 2020-ci ildə Laçın uğrunda ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra göstərdiyi igidliyə görə Prezident, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə "Vətənə xidmətə görə 3-cü dərəcəli orden, "Vətən uğrunda", "Cəbrayıl uğrunda", "Qubadlı uğrunda", "Laçın uğrunda" medalları ilə təltif edilib.

*Fidan HÜQUQQIZI, "Xalq qəzeti"*

# Türk dünyasının ortaq dəyəri

**Qardaş Türkiyənin Bayburt şəhərində 27-ci Beynəlxalq Dədə Qorqud Festivalı keçirilib. Ənənəvi mədəniyyət bayramı Dədə Qorqudun zəngin irsinə diqqət çəkmək üçün 1994-cü ildən başlayaraq, hər il iyul ayının üçüncü həftəsində təşkil edilir. Builki tədbirdə də yüzlərlə yerli və xarici qonaq iştirak edib.**



Məqsədi türk dünyasının ortaq dəyərlərindən olan Dədə Qorqudla bağlı görülən işlərə nəzər salmaq, bu sahədə yaradılan əsərlərlə bağlı fikir mübadiləsi aparmaq, tarixi irsimizlə bağlı qarşıda duran vəzifələri müəyyənləşdirmək olan festivalın iştirakçıları əvvəlcə Oğuz elinin atasının Bayburtda Gənc Osman məhəlləsi Akşemsettin küçəsində yerləşən məzar-türbəsi ziyarət edib, önünə əklil qoyublar. Əfsanəyə görə, Dədə Qorqudun məzarı məhz bu şəhərdə yerləşir. Ən qədim türk dastanı olan "Kitabi Dədə Qorqud"da bəhs edilən qəhrəmanlıq hekayələri bu günə qədər türk tarixinə və mədəni keçmişinə işıq salmağa davam edir.

Qeyd edək ki, 2018-ci il noyabrın 28-də Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında qəbul edilmiş qərarla Azərbaycan, Türkiyə və Qazaxıstanla birgə təqdim etdiyi "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli mədəniyyət nümunəsi kimi UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmişdir.

Dədə Qorqud Türk mədəniyyətinin ən mühüm simvollarından biridir. Ölməz Dədə Qorqud irsi nümunəsi qardaş ölkələrdə birlik, bərabərlik və müxtəlifliyi, həmçinin xalqlarımızın ailə dəyərlərini, qadının cəmiyyətdə rolu, qonaqpərvərlik və ədalət prinsiplərini təbliğ etdiyini ifadə edir.

Bayramsayağı açılış mərasiminin proqramı zəngin və yaddaqalan olub. Festival panel müzakirələrə davam edib. Dədə Qorqud irsinin öyrənilməsi, bu mövzuda yaradılan ekran əsərləri, nəşr olunan kitablar və sair barədə məlumatlar yayılıb. Festival çərçivəsində milli yeməklərin təqdimatı, sərgilər, konsertlər, folklor tamaşaları, konfranslar və digər mədəni tədbirlər keçirilib.

*"Xalq qəzeti"*

## BEYNƏLXALQ HƏYAT

# Tramp Baydeni tənqid edib

## "ABŞ-ı nə edəcəyini başa düşməyən adam idarə edir"

**ABŞ-ın keçmiş prezidenti Donald Tramp hazırkı dövlət başçısı Co Baydeni Pentaqonun silah-sursatının olmadığı barədə açıqlamasına görə tənqid edib. Donald Tramp "Fox News"-a müsahibəsində deyib: "O, Çinə və digər düşmən ölkələrə bildirir ki, bizim sursatımız yoxdur. Bunu demək üçün nə qədər axmaq olmalısan?".**



Onun sözlərinə görə, hərbi arsenalın tükənməsindən daha pisi bu sahədə problemlər barədə açıq bəyanat ola bilər. Eks-prezident vurğulayıb ki, ABŞ ən təhlükəli dövrünü yaşayır: "Bütün dünyada nüvə müharibəsi təhlükəsi artır, belə bir dövrdə ölkəni nə edəcəyini başa düşməyən adam idarə edir, bu isə çox təhlükəlidir".

Bundan əvvəl, iyulun 18-də Tramp seçkilərdə qalib gələcəyi təqdirdə Avropadan ABŞ-ın Ukraynaya göstərdiyi yardım xərclərini ödəməyi tələb edəcəyini bildirmişdi. O, həmçinin Baydeni ölkəni üçüncü dünya müharibəsinə sürükləməkdə günahlandırıb və hazırkı administrasiyanın orduda mövcud problemlərə, o cümlədən könüllülərin və silah çatışmazlığına səbəb olduğunu bildirib.

Xatırladaq ki, Rusiyanın 2022-ci il fevralın 24-dən Ukraynaya qarşı davam edən xüsusi əməliyyatı fonunda Qərb ölkələri Kiyevə hərbi və maliyyə dəstəyini gücləndirib. Müvafiq qərar Ukrayna hərbçilərinin hücumları nəticəsində regionda vəziyyətin gərginləşməsi ilə əlaqədar qəbul edilib. Co Bayden də Ukraynaya ABŞ-nin ehtiyatında olan müəyyən sayda artilleriya mərmisi ilə kaset sursatlarının tədarükünə qərar vermişdi. Onun sözlərinə görə, bu müvəqqəti addımdır və Kiyevə kifayət qədər silah istehsal olunana qədər kömək edilməlidir.

Artıq Ukraynada NATO-nun 155 millimetr çaplı mərmi istehsalının yaradılması üzrə işlər aparılır. Bunu Ali Radanın deputatı Yeqor Çernov ümumukrayna telemarafonunun efirində deyib. Onun sözlərinə görə, proqrama 2022-ci ildə start verilib və o vaxtdan istehsal da müşahidə olunur.

Çernov qeyd edib ki, istehsalla təkcə Ukrayna deyil, özəl podratçılar da məşğul olur. Onun sözlərinə görə, ölkədə istehsal olunan mərmi digər dövlətlərdən alınandan 3 dəfə ucuzdur.

# Kiyev Moskva və Krıma dron zərbələri vurub

**Rusiyanın paytaxtı yenidən pilotsuz təyyarələrin hücumuna məruz qalıb. 2 qeyri-yaşayış binasına ziyan dəyib. Moskva meri Sergey Sobyaninin sözlərinə görə, "ciddi dağıntı və təlefat yoxdur".**



Birinci pilotsuz təyyarənin parçaları Komsomolski prospekti 17-də tapılıb. Müşahidəçilər qeyd edirlər ki, Rusiya Silahlı Qüvvələrinin Baş Qərargahına tabe olan Milli Müdafiəyə Nəzarət Mərkəzi hadisə yerindən 200 metr aralıdadır. Bu ünvanda Hərbi Universitet, kiber bölmə və digər "məxfi" qrumlar yerləşir. Uçuş aparatlarının hücumundan bir neçə dəqiqə sonra Andreyevski körpüsündən Müdafiə Nazirliyinin binasını lentə alan şəxs saxlanılıb.

İkinci pilotsuz təyyarə Lixaçov küçəsindəki biznes mərkəzinin yuxarı mərtəbələrinə düşüb. Partlayışlardan sonra tüstü və yanğın olub. Müdafiə Nazirliyi hər iki PUA-nın zərərsizləşdirildiyini bildirib. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova isə Moskvaya dron hücumlarını "beynəlxalq terrorizm aktı" adlandırıb.

Xatırladaq ki, Moskvaya əvvəlki hücum iyulun 4-də olmuşdur.

Bundan başqa, Ukrayna Silahlı Qüvvələri Krım yarımadasına 17 PUA ilə hücum edib. Bu hücum nəticəsində Cankoy rayonunda silah-sursat anbarında partlayış olub. Dağıntılar fərdi yaşayış evlərinə ziyan vurub. Təhlükəsizlik məqsədilə dəmir yolu və Cankoy-Simferopol avtomobil yolunda hərəkət bir neçə saat dayandırılıb. Cankoy rayonundakı fövqəladə vəziyyət yerindən 5 kilometr radiusdakı kəndlərin əhalisinin müvəqqəti yaşayış məntəqələrə təxliyəsi barədə qərar qəbul edilib.

Rusiya Müdafiə Nazirliyinin məlumatında deyilir: "İyulun 24-nə keçən gecə Kiyev rejiminin 17 pilotsuz uçuş aparatı ilə Krım yarımadası ərazisindəki obyektlərə terror aktı törətmək cəhdinin qarşısı alınıb".

Qeyd olunub ki, 14 PUA radioelektron mübarizə vasitələri ilə məhv edilib. Onlardan 11-i Qara dənizə, daha üçü isə yarımadanın ərazisinə düşüb. Qalanları hava hücumundan müdafiə sistemləri tərəfindən vurulub. Hücum zamanı xəsarət alan olmayıb.

# Ukrayna ordusu cənubda və Baxmut yaxınlığında irəliləyib

## *Rusiya isə Odessanın tarixi abidələrini raket hücumu ilə dağıdıb*

**Bir həftə ərzində Ukrayna Silahlı Qüvvələri cənub cəbhəsində və Baxmut istiqamətində irəliləyiş əldə edib. İndi Melitopol və Berdyansk istiqamətində bir neçə rayonda ağır döyüşlər gedir.**



Ukrayna müdafiə nazirinin müavini Anna Malyar bildirib ki, cənubdakı əks-hücum zamanı 192 kvadratkilometrdən çox ərazi azad edilib. Son bir həftə ərzində isə bu istiqamətdə müdafiə qüvvələri düşməni 12 kvadratkilometrdən çox ərazidən çıxarıb.

Eyni zamanda, Baxmut istiqamətində də uğurlar var. Bu istiqamətdə, təxminən, 35 kvadratkilometr, o cümlədən ötən həftə 4 kvadratkilometr ərazi azad edilib.

Rusiya da, öz növbəsində, Ukrayna ərazisinə raket zərbələri endirib. Odessanın mərkəzinə müxtəlif tipli 19 raket atılıb. Hava hücumundan müdafiə qüvvələri onların bir hissəsini zərərsizləşdirib. Bu, tammiqyaslı müharibə başlayandan bəri şəhərə edilən ən kütləvi raket zərbəsi olub. Nəticədə, insan itkisi ilə yanaşı, onlarla memarlıq abidəsi zədələnib. Spaso-Preobrajenski Kafedral kilsəsinin raket hücumuna məruz qalması böyük narazılıq yaradıb. BMT-dən bildirilib: "Bu, Ümumdünya İrs Konvensiyası ilə qorunan əraziyə növbəti hücumdur".

UNESCO isə təsdiq edib ki, tammiqyaslı işğalın başlanğıcından bəri bütün Ukraynada, ən azı, 270 mədəni və dini obyektə ziyan dəyib. Qurumun rəhbəri Odre Azule Moskvanı mədəni sərvətlərin və dünya irsinin qorunması ilə bağlı beynəlxalq konvensiyalara əməl etməyə çağırıb.

Avropa diplomatiyasının rəhbəri Josep Borrell deyib: "UNESCO tərəfindən qorunan mədəniyyət abidələrinin dağılması ilə nəticələnən Odessaya kütləvi raket hücumu Rusiya Federasiyasının növbəti hərbi cinayətidir.

Rusiya Ukraynanı məhv etmək üçün artıq yüzlərlə mədəniyyət obyektinə ziyan vurub".

Ukrayna Prezidenti Volodimir Zelenski isə teleqram səhifəsində yazıb: "Rus terrorçuları dinc şəhərlərə raket zərbələrinə görə mütləq cavab alacaqlar. Rus şərinə heç bir bəraət qazandırmaq olmaz. Həmişə olduğu kimi, bu şər uduzacaq. Odessaya görə rus terrorçuları mütləq cavab verəcəklər. Onlar bu cavabı hiss edəcəklər".

Prezident qeyd edib ki, hazırda düşmənin gecə hücumu nəticəsində zərərçəkənlərin hamısına lazımi yardım göstərilir.

Hadisələrin bu fonunda Rusiya Mariupola əlavə canlı qüvvə və texnika yığır. Bu, tezliklə həmin istiqamətdə ağır döyüşlərin gedəcəyindən xəbər verir.

*P. ƏFƏNDİYEV, "Xalq qəzeti"*

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 154 (30270) 25 iyul 2023-cü il, çərşənbə axşamı
veb-sayt: www.xalqqazeti.az

**İdman xəbərləri**

## Gənc atıcımız qızıl medal qazanıb

**Azərbaycanın gənc atıcıları Koreyanın Çanqon şəhərində gənclər arasında keçirilən dünya birinciliyində uğurla çıxış edərək qızıl və bürünc medal qazanıblar.**



Azərbaycan Atıcılıq Federasiyasından “Xalq qəzeti”nə bildiriblər ki, qızlar arasında 50 metr məsafəyə tapançadan atəşaçma yarışlarında Xanna Əliyeva 520 xalla birinci, Leyli Əliyeva isə 510 xalla üçüncü yeri tutublar.

İyulun 14-də start götürən yarış bu gün başa çatacaq.

## Basketbolçularımız Avropa çempionu oldular

**Qızlardan ibarət millimiz Andorrada 16 yaşlı qızlar arasında keçirilən basketbol üzrə Avropa çempionatının “C” divizionunda ən yüksək nəticə qazanıb.**



U-16 komandamız ev sahibi Andorra seçməsi arasında keçirilmiş final oyununda rəqibinə 57-45 hesabı ilə qalib gələrək Avropa çempionu olub. Bu çempionluq Azərbaycan qadın basketbolu tarixində ilk belə böyük uğurdur.

## Karateçilərimizin Yaponiya uğuru

**Azərbaycan karateçiləri Yaponiyanın Okinava şəhərində keçirilən beynəlxalq turnirdə 6 medal qazanıblar.**



Bu barədə Azərbaycan Koşiki Karate-do Federasiyasının fəxri prezidenti Adnan Əhmədzadə tviterdə bildirib. O qeyd edib ki, kata və kumite üzrə qazanılan medalların 5-i qızıl, 1-i isə bürüncdür.

“Çempionlarımız Sevinc, Nazim və Kənanı və Azərbaycan Koşiki Karate-do Federasiyasını təbrik edirəm!”, - deyə o bildirib.

***Leyla QURBANOVA,***
***“Xalq qəzeti”***

## Olimpiya Festivalının açılışı

**Sloveniyanın Maribor şəhərində Avropa Gənclər XVII Yay Olimpiya Festivalının açılış mərasimi keçirilib.**



İdmançıların paradında Azərbaycan millisinin önündə bayrağımızı Mədinə Babayeva və Ramazan Əhmədov daşıyıblar.

“Lyudski vrt” stadionunda keçirilən mərasimdə Sloveniya Prezidenti Nataşa Pirts Musar, Avropa Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos və digər Olimpiya komitələrinin rəhbər şəxsləri iştirak ediblər. 5 mindən artıq azarkeşin arenadan birbaşa izlədiyi açılışda oyunların məşəlini sloveniyalı atlet Marovt və ölkə Prezidenti Musar alovlandırıb. Olimpiya məşəli rəssam Qreta Qodniç tərəfindən hazırlanıb və oyunların proqramına daxil edilən 11 idman növünü özündə əks etdirir.

Sonra Avropa Olimpiya komitələrinin bayrağı qaldırılıb. Könüllülər, idmançılar, hakimlər və məşqçilər adından and içilib.

Tədbirdə çıxış edən Avropa Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos bu multiidman tədbirinin idmanın gələcəyi üçün böyük əhəmiyyət kəsb etdiyini bildirib. Qeyd edib ki, məhz bu festivalda fərqlənən idmançılar sonradan böyük idman yarışlarında, xüsusilə, Olimpiya Oyunlarında öz ölkələrini təmsil edirlər.

Sloveniya Prezidenti Nataşa Pirts Musar festivalı açıq elan edib: “Qoy bu Olimpiya Festivalı idmanın gerçəkləşən arzularının, dostluğun və qarşılıqlı hörmətin bayramı olsun”.

Dünən artıq yarışa start verilib. Festivalın ilk günü komandamızın üzvləri atletika və üzgüçülük yarışlarında mübarizəyə qoşulublar.

Qeyd edək ki, Azərbaycan komandası multiidman tədbirində 7 növ üzrə (şose velosipedi, dağ velosipedi, cüdo, tennis, gimnastika, atletika, üzgüçülük) təmsil olunur. Komandamızın heyətində cüdo (12), atletika (8), velosiped (6), tennis (4), gimnastika (3) və üzgüçülük (2) idman növləri üzrə 36 idmançı yer alıb.

Festivalda 48 ölkədən idmanın 11 növündə 3 min 600-ə yaxın 13-18 yaşlı idmançılar iştirak edirlər. Yarışın bağlanış mərasimi iyulun 29-na təsadüf edəcək.

***L.SABİRQIZI,***
***“Xalq qəzeti”***

## Makron arzu etdiyi beynəlxalq sammitə dəvət edilməyib

### *Bu, onun dünyada nüfuzdan düşməsinin göstəricisidir*

Fransa Prezidenti Emmanuel Makron BRICS (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası) sammitində dəvət edilməyib. BRICS-in sədri kimi CAR Prezidenti Siril Ramaposa 70 ölkənin liderinə dəvət göndərib. Ancaq onların arasında sammitdə iştirak etməyə nail olmaq istəyən Fransa Prezidenti yoxdur. Prezident Emmanuel Makron Cənubi afrikalı həmkarından onun sammitə dəvət olunmasını xahiş etmişdi. ABŞ və Böyük Britaniya liderləri də sammitə dəvət olunmayıb.

Qeyd edək ki, BRICS sammiti 22–24 avqust tarixlərində Yohannesburqda Sandton Konfrans Mərkəzində keçiriləcək.

***“Xalq qəzeti”***

**Maraq dünyamız**

## Süni intellekt kitab da yazır

**Professor Filip M. Parker internetdən alınan məlumatlardan istifadə edərək şablondan avtomatik olaraq kitablar yaradan “yazıçı” bot yaradıb. Parker iddia edir ki, onun proqramı artıq 200 mindən çox kitab “yazıb”: tibbi dərsliklər, iqtisadi kitabçalar, lüğətlər və hətta şeir kitabları.**



Professor bu kitabları mütəmadi olaraq nəşr edir, həmçinin başqa şirkətlərə də xidmət göstərir. İddia edir ki, gördüyü işin gələcəyi var və vaxt gələcək ki, məqalələr yaratmaq üçün insanlara ehtiyac olmayacaq.

Xatırladaq ki, bot – “robot” sözünün qısaldılmış formasıdır və kompüterdə və ya vebdə tapşırıqları avtomatik yerinə yetirən proqram mənasını verir. Bu botları yaratmaqda əsas məqsədlərdən biri görüləcək işləri asanlaşdırmaqdır.

## Hansı birincidir: telefon, yoxsa faks?



**Faks telefondan əvvəl yaranıb. Faks aparatının prototipi hələ 1843-cü ildə kəşf edilib. 1865-ci ildə italyan Covanni Kasellinin cihazı Fransada və Rusiyada Moskva – Sankt-Peterburq arasında kommersiya məqsədilə istifadə olunub. “Panteleqraf” adlanan bu aparatda ötürülmə üçün təsvir xüsusi izolyasiya lakı ilə qurğuşun folqa üzərində çəkilirdi. Lakin bu texnologiya uğurlu olmayıb və öz yerini digər texniki ünsiyyət üsullarına verib.**

Faks rabitəsinin kütləvi inkişafı XX əsrdə mümkün olub. Bu, əvvəlcə teleqrafın, sonra isə telefon və radionun meydana çıxması sayəsində mümkün olub. Məsələn, skanerləşdirilmiş və çap olunmuş material telefon vasitəsilə (mətn və şəkillər də), adətən, bir printer və ya digər çıxış cihaza bağlı bir telefon nömrəsinə ötürülə bilirdi. Beləliklə, hər iki tərəf tez ünsiyyət qururdu.

## İnsan bədəninin qəribəlikləri



1. Gözlərimiz doğulandan ölənə qədər dəyişməz qalır. Bu, daim böyüyən qulaq və burunun tam əksi deməkdir. Əllər və ayaqlar isə həyat boyu böyüyür.
2. Beyin ağrı hiss etmir. Bütün bədəndən ağrı məlumatı alsa da, beynin özündə onu hiss edən ağrı reseptorları yoxdur. Ağrı hiss edə bilməyən başqa bir orqan qaraciyərdir.
3. Bədəndə kifayət qədər minerallar var. Onlardan 900 qələm (kömür), 7 sabun qabı (yağ), 2 min 200 kibrit kükürdü (fosfor), 1 mıx (dəmir) hazırlamaq olar.
5. Hər bir qulaqda 9 əzələ var. Qorxu zamanı qulaq daha çox kir buraxır.
6. Qaşqabaq tökmək üçün 43, yerimək üçün 200, ayaq üstə durmaq üçün 300 əzələ lazımdır.
7. Sevdiyi insana baxanda insanın göz bəbəyi böyüyür. Nifrət edilən insanı görəndə də göz eyni reaksiya verir.
8. İnsanın beyin hüceyrəsi Britaniya Ensiklopediyasından 5 dəfə çox məlumat saxlaya bilər.
9. Beyinin 80 faizi sudan ibarətdir.

***P.ƏFƏNDİ, “Xalq qəzeti”***

**EVRİKA**

## Orqanizm özü diş bitirəcək

**Yaponiyalı alimlər uzun illərdir ki, böyük məməlilərin orqanizmlərində yeni dişlərin yetişdirilməsi fikrini reallaşdırmağa səy göstəriblər. Tədqiqatçılar buna müxtəlif heyvanlar üzərində də nail ola biliblər. Hazırda isə bu ideyanın insanlar üzərində test edilməsinə start verilib. Bu yenilik sayəsində dişlərin innovasiyalı müalicəsi mümkün ola bilər. Sözügedən texnologiyanın müəllifi Katsu Takahaşi hələ tələbəlik illəri zamanı bu ideya üzərində məşğul olduğunu bildirib.**



İllərin təcrübəsi nəticəsində onun komandası USAG-1 adlı genin kəşf edilməsinə nail olub. Belə ki, sözügedən genə təsir etməklə yeni dişlərin əmələ gəlməsini stimullaşdırmaq olar.

Müəllif vurgulayıb ki, yeni dişlərin yetişdirilməsi ideyası hər bir stomatoloqun arzusudur. Bizim araşdırmalarımız bu ideyanın reallaşdırılması üçün nəzərdə tutulmuş tibbi üsulun istifadəsinə yol açmaqdır. İlk klinik testlərdə doğuşdan bir və ya bir neçə dişin olmaması kimi genetik xəstəlikdən əziyyət çəkən insanlar iştirak edəcəklər. Əgər sınaqlar uğurlu alınarsa, mütəxəssislər yeni müalicə üsulunu 2030-cu ilə kimi hamı üçün istifadə etməyi planlaşdırırlar.

***Səadət RZAYEVA,***
***“Xalq qəzeti”***

**Sağlamlıq**

## Çörəyin faydası çoxdur, yoxsa ziyanı?

**Qidamızda mütləq qaydada çörəyə üstünlük verən xalq olaraq hər növ xörəyi məhz çörəklə yeməyə çalışırıq. Doyma hissini yalnız çörəyin yaratdığına özümüzü inandırırıq.**



Amma tədqiqatlarla sübut olunub ki, çörəyin xeyrindən çox, zərərləri də az deyil.

Türkiyəli mütəxəssis Doğan Soyalpın fikrincə, çörəyin 7 xəstəliyə mənfi təsiri var. Bunlar aşağıdakılardır:

1.Ekzema, sədəf, vitiliqo kimi dəri xəstəlikləri.
2. Endokrin xəstəlikləri– haşimoto, qraves .
3. Revmatik xəstəliklər– artrit, ankilozan spondilit.
4. Xoralı kolit, irinli bağırsaq sindromu və çölyak.
5. Diabet, hipertoniya, qanazlığı, sonsuzluq.
6. Alsheymer, parkinson.
7. Panik atak, depressiya, narahatlıq kimi psixiatrik xəstəliklər.

Doğan Soylap deyib ki, sadalananlardan hər hansı biri sizdə varsa və çörək yeməyə davam edirsinizsə, bu xəstəliklər heç bir müalicə ilə sizdən əl çəkməyəcək.

***Zərifə HÜSEYNLİ,***
***“Xalq qəzeti”***

**Proqnoz**

## Güclü külək əsəcək, yağış, leysan yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyulun 25-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək.

Gecə 19-24°, gündüz 25-29° isti olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:

Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Küləkli hava şəraiti dənizdə yüksək dalğalanma yaradacaq ki, bununla əlaqədar əhalinin çimərliklərdə ehtiyatlı olması tövsiyə olunur. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 20-24° , gündüz 29-34° , dağlarda gecə 9-14°, gündüz 14-17° isti olacaq.

***Q. QASIMOV, “Xalq qəzeti”***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4608
SİFARİŞ 1850
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00